RƏSMİ DÖVLƏT QƏZETİ

AZƏRBAYCAN



№ 212 (10232) 18 noyabr 2026-cı il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



Çoxqütblü dünyada müstəqil siyasət

Azərbaycan güc mərkəzləri ilə qarşılıqlı hörmət və etimad əsasında tərəfdaşlıq qurmağı bacaran nadir ölkələrdəndir

Azərbaycanın balanslaşdırılmış xarici siyasət kursunda Avropa İttifaqı (Aİ) və qitənin aparıcı dövlətləri ilə əməkdaşlıq xüsusi yer tutur. Bu gün Azərbaycan təbii qazı dünyanın 14 ölkəsinə, o cümlədən Aİ-yə üzv olan 10 dövlətə ixrac edilir. Ənənəvi karbohidrogen resursları ilə yanaşı, ölkəmiz külək və günəş enerjisi potensialı ilə də Avropanın "yaşıl enerji" keçidində açar rol oynayır.

Ölkəmizin Aİ-nin 10 üzv dövləti ilə strateji tərəfdaşlıq sənədləri mövcuddur. 2020-ci ildə İtaliya ilə imzalanmış Çoxölçülü Strateji Tərəfdaşlığın Gücləndirilməsinə dair Birgə Bəyannamənin ardınca bu ilin iyul ayında Prezident İlham Əliyevin Berlində Almaniya Federal Kansleri Fridrix Mertslə imzaladığı "İkitərəfli tərəfdaşlıq üçün strateji gündəliyə dair Birgə Bəyannamə" Avropanın əsas siyasi-iqtisadi mərkəzləri ilə münasibətlərin yeni yol xəritəsini müəyyənləşdirdi.

Cari il ərzində Avropa İttifaqının ali rəsmiləri - Antonio Koşta, Kaya Kallas və Ursula fon der Lyayenin Bakıya ardıcıl səfərləri, Aİ ilə 2026-2030-cu illər üzrə Tərəfdaşlıq Prioritetlərinin razılaşdırılması və noyabrın 12-də İrlandiyanın paytaxtı Dublində keçirilən "Avropa Siyasi Birliyinin" 9-cu Zirvə Toplantısında diplomatik fəallıq Azərbaycanın Avropa siyasətindəki yerini daha da möhkəmləndirdi.

Prezident İlham Əliyev Dublin Sammiti çərçivəsində gün ərzində Avropa İttifaqı Şurasının prezidenti Antonio Koşta, həmçinin Ukrayna, Moldova, Bolqarıstan, Yunanıstan, Çexiya, Rumıniya, Litva, Böyük Britaniya və Ermənistanın dövlət və hökumət başçıları da daxil olmaqla, ümumilikdə 10 ikitərəfli görüş keçirdi. Qarşı tərəflərin istəyi ilə keçirilən bu görüşlər Azərbaycan liderinə və dövlətimizə göstərilən qlobal etimadın, həmçinin ölkəmizin beynəlxalq nüfuzunun göstəricisi idi.

Bununla yanaşı, Dublində Böyük Britaniyanın Baş naziri Endi Börnhem ilə keçirilən görüşdə "Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə"nin mübadilə olunması 30 ildən artıq davam edən enerji əməkdaşlığını yüksək texnologiyalar və süni intellekt müstəvisinə keçirdi.

6

Bu ildən başlayaraq Azərbaycan qazı Almaniyaya ixrac edilir

Prezident İlham Əliyev Almaniyanın xarici işlər nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 17-də Almaniya Federativ Respublikasının xarici işlər naziri Yohan David Vadefulun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, qonaq ilk növbədə Almaniya Federativ Respublikasının Prezidenti Frank-ValterŞtaynmayerin və Federal Kansler Fridrix Mertsin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Almaniya Prezidentinə və Federal Kanslerinə çatdırmağı xahiş etdi.

2



Azərbaycanla Gürcüstanın birgə həyata keçirdiyi layihələr daha geniş region üçün mühüm əhəmiyyət kəsb edir

Prezident İlham Əliyev Gürcüstanın Baş nazirinin müavinini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 17-də Gürcüstanın Baş nazirinin müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Mariam Kvrivişvilini qəbul edib.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı bu ilin aprelində Azərbaycan Prezidentinin Gürcüstana dövlət səfəri, həmçinin Mariam Kvrivişvilinin ötən il ölkəmizə səfəri və dövlətimizin başçısı ilə görüşü məmnunluqla xatırlandı, bütün bunların ikitərəfli əlaqələrimizin inkişafına töhfə verdiyi qeyd olundu.

Qonaq Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin salamlarını Prezident İlham Əliyevə çatdırdı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Baş nazir İrakli Kobaxidzeyə çatdırmağı xahiş etdi.

2



Birinci vitse-prezident Mehriban Əliyeva sosial media hesabında Milli Dirçəliş Günü ilə bağlı paylaşım edib



İlham Əliyevin güclü Azərbaycan strategiyası

Tarixi Zəfərimizin arxasında çox güclü amillər durur. Ümummilli Lider Heydər Əliyevin təməlini qoyduğu və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi uzunmüddətli dövlət quruculuğu, ölkəmizin hərbi potensialının gücləndirilməsi, sosial-iqtisadi imkanların genişləndirilməsi, uğurlu diplomatik fəaliyyət, xalqımızın milli vəhdəti kimi bir-biri ilə əlaqəli məsələlər bura daxildir. Hərbi qələbə müharibə başlayan gündən formalaşmağa başlayan prosesin nəticəsi deyil, ondan əvvəlki illərdə həyata keçirilmiş siyasi, iqtisadi və hərbi strategiyanın yekun mərhələsi idi.

Müstəqil dövlətin gücü yalnız onun ordusunun say və texniki imkanları ilə ölçülmür. İqtisadi dayanıqlıq, dövlət institutlarının fəaliyyəti, beynəlxalq münasibətlər sistemində mövqe, diplomatik manevr imkanları və cəmiyyətin ümumi səfərbərlik potensialı milli təhlükəsizliyin ayrılmaz elementləridir. Azərbaycanın 2020-ci ildə əldə etdiyi nəticələri təhlil edərkən məhz bu amillərin məcmusuna diqqət yetirmək lazımdır.



İşğal dövründə Azərbaycan rəhbərliyi münaqişənin danışıqlar yolu ilə həllinə üstünlük verdiyini bildirir, eyni zamanda ərazi bütövlüyünün bərpası məsələsində güzəştsiz mövqe nümayiş etdirirdi. Beynəlxalq vasitəçilik prosesinin uzun illər nəticəsiz qalması, danışıqların real irəliləyişə gətirib çıxarmaması və işğalın davam etməsi Azərbaycanın hərbi potensialının artırılmasını dövlət siyasətinin prioritetlərindən birinə çevirmişdi.

Artıq başqa yol qalmamışdı. Prezidentin müraciətində də vurğulandığı kimi, Azərbaycan Ordusunun müasirləşdirilməsi, yeni silah və texnikanın alınması, hərbi qulluqçuların peşəkarlığının yüksəldilməsi, müntəzəm təlimlərin keçirilməsi qələbənin mühüm şərtlərindən oldu. Bununla yanaşı, ölkəmizin iqtisadi imkanlarının genişlənməsi və beynəlxalq nüfuzunun yüksəlməsi də müdafiə qabiliyyətinin möhkəmləndirilməsinə əlavə imkanlar yaratdı.

7

BTC-nin uzun yolunun başlanğıcı

27 il əvvəl İstanbulda kəmərin marşrutunu müəyyənləşdirən mühüm sənəd imzalanmışdır

Yeni kəmərin yaranmasının ideya müəllifi Ümummilli Lider Heydər Əliyev oldu. 1999-cu il noyabrın 18-də İstanbulda, ATƏT-in Zirvə toplantısında Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəmərinin çəkilişi ilə bağlı sazişə imza atıldı. Bu, xam neftin BTC vasitəsilə Azərbaycan, Gürcüstan və Türkiyənin əraziləri ilə nəql edilməsinə dair saziş idi. Kəmərin tikintisi üçün həlledici rol oynayan həmin mühüm sənədi Azərbaycanın, Gürcüstanın, Türkiyənin, Qazaxıstanın və ABŞ-nin ovaxtkı prezidentləri imzaladılar. Bu, Ulu Öndər Heydər Əliyevin siyasi uzaqgörənliyi və dünyadakı nüfuzu sayəsində mümkün oldu.



Sözügedən hadisədən bir il əvvəl - 1998-ci il oktyabrın 19-da Ankarada kəmərin inşa edilməsi haqqında Bəyannamə imzalanmışdı. İstanbulda imzalanan, BTC qarşısında "yaşıl işıq" yandıran növbəti, həlledici sazişin imzalanması isə "Əsrin müqaviləsi"ndən sonra Azərbaycan üçün tarixi əhəmiyyət kəsb edən daha bir böyük hadisə idi.

Sənədin imzalandığı 1999-cu ildə Azərbaycan neftini Bakı-Supsa marşrutu ilə daşıyan Qərb İxrac Boru Kəməri (QİBK) istifadəyə verilmişdi. Bu, texniki cəhətdən çox mürəkkəb layihə idi və böyük maliyyə vəsaiti hesabına reallaşmışdı. Tikintinin müvəffəqiyyətlə başa çatdırılması bir daha göstərmişdi ki, Azərbaycan böyük işlər görməyə, həm də onları qısa müddətdə həyata keçirməyə qadirdir.

8

Bu ildən başlayaraq Azərbaycan qazı Almaniyaya ixrac edilir

Prezident İlham Əliyev Almaniyanın xarici işlər nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



Əvvəli 1-ci səh.

Söhbət zamanı bu ilin iyulunda dövlətimizin başçısının Almaniyaya rəsmi səfəri, səfər çərçivəsində keçirilən görüşlər və aparılan səmərəli müzakirələr məmnunluqla xatırlandı. Həmin səfər zamanı imzalanmış "Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında ikitərəfli tərəfdaşlıq üçün strateji gündəliyə dair Birgə Bəyannamə", həmçinin Azərbaycan-Almaniya Biznes Şurasının yaradılmasına və fəaliyyətinə dair Birgə Bəyannamənin ikitərəfli əməkdaşlığın möhkəmlənməsində roluna toxunuldu.

Görüşdə ölkələrimiz arasında münasibətlərin uğurla inkişaf etdiyi vurğulandı, siyasi, iqtisadi, sərmayələr, biznes, ənənəvi və alternativ enerji, bağlantılar, nəqliyyat, logistika, turizm və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə edildi.

Ölkəmizin Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verdiyi vurğulandı, bu ildən başlayaraq Azərbaycan qazının Almaniyaya ixracı qeyd olundu.

Söhbət zamanı ölkəmizin Orta dəhlizdə önəmli roluna toxunuldu, Azərbaycan-Avropa İttifaqı əlaqələrinin perspektivləri, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edildi.

Azərbaycanla Gürcüstanın birgə həyata keçirdiyi layihələr daha geniş region üçün mühüm əhəmiyyət kəsb edir

Prezident İlham Əliyev Gürcüstanın Baş nazirinin müavinini qəbul edib



Əvvəli 1-ci səh.

Görüşdə Azərbaycanla Gürcüstan arasında dostluq və mehriban qonşuluq prinsiplərinə əsaslanan ikitərəfli münasibətlərin müxtəlif istiqamətlər üzrə uğurla inkişaf etməsindən məmnunluq bildirildi. Azərbaycanla Gürcüstanın birgə həyata keçirdiyi enerji və nəqliyyat layihələrinin daha geniş region üçün mühüm əhəmiyyət kəsb etdiyi vurğulandı. Söhbət zamanı müxtəlifsəviyyəli qarşılıqlı səfərlərin əlaqələrimizin inkişafında roluna toxunuldu, ticarət dövriyyəsinin artırılması, bağlantılar, enerji, sərmayələr və digər istiqamətlərdə əməkdaşlığın daha da möhkəmləndirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 16-cı və 23-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

Maddə 1. Azərbaycan Respublikasının Əmək Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 213 (Cild I); 2024, № 1, maddə 6, № 4, maddə 365, № 7, maddə 744, № 8, maddə 934; 2025, № 1, maddələr 1, 16, № 2, maddə 96, № 4 (I kitab), maddə 322, № 7, maddələr 606, 608; 2026, № 1, maddələr 8, 16, № 2, maddə 110, № 3, maddə 209, № 4, maddələr 295, 300, № 5 (I kitab), maddələr 397, 403, № 6, maddə 492, № 7 (I kitab), maddələr 620, 625) aşağıdakı məzmunda 94-1-ci və 103-1-ci maddələr əlavə edilsin:

"Maddə 94-1. Kommersiya hava daşımalarını həyata keçirən təyyarələrdə hava gəmisi heyətinin iş vaxtı

Bu Məcəllənin on üçüncü və on dördüncü fəsilləri kommersiya hava daşımalarını həyata keçirən təyyarələrdə hava gəmisi heyətinə onların iş vaxtını tənzimləyən normativ hüquqi aktlar nəzərə alınmaqla şamil edilir.";

"Maddə 103-1. Kommersiya hava daşımalarını həyata keçirən təyyarələrdə hava gəmisi heyətinin istirahət vaxtı

Bu fəsil kommersiya hava daşımalarını həyata keçirən təyyarələrdə hava gəmisi heyətinə onların istirahət vaxtını tənzimləyən normativ hüquqi aktlar nəzərə alınmaqla şamil edilir.".

Maddə 2. "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 2, maddə 133 (Cild I); 2025, № 4 (I kitab), maddə 306, № 6, maddə 521; 2026, № 7 (I kitab), maddə 624, № 8, maddə 770) aşağıdakı məzmunda 1.1.82-1-ci və 27-1-ci maddələr əlavə edilsin:

"1.1.82-1. uçuş iş vaxtı - hava gəmisinin heyət üzvünün bir və ya bir neçə ardıcıl uçuşun həyata keçirilməsi üçün hava limanına gəldiyi vaxtda (hava gəmisinin istismarçısı tərəfindən müəyyən edilən) başlayan və son uçuş başa çatdıqdan sonra hava gəmisinin yerdə hərəkətinin tam dayandığı ana qədər olan müddət;";

"Maddə 27-1. Kommersiya hava daşımalarını həyata keçirən təyyarələrdə hava gəmisi heyətinin iş və istirahət vaxtının tənzimlənməsi

27-1.1. Kommersiya hava daşımalarını həyata keçirən təyyarələrdə hava gəmisi heyətinin iş və istirahət vaxtı, o cümlədən uçuş vaxtı və uçuş iş vaxtı bu Qanunun 27-1.2-ci maddəsi nəzərə alınmaqla, bu Qanuna, Beynəlxalq Mülki Aviasiya Təşkilatının beynəlxalq standartlarına və tövsiyə olunan təcrübəsinə, habelə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydalara uyğun olaraq tənzimlənir.

27-1.2. Kommersiya hava daşımalarını həyata keçirən təyyarələrdə hava gəmisi heyətinin iş və istirahət vaxtı ilə bağlı bu Qanunda və onun əsasında qəbul edilmiş normativ hüquqi aktlarda tənzimlənməyən məsələlər Azərbaycan Respublikası Əmək Məcəlləsinin müvafiq normaları ilə tənzimlənir.

27-1.3. Kommersiya hava daşımalarını həyata keçirən təyyarələrdə hava gəmisi heyətinin iş vaxtı aşağıdakı müddətlər əsasında müəyyənləşdirilir:

27-1.3.1. istənilən 7 (yeddi) ardıcıl gün ərzində maksimal iş saatı;

27-1.3.2. istənilən 14 (on dörd) ardıcıl gün ərzində maksimal iş saatı;

27-1.3.3. istənilən 28 (iyirmi səkkiz) ardıcıl gün ərzində maksimal iş saatı;

27-1.3.4. istənilən 1 (bir) təqvim ili ərzində maksimal iş saatı.

27-1.4. Kommersiya hava daşımalarını həyata keçirən təyyarələrdə hava gəmisi heyətinin uçuş vaxtı aşağıdakı müddətlər əsasında müəyyənləşdirilir:

27-1.4.1. istənilən 28 (iyirmi səkkiz) ardıcıl gün ərzində maksimal uçuş saatı;

27-1.4.2. istənilən 1 (bir) təqvim ili ərzində maksimal uçuş saatı;

27-1.4.3. istənilən ardıcıl 12 (on iki) təqvim ayı ərzində maksimal uçuş saatı.".

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 oktyabr 2026-cı il

"Azərbaycan Respublikası Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu və 27-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 12, maddə 984 (Cild I); 2024, № 2, maddə 138; 2026, № 7 (I kitab), maddə 619) 48-1-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

"Maddə 48-1. Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması

48-1.1. Mərkəzi Bank "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş maliyyə institutlarına və onların daxil olduğu maliyyə qruplarına münasibətdə həmin Qanunda və "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada və hallarda nəzarət orqanının funksiyalarını həyata keçirir.

48-1.2. Mərkəzi Bank cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması sahəsində maliyyə institutlarının və maliyyə qruplarının risk profillərini, o cümlədən "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə riayət edilməməsi risklərini dövri olaraq qiymətləndirir, eləcə də maliyyə institutunun və ya onun daxil olduğu maliyyə qrupunun idarə edilməsində və ya əməliyyatlarında əhəmiyyətli dəyişikliklər baş verdikdə (yenidən təşkil olunduqda, benefisiar mülkiyyətçilər dəyişdikdə, maliyyə institutunun fəaliyyət növləri, müştəri qrupu, habelə coğrafi fəaliyyət dairəsində dəyişiklik olduqda, əvvəlki təqvim ili ilə müqayisədə əməliyyatların intensivliyi və ya məbləğində 40 (qırx) faiz və ya daha çox artım olduqda) qiymətləndirməni təkrar həyata keçirir.

48-1.3. "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikasının qanunlarından irəli gələn nəzarət tədbirlərinin həyata keçirilməsi məqsədilə Mərkəzi Bank yazılı sorğusuna əsasən həmin sorğuda müəyyən edilmiş müddətdə maliyyə institutlarından və ya maliyyə qruplarından sənəd və məlumatları tələb etmək hüququna malikdir.

48-1.4. Mərkəzi Bank tərəfindən nəzarət tədbirlərinin həyata keçirilməsinin dövriliyi və intensivliyi aşağıdakılar nəzərə alınmaqla müəyyən edilir:

48-1.4.1. maliyyə institutlarının və ya maliyyə qruplarının risk profilinin qiymətləndirilməsi nəticəsində müəyyən olunan risklər və onların siyasət, daxili qayda, nəzarət mexanizmləri və prosedurları;

48-1.4.2. ölkə səviyyəsində mövcud olan cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, terrorçuluğun maliyyələşdirilməsi, kütləvi qırğın silahlarının yayılması və yayılmasının maliyyələşdirilməsi riskləri;

48-1.4.3. maliyyə institutlarının və (və ya) maliyyə qruplarının xüsusiyyətləri, o cümlədən maliyyə institutlarının müxtəlifliyi və sayı, eləcə də risk əsaslı yanaşma çərçivəsində normativ xarakterli aktla onlara verilmiş səlahiyyət genişliyinin dərəcəsi.

48-1.5. Bankların, həyatın yığım sığortası fəaliyyəti ilə məşğul olan yerli və xarici sığortaçıların, təkrar sığortaçıların və sığorta vasitəçilərinin, investisiya şirkətlərinin, investisiya fondlarının və onların idarəçilərinin, xarici investisiya fondlarının nümayəndəliklərinin daxil olduğu maliyyə qruplarına əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə məqsədləri ilə nəzarət konsolidasiya olunmuş formada həyata keçirilir."

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 oktyabr 2026-cı il

"Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əbədi dostluq haqqında Müqavilə"nin təsdiq edilməsi barədə

Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2026-cı il avqustun 23-də Daşkənd şəhərində imzalanmış "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əbədi dostluq haqqında Müqavilə" təsdiq edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 3 noyabr 2026-cı il

"Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında pensiya təminatı sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2026-cı il avqustun 23-də Daşkənd şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında pensiya təminatı sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 3 noyabr 2026-cı il

"Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 27oktyabr tarixli 499-VIIQD nömrəli Qanununun tətbiqi və "Aviasiya haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 fevral tarixli 1 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 27 oktyabr tarixli 499-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Aviasiya haqqında" Azərbaycan Respublikası Qanununun 27-1.1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 27-1.1-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "Aviasiya haqqında" Azərbaycan Respublikası Qanununun 27-1.1-ci maddəsinə uyğun olaraq, kommersiya hava daşımalarını həyata keçirən təyyarələrdə hava gəmisi heyətinin iş və istirahət vaxtının, o cümlədən uçuş vaxtının və uçuş iş vaxtının tənzimlənməsi qaydalarını altı ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. "Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 27 oktyabr tarixli 499-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. "Aviasiya haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 fevral tarixli 1 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 2, maddə 149; 2025, №4 (I kitab), maddə 337,№ 6, maddə 540; 2026, № 2, maddə 123, № 8, maddə 784) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.1-ci bəndə "27.4-cü," sözlərindən sonra "27-1.1-ci," sözləri əlavə edilsin;

3.2. 1.3-cü bənddə ikinci halda "maddəsində" sözü ", 27-1.1-ci maddələrində" sözləri ilə əvəz edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 17 noyabr 2026-cı il

"Bir pəncərə" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "İdxal-ixrac, tranzit, nəqliyyat və logistika üzrə fəaliyyətin rəqəmsallaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 15 dekabr tarixli 547 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Bir pəncərə" informasiya sistemi haqqında Əsasnamə" təsdiq edilsin *(əlavə olunur)*.

2. Bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilən Əsasnamənin 4-cü hissəsində qeyd olunan məlumatların ilkin mənbəyini formalaşdıran dövlət orqanları (qurumları) idxal-ixrac, tranzit, nəqliyyat və logistika üzrə fəaliyyətin tam rəqəmsallaşdırılması məqsədilə, Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin təklifləri əsasında, altı ay müddətində sahibi və ya operatoru olduqları dövlət informasiya ehtiyatlarının və sistemlərinin təkmilləşdirilməsi və Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə "Bir pəncərə" informasiya sisteminə inteqrasiyası ilə bağlı tədbirlər görsünlər.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 noyabr 2026-cı il

Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 16 noyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir

"Bir pəncərə" informasiya sistemi haqqında

ƏSASNAMƏ

1. Ümumi müddəalar

1.1. Bu Əsasnamə "Bir pəncərə" informasiya sisteminin (bundan sonra - informasiya sistemi) fəaliyyətinin hüquqi, təşkilati və texnoloji əsaslarını müəyyən edir.

1.2. İnformasiya sistemi "İdxal-ixrac, tranzit, nəqliyyat və logistika üzrə fəaliyyətin rəqəmsallaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 15 dekabr tarixli 547 nömrəli Fərmanının 2.1-ci və 2.3-cü bəndlərində nəzərdə tutulmuş funksiyaların həyata keçirilməsini, habelə rəqəmsal texnologiyalardan, o cümlədən informasiya-kommunikasiya texnologiyalarından istifadə yolu ilə dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin səmərəli şəkildə əlaqələndirilməsini, fiziki və hüquqi şəxslərlə əlaqələrin operativliyini, səmərəliliyini, şəffaflığını, göstərilən xidmətlərin, həmçinin xarici ticarət fəaliyyətinin həyata keçirilməsi ilə bağlı tələb olunan məlumatların (sənədlərin) transsərhəd ötürülməsini, eləcə də bu çərçivədə məlumatların (sənədlərin) informasiya sistemi vasitəsilə təhlükəsizlik standartlarına və beynəlxalq tələblərə uyğun olaraq formalaşdırılmasını, toplanılmasını, mübadiləsini və izlənilməsini, informasiya sistemində saxlanılan məlumatların sistemliliyini və əlçatanlığını təmin edir.

1.3. İnformasiya sisteminin formalaşdırılmasının məqsədi xarici ticarətin tənzimlənməsi sahəsində dövlət idarəetmə mexanizminin təkmilləşdirilməsindən, dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin səmərəli şəkildə əlaqələndirilməsindən, o cümlədən idxal-ixrac, tranzit, nəqliyyat və logistika əməliyyatları üzrə vahid giriş imkanı əsasında tam rəqəmsal mühitin yaradılmasından, yük axınlarının "ağıllı" idarə edilməsindən, eləcə də bu sahə üzrə təhlillərin aparılmasından, proqnoz və hesabatların hazırlanmasından və göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsindən ibarətdir.

1.4. İnformasiya sistemində yaradılan, əldə edilən, toplanılan informasiya və elektron sənədlər Azərbaycan Respublikasının mülkiyyətidir.

1.5. Fərdi məlumatların informasiya sistemində toplanılmasının və işlənilməsinin məqsədi bu Əsasnamənin 1.2-ci bəndində qeyd olunanları təmin etməkdir. Fərdi məlumatların informasiya sistemində toplanılması, işlənilməsi və mühafizəsi "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarına uyğun olaraq həyata keçirilir.

1.6. İnformasiya sisteminin fəaliyyətinin təşkili, idarə olunması və təkmilləşdirilməsi ilə bağlı xərclər qanunla qadağan olunmayan mənbələr (dövlət büdcəsinin vəsaiti istisna olmaqla) hesabına maliyyələşdirilir.

1.7. İnformasiya sistemi Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın (bundan sonra - Qaydalar) 2.1-ci bəndində qeyd edilən prinsiplər əsasında formalaşdırılır və fəaliyyət göstərir.

1.8. Bu Əsasnamə əldə edilməsi məhdudlaşdırılmış informasiyanı ehtiva edən informasiya ehtiyatlarına və sistemlərinə, habelə kritik informasiya infrastrukturu obyektlərinə həmin sahələri tənzimləyən normativ hüquqi aktlara uyğun olaraq tətbiq edilir.

1.9. Bu Əsasnamədə istifadə olunan anlayışlar "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda, Qaydalarda, həmçinin Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarında müəyyən edilmiş mənaları ifadə edir.

2. İnformasiya sisteminin texniki-texnoloji infrastrukturu

2.1. İnformasiya sisteminin texniki-texnoloji infrastrukturu aşağıdakı əsas komponentlərdən ibarətdir:

2.1.1. proqram-texniki vasitələr və proqram təminatı;

2.1.2. telekommunikasiya qurğuları və kanalları;

2.1.3. informasiya ehtiyatı və onu idarəetmə paneli;

2.1.4. ehtiyat nüsxələr;

2.1.5. istismaraqədərki formalaşma mühitləri.

2.2. Proqram-texniki vasitələr və proqram təminatı vətəndaş və biznesyönümlü həllər əsasında "Mobil Prioritetli Tərtibat" prinsipi ilə qurularaq, informasiya sisteminin funksiyalarının həyata keçirilməsini, fəaliyyətinin etibarlılığını və təhlükəsizliyini, habelə informasiya sistemindən istifadəni və məlumat (sənəd) mübadiləsini təmin edir.

2.3. İnformasiya sisteminin fəaliyyətinin etibarlılığını və təhlükəsizliyini, operativ və keyfiyyətli xidmətlər göstərilməsini, habelə məlumat mübadiləsini təmin edən dayanıqlı, mühafizəli, yüksəkötürücülü fiber-optik əsas və digər ehtiyat telekommunikasiya qurğularına və kanallarına malikdir.

2.4. İnformasiya sisteminin qurulma topologiyasına uyğun olaraq, telekommunikasiya qurğuları və kanalları iki səviyyədə təşkil edilir:

2.4.1. informasiya sisteminin fəaliyyətinin təşkili üçün müvafiq qurumdaxili telekommunikasiya qurğuları və kanalları-operatorun struktur bölmələri tərəfindən;

2.4.2. informasiya sisteminin digər dövlət informasiya ehtiyatları və sistemləri ilə qarşılıqlı fəaliyyətinin təşkili üçün istifadə edilən telekommunikasiya qurğuları və kanalları Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti (bundan sonra - XRİTDX) tərəfindən.

2.5. İnformasiya sistemində formalaşdırılan, ona daxil edilən və ötürülən məlumatlar informasiya sisteminin informasiya ehtiyatında saxlanılır.

2.6. İdarəetmə paneli informasiya sisteminin informasiya ehtiyatının formalaşdırılmasını və idarə edilməsini, o cümlədən informasiya ehtiyatından istifadəni təmin edir.

2.7. Fəaliyyətinin dayanıqlılığının və təhlükəsizliyinin təmin edilməsi məqsədilə informasiya sistemi, o cümlədən informasiya sistemində toplanılan məlumatların ehtiyat nüsxələri "Hökumət buludu"nda saxlanılır.

2.8. İnformasiya sistemində aparılan dəyişikliklərin yoxlanılması istismaraqədərki formalaşma mühitlərində həyata keçirilir.

3. İnformasiya sisteminin altsistemləri

3.1. İnformasiya sisteminin strukturuna aşağıdakı altsistemlər daxildir:

3.1.1. "Ticarət bələdçisi" altsistemi;

3.1.2. "Dövlət xidmətləri" altsistemi;

3.1.3. "Biznes xidmətləri" altsistemi;

3.1.4. "Təhlil və hesabatlılıq" altsistemi;

3.1.5. "Məlumatlandırma" altsistemi;

3.1.6. "İdarəetmə" altsistemi.

3.2. "Ticarət bələdçisi" altsistemi vasitəsilə idxal-ixrac, tranzit, nəqliyyat və logistika əməliyyatlarının həyata keçirilməsi, sərhədkeçmə prosedurları (ölkəyə gəlmə, qeydiyyat və ölkədən getmə), daşıma qaydaları və şərtləri, habelə tələb edilən sənədlər (məlumatlar) haqqında məlumatlandırma, informasiya sorğularının göndərilməsi və cavablandırılması təmin edilir.

3.3. "Dövlət xidmətləri" altsistemi vasitəsilə idxal-ixrac, tranzit, nəqliyyat və logistika əməliyyatları üzrə sahibkarlıq subyektlərinə göstərilən dövlət xidmətləri ilə bağlı müraciətlərin qəbulu, emal edilməsi üçün aidiyyəti dövlət informasiya sistemlərinə və ehtiyatlarına göndərilməsi, habelə müraciətlərin normativ hüquqi aktlara uyğun olaraq cavablandırılması təmin edilir.

3.4. "Biznes xidmətləri" altsistemi vasitəsilə ekspeditorlar və daşıyıcılar barədə məlumatlara əlçatanlıq, onlarla müştərilərin əlaqələndirilməsi, həmin subyektlər tərəfindən göstərilən xidmətlərə müraciətlərin qəbulu və cavablandırılması, bu subyektlər arasında mülki-hüquqi müqavilələrin elektron qaydada bağlanılması, nəqliyyat vasitələrinə və daşınan mallara dair tələb olunan sənədlərin və məlumatların elektron qaydada tərtib edilməsi, bağlanılmış müqavilələrin və tərtib edilən sənədlərin (məlumatların) təqdim olunması, daşınan yüklərin bütün hərəkət marşrutu boyunca izlənilməsi, eləcə də bankların, bank olmayan kredit təşkilatlarının və sığortaçıların informasiya ehtiyat və sistemlərinə keçid verilməklə banklar, bank olmayan kredit təşkilatları və sığortaçılar barədə məlumatlara əlçatanlıq, onlarla müştərilərin əlaqələndirilməsi təmin edilir.

3.5. "Təhlil və hesabatlılıq" altsistemi vasitəsilə idxal-ixrac, tranzit, nəqliyyat və logistika əməliyyatları, həmin əməliyyatlarla əlaqədar informasiya sisteminə daxil edilmiş (ötürülmüş) sənədlərin (məlumatların), eləcə də aparılan ödənişlər barədə sənədlərin (məlumatların) təhlili və işlənilməsi, habelə statistik məlumatların və hesabatların əldə olunması təmin edilir.

3.6. "Məlumatlandırma" altsistemi vasitəsilə istifadəçilərə məlumat xarakterli elektron bildirişlərin göndərilməsi təmin edilir.

3.7. "İdarəetmə" altsistemi vasitəsilə sahibin, operatorun, istifadəçilərin və iştirakçıların informasiya sistemindən istifadə üzrə rollarının idarə edilməsi təmin edilir.

4. İnformasiya sisteminə daxil edilən və ötürülən məlumatlar

4.1. Xarici ticarət fəaliyyətinin həyata keçirilməsi ilə bağlı aşağıdakı məlumatlar informasiya sisteminə istifadəçilər tərəfindən elektron kabinet vasitəsilə daxil edilir:

4.1.1. həyata keçirilən sahibkarlıq fəaliyyəti növü, sahibkarlıq subyektləri tərəfindən göstərilən xidmətlərin dairəsi, qaydaları və şərtləri, habelə ödənişlər barədə məlumatlar;

4.1.2. yük-nəqliyyat sənədləri üzrə məlumatlar, eləcə də həmin sənədlərin tərtibi zamanı daxil edilən digər məlumatlar;

4.1.3. qeyri-rezident hüquqi və fiziki şəxslər tərəfindən təqdim olunan könüllü və icbari sığorta üzrə bu Əsasnamənin 4.2.18-ci yarımbəndində göstərilən məlumatlar;

4.1.4. bank hesabı sahibinin özü tərəfindən daxil edilən bank hesabı məlumatları;

4.1.5. əlaqə məlumatları (telefon nömrəsi və elektron poçt ünvanı (olduğu halda);

4.1.6. avtonəqliyyat vasitələrinin yükboşaltma yerlərinə giriş-çıxış məlumatları;

4.1.7. beynəlxalq sərnişin və yük daşımalarını yerinə yetirən sürücülər barədə taxoqraf məlumatları;

4.1.8. qeyri-rezident hüquqi şəxsin adı, hüquqi ünvanı, təşkilati-hüquqi forması və dövlət qeydiyyatı barədə məlumatlar;

4.1.9. qeyri-rezident fiziki şəxsin soyadı, adı, atasının adı və ünvanı;

4.1.10. malların olduğu yerlərə dair anbar məlumatları.

4.2. Xarici ticarət fəaliyyətinin həyata keçirilməsi ilə bağlı aşağıdakı məlumatlar informasiya sisteminə Azərbaycan Respublikasının normativ hüquqi aktları (məlumatların tərkibinin və mübadiləsinin hüquqi əsaslarını tənzimləyən) ilə müəyyən edilmiş hədlərdə Elektron Hökumət İnformasiya Sistemi (bundan sonra - EHİS) vasitəsilə müvafiq informasiya sistemlərindən və ehtiyatlarından ötürülür:

4.2.1. fiziki şəxslərin şəxsiyyətini təsdiq edən sənəd, eləcə də sərhədkeçmə sənədi və viza məlumatları;

4.2.2. nəqliyyat vasitələri, onları idarə edən sürücülər, bələdçilər, heyət üzvləri, habelə mallar üzərində sərhəd nəzarətinin tamamlanması barədə bildiriş məlumatları;

4.2.3. hüquqi şəxslərin vergi ödəyicilərinin vahid dövlət reyestrinə daxil edilən məlumatları (kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları) və onların nizamnamə kapitalındakı payları, habelə benefisiar mülkiyyətçi barədə məlumatlar istisna olmaqla);

4.2.4. hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslərin VÖEN-i;

4.2.5. sürücülük vəsiqəsi üzrə məlumatlar;

4.2.6. nəqliyyat vasitəsinin dövlət qeydiyyatına dair məlumatlar;

4.2.7. gömrük rəsmiləşdirilməsi üçün tələb olunan sənədlər, o cümlədən lisenziya və icazələr barədə məlumatlar;

4.2.8. xarici ölkələrin "İcazə" blankları və Beynəlxalq Nəqliyyat Forumunun çoxtərəfli qısamüddətli (aylıq) və çoxtərəfli illik "İcazə" blankları (jurnalları) barədə məlumatlar;

4.2.9. dövlət xidmətlərinin, eləcə də liman xidmətlərinin həyata keçirilməsi üzrə növbələr barədə məlumatlar;

4.2.10. hüquqi və fiziki şəxslərin notariuslar vasitəsilə verdikləri etibarnamələr üzrə məlumatlar;

4.2.11. hüquqi və fiziki şəxslərin riskli vergi ödəyicisi olması barədə məlumatlar;

4.2.12. fiziki və hüquqi şəxslərin "Elektron kənd təsərrüfatı" informasiya sistemində fermer, tədarükçü və ya təchizatçı kimi qeydiyyatının olub-olmaması, karantin nəzarətində olan materialların zərərsizləşdirilməsi (fumiqasiya) aktı və kökünün kəsilmə təhlükəsi olan balıq və digər su bioresurslarının beynəlxalq ticarəti (dənizdən introduksiya, ixrac, təkrar ixrac və idxal) üçün icazə barədə məlumatlar;

4.2.13. ödəniş xidməti təchizatçıları, sığortaçılar, gömrük təmsilçiləri və gömrük rəsmiləşdirilməsi üzrə ixtisas attestatı almış mütəxəssislər, daşıyıcılar, ekspeditorlar və səlahiyyətli iqtisadi operatorların siyahısı və əlaqə məlumatları;

4.2.14. gömrük bəyannamələri üzrə məlumatlar;

4.2.15. müvəqqəti saxlanc və gömrük anbarlarının tiplərinə, ünvan və əlaqə vasitələrinə dair məlumatlar;

4.2.16. qlobal mövqe təyinetmə cihazı tətbiq olunan və gömrük nəzarəti altında hərəkət edən nəqliyyat vasitələrinin yerləşdiyi coğrafi koordinatlar üzrə məlumatlar;

4.2.17. elektron sənəd formasında bağlanılmış əmək müqavilələri barədə məlumatlar;

4.2.18. "İcbari sığortalar haqqında" Azərbaycan Respublikası Qanununun 50-1.0.2-ci və 50-1.0.3-cü maddələrində nəzərdə tutulmuş icbari sığorta, həmçinin idxal-ixrac, tranzit, nəqliyyat və logistika üzrə fəaliyyətlərlə bağlı könüllü sığorta növlərinə dair sığorta şəhadətnaməsinin və (və ya) sığorta müqaviləsinin mövcudluğunun təsdiqi, onların nömrəsi, sığorta təminatının müddəti, sığorta müqaviləsinin tərəfi olan sığortaçının adı, soyadı;

4.2.19. elektron əmtəə-nəqliyyat qaiməsi və elektron yol vərəqi üzrə məlumatlar;

4.2.20. mülki hava gəmisinin eniş-uçuş məlumatları;

4.2.21. mülki gəmilərin mülki dəniz limanlarına giriş-çıxış məlumatları;

4.2.22. ümumistifadəli dəmir yolu nəqliyyatı vasitələrinin stansiyalara (dayanacaqlara) giriş-çıxış məlumatları;

4.2.23. dövlət xidmətlərinin dairəsi və həmin xidmətlər üzrə ödənişlər barədə məlumatlar;

4.2.24. dövlət xidmətlərinin göstərilməsini və həmin xidmətlərə dair ödənişləri tənzimləyən normativ hüquqi aktlar barədə məlumatlar;

4.2.25. idxalatçıların müəyyən risk qrupuna aid edilməsi və ya onların risk qrupunun dəyişdirilməsi barədə məlumatlar;

4.2.26. gömrük ödənişlərindən azadolmaya əsas verən sənədlər;

4.2.27. mülki hava və mülki dəniz limanlarının, habelə dəmir yolu stansiyalarının (dayanacaqlarının) ərazisinə mülki yük avtomobillərinin giriş-çıxış məlumatları;

4.2.28. təhlükəli yüklərin mülki dəniz və mülki hava limanlarının ərazisinə gətirilməsinə dair verilən icazələr barədə məlumatlar;

4.2.29. təhlükəli yük daşıyan nəqliyyat vasitəsi sürücüsünün ixtisaslaşdırılmış təlim kursunu bitirməsi barədə məlumatlar;

4.2.30. təhlükəli yük daşıyan vaqon və konteynerlərin texniki təhlükəsizlik vəziyyəti və təhlükəli yüklərin təsnifatı barədə məlumatlar;

4.2.31. gömrük borcuna təminat verən bankların və bank olmayan kredit təşkilatlarının siyahısı;

4.2.32. xarici ticarət fəaliyyətinin həyata keçirilməsini tənzimləyən normativ hüquqi aktlarda müəyyən edilmiş digər sənədlər və məlumatlar.

4.3. Xarici ticarət fəaliyyətinin həyata keçirilməsi ilə bağlı aşağıda göstərilən məlumatlar informasiya sisteminə iştirakçılar tərəfindən elektron kabinet vasitəsilə daxil edilir:

4.3.1. xarici iqtisadi fəaliyyətin mal nomenklaturu barədə məlumatlar;

4.3.2. gömrük ərazisinə gətirilməsi, bu ərazidən aparılması və tranzit keçirilməsi qadağan edilən, məhdudlaşdırılan, lisenziya və icazə tələb olunan mallar, o cümlədən mədəni sərvətlər və raritet (nadir) avtonəqliyyat vasitələri, kolleksiya əşyaları və əntiq əşyalar barədə məlumatlar;

4.3.3. hesab sahibinin özü tərəfindən daxil edilən xəzinə və bank hesabı məlumatları;

4.3.4. Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılış məntəqələrinin sayı və yerləşdiyi ərazilər barədə məlumatlar;

4.3.5. lisenziya və icazə tələb edilən sahibkarlıq fəaliyyəti növləri barədə məlumatlar;

4.3.6. gömrük işi sahəsində mövcud olan normativ hüquqi aktlar barədə məlumatlar.

4.4. İnformasiya sisteminin digər dövlət informasiya ehtiyatları və sistemləri ilə inteqrasiyası, habelə məlumat mübadiləsinin təşkili Qaydalara uyğun olaraq həyata keçirilir.

4.5. İnformasiya sistemi ilə digər dövlət informasiya ehtiyatları və sistemləri arasında məlumat mübadiləsini real vaxt rejimində həyata keçirmək mümkün olmadıqda, informasiya sistemi vasitəsilə təqdim edilməli olan sənədlər (məlumatlar) informasiya sisteminə aidiyyəti qurumlar tərəfindən təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təsdiq edilməklə onların elektron kabinetləri vasitəsilə daxil edilir.

4.6. İnformasiya sistemində formalaşdırılan sənədlər "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş tələblərə uyğun tərtib olunur, rəsmiləşdirilir və istifadəçilərə təqdim edilir.

4.7. İnformasiya sistemi üzərindən formalaşdırılan elektron sənədlər beynəlxalq müqavilələrə, xarici dövlətlərin normativ hüquqi aktlarına və ya beynəlxalq prosedurların tələblərinə əsasən kağız daşıyıcıda təqdim edilməli olduqda, həmin sənədlər çap edilərək Azərbaycan Respublikasının normativ hüquqi aktlarına uyğun qaydada rəsmiləşdirilir və aidiyyəti üzrə təqdim olunur. Belə sənədlərin elektron nüsxəsi informasiya sistemində saxlanılır və onların doğruluğunun yoxlanılması imkanı təmin edilir.

5. İnformasiya sistemindən istifadə qaydası

5.1. Dövlət informasiya ehtiyatlarına və sistemlərinə malik olan dövlət qurumlarının informasiya sistemindən istifadəsi onların informasiya ehtiyatları və sistemləri Qaydaların 4-cü hissəsinə və "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq EHİS-ə inteqrasiya edildikdən sonra məlumat mübadiləsinin həyata keçirilməsi yolu ilə təmin edilir.

5.2. Dövlət informasiya ehtiyatlarına və sistemlərinə malik olmayan qurumların və digər hüquqi şəxslərin (Azərbaycan Respublikasına mənsub olan) informasiya sistemindən istifadəsi onların elektron kabinetləri vasitəsilə təmin edilir. Bu halda, qurumların və digər hüquqi şəxslərin rəhbər şəxsi tərəfindən informasiya sistemində qeydiyyatdan keçirilən və müvafiq hüquqlar verilən məsul şəxslər EHİS-in "Vahid Giriş" altsistemi vasitəsilə identikləşdirildikdən sonra avtomatik qaydada yaradılan elektron kabinetlərə daxil olaraq informasiya sistemindən istifadə edirlər.

5.3. Fiziki şəxslər (Azərbaycan Respublikasının vətəndaşları) EHİS-in "Vahid Giriş" altsistemi vasitəsilə informasiya sistemində identikləşdirildikdən sonra avtomatik qaydada yaradılan elektron kabinetlərinə daxil olaraq informasiya sistemindən istifadə edirlər.

5.4. İnformasiya sistemi vasitəsilə göstərilən elektron xidmətlərdən istifadə informasiya sisteminin rəsmi internet informasiya ehtiyatı (EHİS-ə keçid verilməklə) və EHİS vasitəsilə, ödəniş edilməsi isə elektron kabinetdə ödəniş xidməti təchizatçıları vasitəsilə həyata keçirilir.

5.5. Qeyri-rezident istifadəçilər informasiya sistemində identikləşdirildikdən (qeydiyyata alınmaqla) sonra avtomatik qaydada yaradılan elektron kabinetlərinə daxil olaraq informasiya sistemindən istifadə edirlər.

5.6. İnformasiya sistemi vasitəsilə edilən hər bir müraciət üzrə avtomatik qaydada təkrarlanmayan vahid əməliyyat kodu verilir.

5.7. İnformasiya sistemi vasitəsilə təqdim edilən xidmət kanalları (portal, mobil tətbiq, virtual köməkçi və digər) istifadəçilərin informasiya sisteminin fəaliyyətində iştirakını və onlardan istifadəsini, habelə elektron xidmətlərdən yararlanmasını təmin edir. Elektron xidmətlər istifadəçi təcrübəsi və istifadəçiyönümlülüyü nəzərə alınmaqla, xidmət kanalları vasitəsilə təqdim edilir.

6. Sahibin vəzifələri və hüquqları

6.1. İnformasiya sisteminin fəaliyyətini təmin etmək üçün sahibin vəzifələri aşağıdakılardır:

6.1.1. informasiya sisteminin idarə olunmasını təşkil etmək, təkmilləşdirilməsi və funksional imkanlarının artırılması istiqamətində tədbirlər görmək;

6.1.2. informasiya sisteminin dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestrinə, o cümlədən fərdi məlumatların toplanıldığı, işlənildiyi və mühafizə edildiyi hallarda fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrinə daxil edilməsi və dövlət qeydiyyatından keçirilməsi üçün tədbirlər görmək;

6.1.3. fərdi məlumatların informasiya sistemində toplanılmasının, işlənilməsinin və mühafizəsinin bu sahədə Azərbaycan Respublikasının normativ hüquqi aktlarının tələblərinə uyğunluğunun təmin edilməsi ilə bağlı tədbirlər görmək;

6.1.4. informasiya sisteminin informasiya təhlükəsizliyini XRİTDX və operator ilə kritik informasiya infrastrukturunun obyekti hesab edilən dövlət informasiya ehtiyatlarına və sistemlərinə münasibətdə həmçinin Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti (bundan sonra - DTX) ilə birlikdə təmin etmək;

6.1.5. informasiya sisteminin informasiya təhlükəsizliyi məqsədilə mövcud və yarana biləcək təhlükələr və ya baş vermiş təhlükəsizlik insidentləri aşkar edildikdə, bu barədə məlumatların dərhal DTX-yə (kritik informasiya infrastrukturu obyektlərinə münasibətdə), XRİTDX-yə, EHİS-in və "Hökumət buludu"nun informasiya təhlükəsizliyinə münasibətdə isə həmçinin operatora ötürülməsi, habelə DTX, XRİTDX və operator tərəfindən bu barədə sorğular verildikdə həmin sorğuların dərhal, bu mümkün olmadıqda isə 24 saatdan gec olmayaraq cavablandırılması ilə bağlı tədbirlər görmək;

6.1.6. informasiya sisteminə daxil edilmiş və (və ya) ötürülmüş məlumatların mühafizəsinin, habelə daxil edilmiş məlumatların aktuallığının, etibarlılığının, təhrifolunmazlığının, əlçatanlığının, tamlığının və konfidensiallığının təmin olunması ilə bağlı tədbirlər görmək;

6.1.7. informasiya sisteminə qarşı müdaxilə cəhdləri aşkar etdikdə, aidiyyəti hüquq mühafizə orqanının bu barədə dərhal məlumatlandırılması ilə bağlı tədbirlər görmək;

6.1.8. informasiya sisteminin, o cümlədən onun ehtiyat nüsxələrinin "Hökumət buludu"nda saxlanılmasının və aparılmasının təmin olunması ilə bağlı tədbirlər görmək;

6.1.9. elektron xidmətlərin "bir pəncərə" prinsipi əsasında EHİS vasitəsilə göstərilməsi ilə bağlı tədbirlər görmək;

6.1.10. EHİS-də yaradılan elektron imkanlar vasitəsilə istifadəçilərin tələbi əsasında onlar barəsində məlumatlarda aparılan düzəlişlərin təsdiq və ya rədd edilməsi ilə bağlı tədbirlər görmək;

6.1.11. informasiya sisteminə çıxışı olan, habelə onların aparılmasında iştirak edən əməkdaşlarının təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təmin olunması üçün tədbirlər görmək;

6.1.12. aidiyyəti qurumların informasiya sisteminin fəaliyyəti ilə bağlı sorğularının vaxtında və dolğun cavablandırılması, habelə həmin sorğular əsasında zəruri məlumatların (sənədlərin) onlara təqdim olunması üçün tədbirlər görmək;

Ardı 4-cü səh.

Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 16 noyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir

"Bir pəncərə" informasiya sistemi haqqında

ƏSASNAMƏ

Əvvəli 3-cü səh.

6.1.13. dövlət xidmətlərinin göstərilməsi üçün tələb edilən sənədlər barədə informasiya digər dövlət informasiya ehtiyatlarında və sistemlərində olduqda, həmin informasiyanın ilkin mənbədən əldə edilməsi üçün operatorla birlikdə tədbirlər görmək;

6.1.14. normativ hüquqi aktlarla müəyyən edilmiş hüquqlarının həyata keçirilməsi və vəzifələrinin icrası zamanı əldə etdiyi zəruri məlumatların (sənədlərin) informasiya sisteminə daxil edilməsi üçün tədbirlər görmək;

6.1.15. informasiya sistemindən sərbəst və maneəsiz istifadənin, habelə onların dayanıqlı və fasiləsiz fəaliyyətinin təmin olunmasına nəzarətin həyata keçirilməsi istiqamətində tədbirlər görmək;

6.1.16. informasiya sistemində dəyişikliklər edilməsi üçün operatora göstərişlər vermək və onların həyata keçirilməsinə nəzarət etmək;

6.1.17. informasiya sisteminin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi üzrə işlərin layihələrə, texniki reqlamentlərə, beynəlxalq standartlara və normativ hüquqi aktlarla müəyyən edilmiş tələblərə uyğun formada aparılmasına nəzarət etmək;

6.1.18. normativ hüquqi aktlarla müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

6.2. İnformasiya sisteminin fəaliyyətini təmin etmək üçün sahibin aşağıdakı hüquqları vardır:

6.2.1. informasiya sisteminin fəaliyyətinin təmin olunması ilə bağlı zəruri məlumatları (sənədləri) əldə etmək üçün aidiyyəti qurumlara sorğu vermək və həmin qurumlardan belə məlumatları (sənədləri) almaq;

6.2.2. normativ hüquqi aktlarla müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

7. Operatorun vəzifələri və hüquqları

7.1. Operatorun vəzifələri aşağıdakılardır:

7.1.1. informasiya sisteminin informasiya təhlükəsizliyini XRİTDX və sahib ilə kritik informasiya infrastrukturunun obyekti hesab edilən dövlət informasiya ehtiyatlarına və sistemlərinə münasibətdə həmçinin DTX ilə birlikdə təmin etmək;

7.1.2. informasiya sisteminin informasiya təhlükəsizliyi məqsədilə mövcud və yarana biləcək təhlükələr və ya baş vermiş təhlükəsizlik insidentləri aşkar edildikdə, bu barədə məlumatları dərhal DTX-yə (kritik informasiya infrastrukturu obyektlərinə münasibətdə) və XRİTDX-yə təqdim etmək, habelə DTX və XRİTDX tərəfindən bu barədə sorğular verildikdə həmin sorğuları dərhal, bu mümkün olmadıqda isə 24 saatdan gec olmayaraq cavablandırmaq;

7.1.3. informasiya sisteminin monitorinqi və auditi üçün XRİTDX-nin yerində baxış keçirməsinə şərait yaratmaq, bu məqsədlə Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş məlumatları (sənədləri) XRİTDX-yə təqdim etmək, habelə XRİTDX tərəfindən aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması ilə bağlı tədbirlər görmək;

7.1.4. informasiya sistemi vasitəsilə aparılan əməliyyatlara dair aylıq hesabatı onunla inteqrasiya olunan informasiya sistemlərinin və ehtiyatlarının sahiblərinə və ya operatorlarına təqdim etmək;

7.1.5. informasiya sisteminə qarşı müdaxilə cəhdləri aşkar edikdə, bu barədə məlumatları dərhal aidiyyəti hüquq mühafizə orqanına təqdim etmək;

7.1.6. informasiya sisteminin, o cümlədən onun ehtiyat nüsxələrinin "Hökumət buludu"nda saxlanılmasının və aparılmasının təmin edilməsi üçün sahiblə birlikdə tədbirlər görmək;

7.1.7. informasiya sisteminin təhlükəsizliyi pozulduqda, fəaliyyətində nasazlıq yarandıqda, əsas avadanlıqlarında hər hansı qəza (xəta) baş verdiyi halda dərhal aidiyyəti dövlət orqanlarını və sahibi məlumatlandırmaq, nasazlığın və qəzanın (xətanın) qeydiyyatını aparmaq, dərhal aradan qaldırılması üçün sahibin verdiyi göstərişlərə uyğun təcili tədbirlər görmək, bu mümkün olmadıqda isə informasiya sisteminin "Hökumət buludu"nun ehtiyat Data Mərkəzində fəaliyyətini davam etdirməsi üçün zəruri tədbirlər görmək;

7.1.8. informasiya sisteminin fəaliyyətinin idarə olunması, təkmilləşdirilməsi və onun funksional imkanlarının artırılması istiqamətində sahiblə razılaşdırmaqla texniki tədbirlər görmək və bu barədə informasiya sisteminin fəaliyyətində iştirak edən aidiyyəti dövlət qurumlarını məlumatlandırmaq;

7.1.9. informasiya sistemindən sərbəst və maneəsiz istifadəni, onun dayanıqlı və fasiləsiz fəaliyyətini təmin etmək məqsədilə informasiya sisteminin proqram kompleksinə nəzarəti həyata keçirmək və mütəmadi texniki baxış təşkil etmək;

7.1.10. normativ hüquqi aktlarla müəyyən edilmiş hüquqlarının həyata keçirilməsi və vəzifələrinin icrası zamanı əldə etdiyi zəruri məlumatları (sənədləri) informasiya sisteminə daxil etmək;

7.1.11. informasiya sistemini EHİS-ə inteqrasiya etmək, digər dövlət informasiya ehtiyatları və sistemləri ilə məlumat mübadiləsini EHİS vasitəsilə həyata keçirmək;

7.1.12. informasiya sisteminə çıxışı olan, habelə onun aparılmasında iştirak edən əməkdaşlarını təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təmin etmək;

7.1.13. informasiya sisteminin komponentlərinin və proqram təminatının təyinatı üzrə istismarını, texniki xidmətini, təmirini və yenilənməsini təmin etmək, təkmilləşdirilməsi üzrə profilaktik iş aparmaq;

7.1.14. sahibin bu Əsasnamə ilə və digər normativ hüquqi aktlarla müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq verdiyi təkliflər əsasında informasiya sistemində dəyişikliklər edilməsi üçün tədbirlər görmək;

7.1.15. sahibin göstərişi ilə normativ hüquqi aktlarda edilən dəyişikliklərə əsasən proqram təminatında uyğunlaşdırmaların aparılmasını, eləcə də yeni proqram modullarının yazılmasını və sınaqların keçirilməsini təmin etmək;

7.1.16. informasiya sisteminin formalaşdırılması, aparılması, inteqrasiyası və ya arxivləşdirilməsi ilə bağlı sənədləri və texniki məlumatları sahibə təqdim etmək;

7.1.17. informasiya sisteminin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi işlərini layihələrə, texniki reqlamentlərə, beynəlxalq standartlara və normativ hüquqi aktlarla müəyyən edilmiş tələblərə uyğun formada aparmaq;

7.1.18. informasiya sistemindən istifadəni, habelə onun üzərindən göstərilən elektron xidmətlərin əlçatanlığını təmin etmək üçün formalaşdırılan mobil tətbiqi "elektron marketlərdə" yerləşdirmək (mobil tətbiq olduğu halda);

7.1.19. aidiyyəti qurumların informasiya sisteminin fəaliyyəti ilə bağlı sorğularını vaxtında və hərtərəfli cavablandırmaq, habelə qeyd edilən sorğular əsasında zəruri məlumatları (sənədləri) onlara təqdim etmək;

7.1.20. informasiya sistemi vasitəsilə aparılan əməliyyatların (göstərilən xidmətlərin) təhlilini aparmaq və nəticəsi barədə sahibə hesabat təqdim etmək;

7.1.21. informasiya sisteminin təşkili və fəaliyyəti üzrə qiymətləndirmə aparmaq;

7.1.22. normativ hüquqi aktlarla müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

7.2. Operatorun aşağıdakı hüquqları vardır:

7.2.1. informasiya sisteminin fəaliyyətinin təmin olunması ilə bağlı zəruri məlumatları (sənədləri) əldə etmək üçün aidiyyəti qurumlara sorğu vermək və həmin qurumlardan belə məlumatları (sənədləri) almaq;

7.2.2. informasiya sisteminin təkmilləşdirilməsi istiqamətində rəy və təkliflər vermək;

7.2.3. informasiya sistemi ilə məlumat mübadiləsində iştirak edəcək digər informasiya ehtiyatları və sistemləri müəyyən edilmiş texniki və funksional tələblərə cavab vermədiyi hallarda onlarda zəruri dəyişikliklər edilməsi məqsədilə məsələ qaldırmaq;

7.2.4. informasiya sisteminin parametrlərində sahiblə razılaşdırmaqla dəyişiklik etmək və bütün mümkün parametrlər üzrə hesabatlar əldə etmək;

7.2.5. iştirakçılar və istifadəçilər informasiya sisteminin təhlükəsiz və effektiv fəaliyyətinin pozulmasına səbəb olan əməllərə yol verdikdə, informasiya sisteminə giriş imkanını sahiblə razılaşdırmaqla ləğv etmək və ya məhdudlaşdırmaq;

7.2.6. informasiya sisteminin formalaşdırılması, istifadəsi və inkişaf etdirilməsi ilə bağlı beynəlxalq təcrübəni və standartları öyrənmək, bu sahədə beynəlxalq təşkilatlarla, habelə Azərbaycan Respublikasının və xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək;

7.2.7. informasiya sistemindən istifadə və onun funksiyaları ilə bağlı maarifləndirmə və məlumatlandırma işləri aparmaq;

7.2.8. normativ hüquqi aktlarla müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

8. İştirakçıların vəzifələri və hüquqları

8.1. İştirakçıların vəzifələri aşağıdakılardır:

8.1.1. informasiya sisteminə çıxışı olan, habelə onun aparılmasında iştirak edən əməkdaşlarını təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təmin etmək;

8.1.2. informasiya sisteminə daxil olmağa imkan verən elektron imza vasitələrinin konfidensiallığını (məxfiliyini) təmin etmək;

8.1.3. aktual, tam və etibarlı məlumatları (sənədləri) vaxtında və dolğun şəkildə, eləcə də müraciətlərin gedişatının izlənilməsi üçün icra statusu barədə məlumatları real vaxt rejimində informasiya sisteminə daxil etmək (ötürmək);

8.1.4. məlumatların mühafizəsini təmin edən avadanlıq və proqram vasitələrinə müdaxilə etməmək;

8.1.5. informasiya sistemindən, habelə həmin informasiya sistemində olan məlumatlardan (sənədlərdən) yalnız xidməti məqsədlər üçün istifadə etmək;

8.1.6. informasiya sistemində saxlanılan məlumatlarda (sənədlərdə) aşkar edilmiş səhvlərin aradan qaldırılması məqsədilə dərhal sahibə və ya operatora məlumat vermək;

8.1.7. sahibin və operatorun informasiya sisteminə daxil etdiyi və iştirakçının bilavasitə fəaliyyəti ilə bağlı olan yeni məlumatları izləmək;

8.1.8. informasiya sisteminin fəaliyyətinə zərər gətirəcək, habelə onun fəaliyyətinin ləngiməsinə və ya dayanmasına səbəb ola biləcək hərəkətlərə yol verməmək;

8.1.9. məlumat mübadiləsi zamanı aşkar olunmuş çatışmazlıqların və yaranan nasazlıqların aradan qaldırılması ilə bağlı tədbirlər görmək, bu barədə sahibə və operatora məlumat vermək;

8.1.10. öz təşəbbüsləri, habelə sahibin və operatorun bu Əsasnamə ilə və digər normativ hüquqi aktlarla müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq verdikləri təkliflər əsasında sahibi və ya operatoru olduğu dövlət informasiya ehtiyatlarında və sistemlərində zəruri dəyişikliklər etmək;

8.1.11. hər bir müraciət üzrə təkrarlanmayan vahid əməliyyat kodunu xarici ticarət fəaliyyətinin həyata keçirilməsi zamanı daşınan yüklərin bütün hərəkət marşrutu boyunca hərəkətinin və statusunun izlənilməsində, habelə şəxsin idxal-ixrac, tranzit, nəqliyyat, sığorta, vergi, gömrük və logistika əməliyyatlarının əlaqələndirilməsində tətbiq etmək.

8.2. İştirakçıların aşağıdakı hüquqları vardır:

8.2.1. informasiya sisteminin fəaliyyəti ilə bağlı zəruri məlumatları (sənədləri) əldə etmək üçün sahibə və ya operatora sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

8.2.2. informasiya sisteminin təkmilləşdirilməsi istiqamətində sahibə və ya operatora təkliflər vermək.

9. İstifadəçilərin hüquqları

9.1. İstifadəçilərin informasiya sistemindən istifadə ilə bağlı aşağıdakı hüquqları vardır:

9.1.1. informasiya sistemindəki açıq məlumatlarla tanış olmaq və onları əldə etmək;

9.1.2. qanunla müəyyən edilmiş hallar istisna olmaqla, özləri barəsində məlumatlarla tanış olmaq, onları əldə etmək və ya dəqiqləşdirilməsi üçün sahib və ya operatora müraciət etmək;

9.1.3. elektron kabinetləri üzərindən müraciətlərini göndərmək, elektron xidmətlərdən istifadə etmək və ödənişləri həyata keçirmək;

9.1.4. sahiblə, operatorla, iştirakçılarla və digər istifadəçilərlə qarşılıqlı əlaqəni və sənəd (məlumat) mübadiləsini elektron qaydada həyata keçirmək;

9.1.5. informasiya sisteminin fəaliyyətinin təkmilləşdirilməsinə dair təkliflər vermək;

9.1.6. informasiya sistemindən istifadə ilə bağlı hüquqlarının pozulmasından inzibati qaydada və (və ya) məhkəməyə şikayət etmək;

9.1.7. normativ hüquqi aktlarla müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 12 oktyabr tarixli 427 nömrəli Qərarı ilə təsdiq edilmiş "İnternet telekommunikasiya xidməti göstərən operatorların və provayderlərin uçotunun aparılması Qaydası"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

№ 382 **Bakı şəhəri, 13 noyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 12 oktyabr tarixli 427 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, №10, maddə 1891 (Cild I); 2024, № 5 (II kitab), maddə 611) ilə təsdiq edilmiş "İnternet telekommunikasiya xidməti göstərən operatorların və provayderlərin uçotunun aparılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3.3-cü bənd üzrə:

1.1.1. 3.3.3-cü yarımbəndə "bağlanılmış" sözündən sonra "abunə müqaviləsinə dair zəruri tələbləri əks etdirən" sözləri, birinci halda "surəti (surətləri)" sözlərindən sonra "və tətbiq edilən müqavilə nümunəsi" sözləri əlavə edilsin;

1.1.2. 3.3.4-cü yarımbənd müvafiq olaraq 3.3.9-cu yarımbənd hesab edilsin və aşağıdakı məzmunda 3.3.4 – 3.3.8-ci yarımbəndlər əlavə edilsin:

"3.3.4. xidmətin təşkili üçün qurulmuş telekommunikasiya şəbəkəsində istismar olunan telekommunikasiya vasitələrinin adı, markası, modeli, seriya nömrəsi, istehsal tarixi və quraşdırıldığı ünvana dair məlumatları əks etdirən sənədlərin surəti;

3.3.5. xidmətin təşkili üçün qurulmuş telekommunikasiya şəbəkəsinin strukturu, abunəçi tutumu həddi və istismara verilməsi mərhələləri barədə məlumat, telekommunikasiya şəbəkəsinin vektor xəritəsi;

3.3.6. internet telekommunikasiya xidmətinin keyfiyyətinə və dayanıqlılığına nəzarət sisteminə malik olması barədə sənədlərin surəti;

3.3.7. internet telekommunikasiya xidməti göstərdiyi abunəçilərə dair mülkiyyətçisi olduğu fərdi məlumatların informasiya sistemlərinin dövlət qeydiyyatına alınması barədə dövlət reyestrindən çıxarış;

3.3.8. ümumistifadəli telekommunikasiya şəbəkəsinə qoşulma haqqında məlumat və qoşulmanı təmin edən müqavilənin surəti;";

1.2. 3.13-cü bənd üzrə:

1.2.1. 3.13.2-ci yarımbəndə "növü" sözündən sonra "və fəaliyyətinin əhatə dairəsi" sözləri əlavə edilsin;

1.2.2. 3.13.4-cü yarımbənd müvafiq olaraq 3.13.11-ci yarımbənd hesab edilsin və aşağıdakı məzmunda 3.13.4–3.13.10-cu yarımbəndlər əlavə edilsin:

"3.13.4. hüquqi ünvanı;

3.13.5. fəaliyyət ünvanı;

3.13.6. internet informasiya ehtiyatı;

3.13.7. fəaliyyət növü;

3.13.8. telefon nömrəsi;

3.13.9. elektron poçt ünvanı;

3.13.10. tətbiq edilən müqavilə nümunəsi;";

1.3. 4.1-ci bəndə "hal" sözündən sonra ", həmçinin sənədləri təqdim edən şəxsə dair məlumatlar" sözləri əlavə edilsin;

1.4. həmin Qaydaya 1 nömrəli əlavə - "Uçota alınma üçün Ərizə" üzrə:

1.4.1. "İnternet informasiya ehtiyatının ünvanı: _____" sətrində "ehtiyatının ünvanı" sözləri "ehtiyatı" sözü ilə əvəz edilsin;

1.4.2. "Fəaliyyətinin əhatə dairəsi: _____" sətrindən sonra aşağıdakı məzmunda sətirlər əlavə edilsin:

"Xidmət göstərdiyi istifadəçi növü (biri və ya hər ikisi seçilməlidir):

Fərdi □

Korporativ □";

"Xidmətin satış növü (biri və ya bir neçəsi seçilməlidir):

Topdan □

Pərakəndə □

Yenidən satış □";

1.4.3. birinci halda "Elektron poçt ünvanı: _____" sətrindən sonra aşağıdakı məzmunda sətirlər əlavə edilsin:

"Əlaqələndirici şəxsin soyadı, adı və atasının adı: _____

Əlaqələndirici şəxsin telefon nömrəsi: _____

Əlaqələndirici şəxsin elektron poçt ünvanı: _____";

1.4.4. "Şəxsiyyət vəsiqəsinin seriya və nömrəsi: _____" sətrindən sonra aşağıdakı məzmunda sətir əlavə edilsin:

"FİN: _____";

1.4.5. "Təqdim olunan məlumatların həqiqiliyini" sözlərindən sonra ", habelə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən və ya Nazirliyin tabeliyində İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyindən uçota alınmaq üçün ərizə vermiş hüquqi şəxsin bu ərizədə qeyd edilmiş elektron poçt ünvanına daxil olan məktubların daxil olduğu gündən 3 (üç) iş günü keçdikdən sonra rəsmi qaydada verilmiş hesab olunacağını" sözləri əlavə edilsin;

1.5. həmin Qaydaya 2 nömrəli əlavə - "Uçota alınma üçün Ərizə" üzrə:

1.5.1. "Seriya və nömrə: _____" sətrindən sonra aşağıdakı məzmunda sətir əlavə edilsin:

"FİN: _____";

1.5.2. "İnternet informasiya ehtiyatının ünvanı: _____" sətrində "ehtiyatının ünvanı" sözləri "ehtiyatı" sözü ilə əvəz edilsin;

1.5.3. "Fəaliyyətin əhatə dairəsi: _____" sətrindən sonra aşağıdakı məzmunda sətirlər əlavə edilsin:

"Xidmət göstərdiyi istifadəçi növü (biri və ya hər ikisi seçilməlidir):

Fərdi □

Korporativ □";

"Xidmətin satış növü (biri və ya bir neçəsi seçilməlidir):

Topdan □

Pərakəndə □

Yenidən satış □";

1.5.4. birinci halda "Elektron poçt ünvanı: _____" sətrindən sonra aşağıdakı məzmunda sətirlər əlavə edilsin:

"Əlaqələndirici şəxsin soyadı, adı və atasının adı: _____

Əlaqələndirici şəxsin telefon nömrəsi: _____

Əlaqələndirici şəxsin elektron poçt ünvanı: _____";

1.5.5. "Şəxsiyyət vəsiqəsinin seriya və nömrəsi: _____" sətrindən sonra aşağıdakı məzmunda sətir əlavə edilsin:

"FİN: _____";

1.5.6. "Təqdim olunan məlumatların həqiqiliyini" sözlərindən sonra ", habelə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən və ya Nazirliyin tabeliyində İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyindən uçota alınmaq üçün ərizə vermiş fiziki şəxsin bu ərizədə qeyd edilmiş elektron poçt ünvanına daxil olan məktubların daxil olduğu gündən 3 (üç) iş günü keçdikdən sonra rəsmi qaydada verilmiş hesab olunacağını" sözləri əlavə edilsin.

2. Bu Qərarın 1.1-ci bəndi bu Qərar qüvvəyə mindikdən sonra uçota alınma üçün ərizə ilə müraciət edən internet telekommunikasiya xidməti göstərən operatorlara və provayderlərə şamil edilir.

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının Baş naziri

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 8 fevral tarixli 18 nömrəli Qərarı ilə təsdiq edilmiş "Peşə fəaliyyətinin ayrı-ayrı növləri və yüksək təhlükə mənbəyi ilə bağlı olan fəaliyyətlə məşğul olan şəxslərin dövlət narkoloji tibb müəssisəsində tibbi müayinədən (tibbi yoxlamadan) keçməsi Qaydası"nda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

№ 384 **Bakı şəhəri, 16 noyabr 2026-cı il**

"Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Narkoloji xidmət və nəzarət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 27 aprel tarixli 394-VIIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 122 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 may tarixli 666 nömrəli Fərmanının 2.2-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 8 fevral tarixli 18 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 2, maddə 133 (Cild I) ilə təsdiq edilmiş "Peşə fəaliyyətinin ayrı-ayrı növləri və yüksək təhlükə mənbəyi ilə bağlı olan fəaliyyətlə məşğul olan şəxslərin dövlət narkoloji tibb müəssisəsində tibbi müayinədən (tibbi yoxlamadan) keçməsi Qaydası"nın 1-ci hissəsinə "olmayaraq" sözündən sonra ", habelə əmək funksiyasını yerinə yetirməsi zamanı davranışında insan psixikasına təsir göstərən maddənin təsiri altında olmasına əsaslı şübhələr yarandığı halda əsaslandırılmaqla dərhal" sözləri əlavə edilsin.

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının Baş naziri

Milli Məclisin iclasında

2027-ci ilin dövlət büdcəsi layihəsi birinci oxunuşda qəbul edildi

Noyabrın 17-də Milli Məclisin növbəti plenar iclası keçirilib. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Sədri Sahibə Qafarova iclasda iştirak edən hökumət üzvlərini, deputatları və media nümayəndələrini salamlayaraq, 17 Noyabr - Milli Dirçəliş Günü münasibətilə təbriklərini çatdırıb, onlara cansağlığı, firavanlıq və fəaliyyətlərində uğurlar arzulayıb.

İclasda 2027-ci ilin dövlət büdcəsi layihəsinin müzakirələri davam etdirilib. Müzakirələrdə parlamentin komitə sədrləri Tahir Rzayev, Anar İsgəndərov, komissiya sədri Eldar Quliyev, deputatlar Bəhruz Məhərrəmov, Razi Nurullayev, Elnarə Akimova, Rizvan Nəbiyev, Tural Gəncəliyev, Göydəniz Qəhrəmanov, Tənzilə Rüstəmxanlı, Samir Vəliyev, Sevinc Fətəliyeva, Asif Əsgərov, İlham Məmmədov, Fatma Yıldırım, Azər Allahverənov, Tahir Mirkişili, Əli Məsimli, Bəxtiyar Əliyev, Günay Ağamalı və Səyyad Aran çıxış ediblər.



Çıxışlarda vurğulanıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində Azərbaycan mürəkkəb qlobal geosiyasi gərginliklərə və təchizat zəncirlərindəki qeyri-müəyyənliklərə baxmayaraq, makroiqtisadi sabitliyini qoruyur, iqtisadi inkişafını davam etdirir və beynəlxalq mövqelərini daha da möhkəmləndirir.

2027-ci ilin dövlət büdcəsi layihəsi ölkədə makroiqtisadi sabitliyin qorunması, iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı, milli təhlükəsizliyin təmin edilməsi və əhalinin sosial rifahının yüksəldilməsi baxımından mühüm maliyyə sənədidir. Dövlət büdcəsi eyni zamanda Azərbaycanın müstəqil və suveren siyasət yürütmək imkanlarını əks etdirən mühüm indikator kimi dəyərləndirilib.

Bildirilib ki, 2027-ci ilin dövlət büdcəsi ölkənin strateji inkişaf hədəflərinin reallaşdırılmasına, müdafiə və təhlükəsizlik imkanlarının artırılmasına, işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa və quruculuq işlərinin davam etdirilməsinə, sosial müdafiə tədbirlərinin gücləndirilməsinə xidmət edir. Eyni zamanda təhsil, səhiyyə, elm, kənd təsərrüfatı, infrastruktur və digər sahələrə ayrılan vəsaitlərin ölkənin uzunmüddətli inkişafına, əhalinin rifahının yüksəldilməsinə və regionların iqtisadi fəallığının artırılmasına töhfə verəcəyi diqqətə çatdırılıb. Növbəti ilin dövlət büdcəsində neft amilindən asılılığın azaldılması, qeyri-neft-qaz sektorunun dayanıqlı inkişafının maliyyə əsaslarının formalaşdırılması təqdirəlayiq hesab edilib.

Müzakirələrin yekununda "Azərbaycan Respublikasının 2027-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Parlamentin sədri Sahibə Qafarova gündəliyin növbəti məsələlərinin "Dövlət Sosial Müdafiə Fondunun 2027-ci il büdcəsi haqqında" (birinci oxunuş) və "İşsizlikdən Sığorta Fondunun 2027-ci il büdcəsi haqqında" (birinci oxunuş) qanun layihələri olduğunu bildirib.

Hər iki qanun layihəsi barədə məlumat verən Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev qeyd edib ki, Prezident İlham Əliyevin Yeni Azərbaycan Partiyasının VIII Qurultayında əhalinin rifahının yüksəldilməsi istiqamətində tədbirlərin genişləndirilməsi ilə bağlı müəyyən etdiyi prioritetlər 2027-ci ilin dövlət büdcəsində öz əksini tapıb. Gələn ilin büdcə zərfi dövlətin sosial siyasətinin növbəti ildə daha da gücləndiriləcəyindən xəbər verir. Büdcə xərclərinin 18,7 milyard manatının və ya 44,2 faizinin sosialyönümlü olması bunu bir daha təsdiq edir. Bu məbləğ 2026-cı illə müqayisədə 1,6 milyard manat və ya 9,2 faiz çoxdur.

Diqqətə çatdırılıb ki, müzakirəyə təqdim olunan 2027-ci il üzrə Dövlət Sosial Müdafiə Fondunun büdcəsi də sosial ədalət və sosial rifah prinsipləri rəhbər tutularaq tərtib edilib. Dövlət Sosial Müdafiə Fondunun (DSMF) 2027-ci il üçün gəlirləri 9 milyard 221 milyon manat təşkil edəcək ki, bu da cari ilin proqnoz göstəricisi ilə müqayisədə 897 milyon 400 min manat və ya 10,8 faiz çoxdur. DSMF-nin gələn il üçün nəzərdə tutulan xərcləri isə 9 milyard 273 milyon manat proqnozlaşdırılır ki, bu da cari ilin göstəricisindən 790 milyon manat və ya 9,3 faiz çoxdur. Onların da 96,5 faizini əhaliyə ödənişlər təşkil edəcək.

Qeyd olunub ki, əmək pensiyalarının orta aylıq məbləğinin 2027-ci ildə 640 manat olacağı proqnozlaşdırılır. Bundan başqa, növbəti ildə məcburi dövlət sosial sığorta haqları hesabına ödənilən əmək qabiliyyətinin müvəqqəti itirilməsinə, hamiləliyə və doğuma, uşağın anadan olmasına, 3 yaşına çatanadək uşaqlara qulluğa görə və dəfn üçün müavinətlərin maliyyələşdirilməsi üçün 281 milyon manat vəsait nəzərdə tutulub. Vurğulanıb ki, layihə gələn il şəhid ailələrinin, qazilərin, pensiya və müavinət alan bütün vətəndaşlarımızın sosial rifahının yaxşılaşması üçün etibarlı maliyyə təminatı yaradacaq.

Sonra komitə sədri bildirib ki, 2027-ci ildə İşsizlikdən Sığorta Fondunun (İSF) gəlirləri 269 milyon manat, fondun əvvəlki illərdə istifadə olunmamış vəsaitindən 2027-ci ilin xərclərinin maliyyələşdirilməsinə yönəldilən vəsaitin həcmi isə 50 milyon manat nəzərdə tutulub. Gələn ildə işsizlikdən sığorta haqları üzrə yığımların 267 milyon manat təşkil edəcəyi proqnozlaşdırılır ki, bu da 2026-cı ilin təsdiq edilmiş müvafiq göstəricisindən 31 milyon manat və ya 13 faiz çoxdur. Sığorta haqları üzrə yığımın 78 faizi qeyri-büdcə sektorunun payına düşəcək.

2027-ci ildə İSF-nin xərcləri 319 milyon manat həcmində proqnozlaşdırılır ki, bu da keçən illə müqayisədə 53 milyon manat çoxdur. Gələn il fondun xərclərinin 36 milyon manatı (cari ildən 28,6 faiz çox) işsizliyə görə sığorta ödənişləri üçün nəzərdə tutulub. Xərclərin 113 milyon manatı, yaxud 35 faizi özünüməşğulluq tədbirlərinin maliyyələşməsinə yönəldiləcək. Gələn il 14500 nəfərin özünüməşğulluq proqramına cəlb olunacağı nəzərdə tutulur. Komitə sədri İSF-nin 2027-ci il büdcəsində peşə hazırlığı, haqqı ödənilən ictimai işlərin və digər aktiv məşğulluq tədbirlərinin maliyyələşdirilməsi üçün nəzərdə tutulan xərc istiqamətləri və ayrılacaq vəsaitlər barədə də məlumat verib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov təqdim edilən hər iki qanun layihəsi barədə komitənin rəylərini diqqətə çatdırıb. O, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin hər iki qanun layihəsini dəstəklədiyini deyib.

İclasda çıxış edən əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev cari ildə əhalinin sosial müdafiəsi sahəsində görülmüş işlərdən danışıb və Dövlət Sosial Müdafiə Fondunun 2027-ci il büdcəsi barədə məlumat verib. Vurğulanıb ki, əhalinin sosial müdafiəsi və məşğulluğunun təmin edilməsi ilə bağlı ardıcıl və məqsədyönlü tədbirlər növbəti ildə də davam etdiriləcək. Belə ki, dövlət başçısının tapşırığına uyğun olaraq, əməkhaqqı və sosial ödənişlərin artırılması məqsədilə növbəti - 6-cı sosial islahat paketi ilə bağlı 2027-ci ilin dövlət və icmal büdcəsində müvafiq maliyyə təminatı yaradılıb.

Anar Əliyev dövlət büdcəsindən növbəti il üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyət istiqamətləri üzrə ayrılan vəsaitlərin həcmi və strukturu barədə də məlumat verib. DSMF-nin gələn il üçün büdcəsi barədə məlumatında isə nazir qeyd edib ki, fondun 2027-ci il üçün gəlirlərinin 82,3 faizinin məcburi dövlət sosial sığorta daxilolmalarından formalaşacağı proqnozlaşdırılır. Qeyri-büdcə sektoru üzrə proqnoz edilən gəlirlər ümumi sosial sığorta haqlarının 67,5 faizini təşkil edir.

Fondun xərcləri barədə danışarkən qeyd olunub ki, mövcud proqnoza əsasən, 2027-ci ildə əmək pensiyalarının təqribən 7,5 faiz səviyyəsində indeksləşdirilməsi məqsədilə 575,5 milyon manat vəsaitin ayrılması nəzərdə tutulub.

İşsizlikdən Sığorta Fondunun 2027-ci il büdcəsi barədə danışarkən əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev vurğulayıb ki, ölkə rəhbəri tərəfindən təsdiq olunmuş "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası" çərçivəsində özünüməşğulluq tədbirlərinin genişləndirilməsi, işçi qüvvəsinin bacarıqlarının inkişaf etdirilməsi, aktiv məşğulluq tədbirlərinin əhatə dairəsinin genişləndirilməsi kimi tədbirlərin növbəti illərdə də prioritet olaraq həyata keçirilməsi nəzərdə tutulur.

Nazir həmçinin İcbari Tibbi Sığorta Fondunun 2027-ci il büdcəsi haqqında da məlumat verib. O bildirib ki, fondun gəlirləri 2 milyard 257 milyon manat nəzərdə tutulur ki, bu da 2026-cı il üzrə təsdiq olunmuş gəlirlərdən 281,2 milyon manat və ya 14,2 faiz çoxdur. İcbari tibbi sığorta haqlarından daxilolmaların 63,4 faizi qeyri-büdcə sektorunun payına düşür. Əhalinin dövlət büdcəsinin vəsaiti hesabına icbari tibbi sığortalanması məqsədilə 2027-ci ildə fonda dövlət büdcəsindən 1,1 milyard manat vəsaitin ayrılması nəzərdə tutulur ki, bu da əvvəlki ilin göstəricisindən 200 milyon manat və ya 22,2 faiz çoxdur.

Fondun 2027-ci il üzrə ümumi xərclərinin 2 milyard 980 milyon manat həcmində olması proqnozlaşdırılır ki, bu da cari ilin təsdiqlənmiş göstəricisindən 358,7 milyon manat və ya 13,7 faiz çoxdur. Xərclərin 2 milyard 565 milyon manatı və ya 86,1 faizi tibb müəssisələri üzrə icbari tibbi sığorta ödənişləri və əməkhaqqı xərcləri üçün nəzərdə tutulub. Növbəti ilin xərclərində səhiyyə sahəsində dövlət proqramlarına və tədbirlərə 185 milyon manat, tibbi xidmətlərin inkişafı və təkmilləşdirilməsi, həmçinin bu sahədə rəqəmsal infrastrukturun qurulması üçün 105 milyon manat, aptek təşkilatlarına ambulator şəraitdə istifadə olunan dərman vasitələrinə görə sığorta ödənişi, əlilliyi olan şəxslərin dərman preparatları ilə təminatı üçün 59 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur.

Bildirilib ki, ölkə başçısı tərəfindən verilmiş tapşırıqlara uyğun olaraq, növbəti il ərzində nazirlik tərəfindən imtiyazlı şəxslərə mənzillərin, avtomobillərin və reabilitasiya vasitələrinin verilməsi proqramları da davam etdiriləcək. Belə ki, şəhid ailələrinin və müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə 2027-ci il ərzində mənzillərin alınması üçün 40 milyon manat, tibbi göstərişi olan müharibə əlillərinin avtomobillərlə, habelə əlilliyi müəyyən edilmiş şəxslərin reabilitasiya vasitələri ilə təminatı üçün isə 30 milyon manatdan çox vəsaitin ayrılması nəzərdə tutulur.

Qanun layihələrinin müzakirəsində Milli Məclisin komitə sədrləri Zahid Oruc və Fazil Mustafa, deputatlar Razi Nurullayev, Bəhruz Məhərrəmov, Rövşən Muradov, Ceyhun Məmmədov, Naqif Həmzəyev, Azər Allahverənov, Aydın Hüseynov və Əziz Ələkbərov çıxış ediblər. Çıxışlarda deputatlar sosial müdafiə sisteminin dayanıqlığının gücləndirilməsi, Dövlət Sosial Müdafiə Fondunun gəlir mənbələrinin şaxələndirilməsi, İşsizlikdən Sığorta Fondunun vəsaitlərinin aktiv məşğulluq tədbirlərinə yönəldilməsi, pensiyaların indeksləşdirilməsi, sosial dəstək mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı təkliflər səsləndiriblər.

"Dövlət Sosial Müdafiə Fondunun 2027-ci il büdcəsi haqqında" və "İşsizlikdən Sığorta fondunun 2027-ci il büdcəsi haqqında" qanun layihələri birinci oxunuşda qəbul edilib.

Bundan sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov "Azərbaycan Respublikasında 2027-ci il üçün yaşayış minimumu haqqında" qanun layihəsini (birinci oxunuş) təqdim edib. Komitə sədri diqqətə çatdırıb ki, 2027-ci il üçün yaşayış minimumu ölkə üzrə 314 manat, əmək qabiliyyətli əhali üçün 334 manat, pensiyaçılar üçün 258 manat, uşaqlar üçün isə 274 manat həddində təsbit edilir. O, yaşayış minimumunun dövlətin sosial siyasətinin formalaşdırılmasında, sosial müdafiə tədbirlərinin planlaşdırılmasında, iqtisadi inkişafın sosial nəticələrinin, o cümlədən həyat səviyyəsinin qiymətləndirilməsində, sosial-iqtisadi göstəricilərin təhlilində əhəmiyyətli rol oynadığını söyləyib.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bu məsələ barədə təmsil etdiyi komitənin müsbət rəyini səsləndirdikdən sonra qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Parlamentin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Azərbaycan Respublikasında 2027-ci il üçün ehtiyac meyarının həddi haqqında" qanun layihəsinə dair (birinci oxunuş) məlumat verib. Qeyd edib ki, 2027-ci il üçün ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə ehtiyac meyarının həddinin 314 manat müəyyən edilməsi nəzərdə tutulur. O, ehtiyac meyarının yaşayış minimumuna bərabərləşdirildiyini söyləyib. Bildirilib ki, ehtiyac meyarının həddinin artırılması həm yardım alan ailələrin ödənişlərinin artırılmasına, həm də yardım almaq hüququ olan ailələrin dairəsinin genişlənməsinə imkan yaradacaq. Musa Quliyev vurğulayıb ki, qanun layihəsi ölkə Prezidenti İlham Əliyevin sosial siyasətinin əsas prinsipinə - heç bir vətəndaşın diqqətdən kənarda qalmaması prinsipinə xidmət edir və Dövlət Sosial Müdafiə Fondunun 2027-ci il büdcəsi ilə birlikdə vahid sosial zərf təşkil edir.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov qanun layihəsi barədə rəhbərlik etdiyi komitənin müsbət rəy verdiyini bildirdikdən sonra sənəd səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Sonra iclasda Mülki Prosessual Məcəllədə, Miqrasiya Məcəlləsində, "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanununda, Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə, "Pasportlar haqqında", "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında", "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Müflisləşmə və iflas haqqında", "Yol hərəkəti haqqında", "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında", "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında", "Valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Notariat haqqında", "Dövlət rüsumu haqqında", "İcra haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Baytarlıq haqqında", "Fitosanitar nəzarəti haqqında" və "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinə (birinci oxunuş) baxılıb.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov nəzərdə tutulan dəyişikliklərin rüsum ödənişi ilə bağlı olduğunu söyləyib. O, "Dövlət rüsumu haqqında" qanuna təklif edilən dəyişikliklərin azadolma və güzəştlərin vahid qanunla tənzimlənməsini nəzərdə tutduğunu, digər qanunlardan çıxarılan bir sıra güzəştlərin burada ehtiva olunduğunu deyib. Qeyd edib ki, artıq və ya düzgün tutulmamış rüsumun qaytarılması informasiya sistemindən istifadə edilməklə həyata keçiriləcək. Həmçinin diqqətə çatdırılıb ki, şəhid ailələri notariat hərəkətləri üzrə dövlət rüsumu ödənişindən azad edilir. Şəxsiyyət və sürücülük vəsiqələrindəki səhvlərin düzəldilməsi üçün artıq rüsum ödənişi tələb edilməyəcək. Yerli və xarici investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin elektron dövlət qeydiyyatının rüsumsuz olması layihədə konkretləşdirilir. Habelə bəzi baytarlıq rüsumları üzrə dəyişikliklər təklif olunur. Daşınmaz əmlak sənədlərinin müəyyən hallarda rüsumsuz verilməsi təsbit edilir. Beləliklə, həm güzəştlər vahid normativ hüquqi sənəddə toplanır, həm rüsumların idarə olunması elektronlaşdırılır, həm də ayrı-ayrı ödənişlərə düzəliş edilir.

Bildirilib ki, "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" qanunda istehlakçıların dövlət rüsumundan azad olunması hallarının birbaşa "Dövlət rüsumu haqqında" qanunla müəyyən edilməsi müddəası öz əksini tapır. "Müflisləşmə və iflas haqqında" qanundan əmlakın kreditora verilməsi barədə saziş üzrə ayrıca rüsum qaydası çıxarılır. Bu məsələ dövlət rüsumu qanunvericiliyi əsasında həll ediləcək. Sazişin notariat qaydasında təsdiqi tələbi saxlanılır.

Sənədə əsasən, qeydiyyatla bağlı rüsumların hüquqi əsası "Dövlət rüsumu haqqında" qanun olduğuna görə, şirkət qeydiyyatı və reyestr sənədləri üzrə rüsum qaydaları vahid qanuna uyğunlaşdırılır. Bu məqsədlə məhdud məsuliyyətli cəmiyyətlərin elektron qeydiyyatına dair rüsum istisnası "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanundan çıxarılır. Həmçinin qeyd edilib ki, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanunda ayrıca azadolma normaları əvəzinə "Dövlət rüsumu haqqında" qanuna istinad verilir.

Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Qaya Məmmədov, İnsan hüquqları komitəsinin sədri Zahid Oruc, Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini Jalə Əliyeva, Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev sənəd barədə bu komitələrin rəyini açıqlayaraq, təklif edilən dəyişikliklərin məqsədəmüvafiq olduğunu bildiriblər.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

İclasda Əmək Məcəlləsində, Mülki Prosessual Məcəllədə, Ailə Məcəlləsində, Mülki Məcəllədə, Seçki Məcəlləsində, Rəqabət Məcəlləsində, "Hərbi qulluqçuların statusu haqqında", "Azərbaycan Respublikasında vətəndaşların pul gəlirlərinin və əmanətlərinin indeksləşdirilməsi haqqında", "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Həmkarlar ittifaqları haqqında", "Sosial sığorta haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Gömrük orqanlarında xidmət haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Yaşayış minimumu haqqında", "Sosial müavinətlər haqqında", "Təhsil haqqında", "Hərbi vəzifə və hərbi xidmət haqqında", "Məktəbəqədər təhsil haqqında", "İşsizlikdən sığorta haqqında", "Ümumi təhsil haqqında", "Siyasi partiyalar haqqında", "Diplomatik xidmət haqqında" və "Xüsusi icra məmurları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) də müzakirə olunub. Layihədə təklif olunan dəyişikliklərin mahiyyəti barədə Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev məlumat verib. O qeyd edib ki, qanun layihəsi ilə Əmək Məcəlləsinə, digər beş məcəlləyə dörd əsasnaməyə və 16 qanuna dəyişiklik təklif olunur. O, ümumilikdə 26 normativ-hüquqi aktı əhatə edən bu dəyişikliklərin dörd istiqamət üzrə qruplaşdırıldığını deyib.

Diqqətə çatdırılıb ki, birinci istiqamət saatlıq əməkhaqqı sisteminin tətbiqidir. Belə bir sistemin tətbiqi nəticəsində bu sahədə mövcud boşluqlar aradan qaldırılacaq, kənd təsərrüfatı, turizm, ictimai iaşə, məişət xidmətləri və digər sahələrdə çalışanların əməyinin daha ədalətli ödənilməsinə şərait yaradılacaq.

İkinci istiqamət əməkhaqqı ödənişlərinin elektronlaşmasıdır. Bu dəyişiklik əməkhaqqının hesablanması, uçotu və ödənilməsinin vahid elektron sistem üzərindən həyata keçirilməsini nəzərdə tutur.

Üçüncü istiqamət isə uşağa qulluğa görə sosial təminatın təkmilləşdirilməsi ilə bağlıdır. Qanun layihəsi ilə üç yaşınadək uşağa qulluğa görə müavinətin təyin edilməsi üçün ən azı altı aylıq sığorta stajı müəyyənləşdirilir. Bununla yanaşı, "qismən ödənişli məzuniyyət" anlayışı "uşağa qulluğa görə sosial məzuniyyət" anlayışı ilə əvəz olunur. Hamiləliyə və doğuma, eləcə də uşağa qulluğa görə müavinətlərin vahid sosial sığorta mexanizmi əsasında təyin edilməsi təmin edilir. Bu dəyişikliklər ailələrin, xüsusilə azyaşlı uşağı olan valideynlərin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edir.

Qeyd edilib ki, dördüncü istiqamət əmək məzuniyyəti hüququnun təminatı ilə əlaqədardır. Belə ki, təklif olunan dəyişikliklər istifadə edilməmiş məzuniyyət günlərinin hüquqi statusunu dəqiqləşdirir və işçilərin istirahət hüququnun qorunmasını gücləndirir. Məzuniyyətin başqa vaxta keçirilməsinin halları dəqiq müəyyən edilir. İstifadə edilməmiş məzuniyyət günlərinin növbəti ilə keçirilməsi tərəflərin razılığı əsasında mümkün olacaq. İşçinin ərizəsi əsasında istifadə edilməmiş və növbəti ilə keçirilməmiş məzuniyyət günlərinə görə kompensasiya ödənilməsi nəzərdə tutulur. Eyni zamanda qanunla müəyyən edilmiş 21 günlük minimum əsas məzuniyyət müddətinin əmək müqaviləsi qüvvədə olduğu dövrdə pulla əvəz edilməsinə yol verilmir. Bu yanaşma istirahət hüququnun qorunmasına, işçilərin sağlamlığının və sosial rifahının təmin edilməsinə xidmət edir.

Komitə sədri bildirib ki, təklif olunan dəyişikliklərin ümumi mahiyyəti əmək qanunvericiliyinin müasir əmək bazarının tələblərinə uyğunlaşdırılmasından və işçilərin hüquqlarının daha etibarlı qorunmasından ibarətdir.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini Jalə Əliyeva, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev, Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov, Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Qaya Məmmədov qanun layihəsində təklif olunan dəyişikliklər barədə fikirlərini bildirərək, təmsil etdikləri komitələrin məsələ barədə müsbət rəylərini səsləndiriblər.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov Azərbaycan Respublikasının Meşə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Yerin təki haqqında", "Tullantılar haqqında", "Heyvanlar aləmi haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "Tibbi sığorta haqqında", "Avtomobil yolları haqqında", "Xüsusi mühafizə olunan təbiət ərazi-ləri və obyektləri haqqında", "Büdcə sistemi haqqında", "Dövlət borcu haqqında", "Gömrük tarifi haqqında", "Yaşıllıqların mühafizəsi haqqında", "Nağdsız hesablaşmalar haqqında", "Hesablama Palatası haqqında", "Dövlət satınalmaları haqqında" və "Balıqçılıq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini birinci oxunuşda təqdim edib. Komitə sədri bildirib ki, layihədə 2027-ci ilin dövlət büdcəsi çərçivəsində bir sıra qanunlara, o cümlədən Vergi Məcəlləsinə dəyişikliklər təklif edilir. Vergi Məcəlləsinə dəyişikliklər iqtisadi fəaliyyətin müxtəlif sahələrini əhatə edir.

Bildirilib ki, layihədə sahibkarlığın böyüməsi təşviq edilir. Mikrosahibkar daha böyük sahibkar kateqoriyasına keçdikdə əvvəlki il ödədiyi vergilərin gələcək vergi öhdəliklərindən çıxılması nəzərdə tutulur. Müəyyən şərtlərə əməl edən kiçik sahibkarların gəlir və mənfəətinin 25 faizinə güzəşt təklif edilir. Layihədə qeyri-neft iqtisadiyyatının gəlir yaratmaq imkanları dəstəklənir. Yerli məhsulların və müəyyən xidmətlərin ixracına, xarici turistlərə xidmət göstərən mehmanxana və sanatoriyaların fəaliyyətinə vergi güzəştləri nəzərdə tutulur.

Aqrar sahəyə dəstək uçot və şəffaflıqla əlaqələndirilir. Aqrar istehsalçıların gəlir və mənfəəti üzrə tam azadolmanın əvəzinə, qeydiyyat və bəyanetmə şərtilə 90 faizlik güzəşt nəzərdə tutulur. İstehsalla bağlı dövlət subsidiyaları isə vergidən azad edilir. Beləliklə, əhəmiyyətli vergi dəstəyi saxlanılmaqla, sahədə iqtisadi dövriyyənin daha dolğun uçota alınması hədəflənir. Vergi öhdəliklərinin icrası asanlaşdırılır, vergi siyasətinin tənzimləyici rolu genişləndirilir. Bütün bu dəyişikliklər sahibkarlığın dəstəklənməsi yolu ilə büdcənin gəlir bazasının möhkəmləndirilməsinə xidmət edir.

Komitə sədri layihədə digər qanunlara təklif olunan dəyişikliklər barədə də ətraflı məlumat verib.

Müzakirələr zamanı Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov, Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov və deputat Əli Məsimli qanun layihəsi barədə fikirlərini bildiriblər, rəy və təkliflərini səsləndiriblər.

Milli Məclisin Sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, müzakirələr noyabrın 18-də davam etdiriləcək.

Rəşad CƏFƏRLİ,
"Azərbaycan"

Azərbaycan-Böyük Britaniya strateji tərəfdaşlığı: siyasi, iqtisadi və sosial perspektivlər

Prezident İlham Əliyevin Dublin səfəri Azərbaycanın Avropa dövlətləri ilə münasibətlərinin inkişafı, siyasi dialoqun genişləndirilməsi və qarşılıqlı iqtisadi maraqların uzlaşdırılması baxımından mühüm diplomatik hadisədir. Azərbaycanla Böyük Britaniya arasında Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamənin imzalanması isə iki ölkə arasında uzun illər ərzində formalaşmış əməkdaşlığın daha geniş istiqamətləri əhatə etməsi üçün yeni siyasi çərçivə yaradır.



Bəyannamənin mühüm məqamlarından biri Azərbaycanın suverenliyinə, müstəqilliyinə və ərazi bütövlüyünə hörmət prinsiplərinin təsdiqlənməsidir. Eyni zamanda 2025-ci il 8 avqust tarixli Vaşinqton Sülh Zirvəsi Bəyannaməsinin əhəmiyyətinin vurğulanması və Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması prosesinə dəstək ifadə olunması regional sülh gündəliyinin ikitərəfli münasibətlərdə də yer tutduğunu göstərir.

Sosial-iqtisadi baxımdan isə sənədin əhəmiyyəti enerji sektorundan kənarda əməkdaşlığın genişləndirilməsi imkanları ilə bağlıdır. Bərpaolunan enerji, nəqliyyat və logistika, Orta dəhliz, investisiyalar, təhsil, süni intellekt və innovasiya sahələri üzrə əməkdaşlıq perspektivləri xüsusi diqqət çəkir. Burada əsas məsələ siyasi razılaşmaların konkret investisiya layihələrinə, yeni iş yerlərinə, müasir texnologiyaların tətbiqinə və insan kapitalının inkişafına çevrilməsidir.

Bu sənədin perspektivli istiqamətlərindən biri məhz səhiyyə və təbiət elmləri sahəsində əməkdaşlıq imkanlarının genişləndirilməsidir. Bəyannamədə səhiyyə ayrıca əməkdaşlıq bölməsi kimi göstərilməsə də, təhsil, elmi tədqiqatlar, innovasiya, inkişaf edən texnologiyalar və həyat elmləri sahələrində tərəfdaşlıq nəzərdə tutulur. Bu müddəalar tibbi əməkdaşlığın inkişafı üçün də əlverişli əsas yarada bilər.

Böyük Britaniyanın səhiyyə sisteminin idarə olunması, klinik tədqiqatlar, tibbi təhsil və biotexnologiya sahəsində zəngin təcrübəsi var. Xüsusilə Milli Səhiyyə Xidmətinin - NHS-in fəaliyyət modeli, ilkin səhiyyə xidmətlərinin təşkili, xəstəxanaların idarə edilməsi və tibbi xidmətlərin keyfiyyətinə nəzarət mexanizmləri Azərbaycan üçün təcrübə baxımından faydalı olan istiqamətlərdir.

Azərbaycan səhiyyəsində aparılan struktur və idarəetmə islahatları fonunda Britaniya təcrübəsindən istifadə etməklə xəstəxana menecmentinin təkmilləşdirilməsi, rəqəmsal səhiyyənin inkişafı, süni intellekt əsaslı diaqnostik sistemlərin tətbiqi və tibbi xidmətlərin keyfiyyət göstəricilərinin yüksəldilməsi istiqamətində birgə layihələr həyata keçirilə bilər.

Digər mühüm istiqamət tibb işçilərinin peşəkar hazırlığıdır. Azərbaycan və Britaniya universitetləri, tibb müəssisələri və elmi mərkəzləri arasında birgə təhsil proqramlarının, klinik təcrübə mübadiləsinin və tədqiqat layihələrinin təşkili həkimlərimizin müasir tibbi biliklərə çıxışını genişləndirə bilər. Eyni zamanda onkologiya, kardiologiya, transplantologiya, tibbi genetika və biotexnologiya kimi yüksəktexnologiyalı sahələrdə əməkdaşlıq imkanları araşdırılmalıdır. Fikrimcə, strateji tərəfdaşlığın səhiyyə sahəsində əsas hədəfi yalnız müasir tibbi avadanlıqların alınması deyil, həmin texnologiyaları tətbiq edə bilən milli kadr potensialının və elmi-tədqiqat mühitinin formalaşdırılması olmalıdır. Bu baxımdan, Avropanın inkişaf etmiş səhiyyə sistemləri ilə əməkdaşlıq Azərbaycanın səhiyyə islahatlarına əlavə imkanlar yarada bilər.

Digər mühüm istiqamət öczaçılıq sənayesidir. Azərbaycanda dərman istehsalının inkişaf etdirilməsi yalnız iqtisadi məsələ deyil, həm də ölkənin dərman təhlükəsizliyi və səhiyyə sisteminin dayanıqlığı ilə birbaşa bağlıdır. Avropa şirkətləri ilə texnologiya transferi, birgə istehsal müəssisələrinin yaradılması, beynəlxalq GMP standartlarının tətbiqi və yerli mütəxəssislərin hazırlanması istiqamətində əməkdaşlıq ölkəmizin idxaldan asılılığının mərhələli şəkildə azaldılmasına xidmət edə bilər. Xüsusi vurğulamaq istərdim ki, dərman istehsalının lokallaşdırılması yalnız istehsal həcmini artırmaq məqsədi daşımamalıdır. Əsas hədəf keyfiyyətli, təhlükəsiz və effektiv dərman vasitələrinin vətəndaşlarımız üçün daha əlçatan olmasıdır.

Bununla yanaşı, rəqəmsal səhiyyə, teletibb, süni intellektlə dəstəklənən diaqnostika və elektron tibbi məlumat sistemləri üzrə əməkdaşlıq regionlarda yaşayan əhalinin də ixtisaslaşmış tibbi xidmətlərə çıxış imkanlarını genişləndirə bilər. Nəticə etibarilə beynəlxalq səhiyyə əməkdaşlığının uğuru onun vətəndaşın sağlamlığına, müalicənin keyfiyyətinə və ailələrin tibbi xərclərinin azalmasına real təsiri ilə ölçülməlidir.

Beynəlxalq əməkdaşlığın əhəmiyyəti yalnız siyasi əlaqələrin genişlənməsi ilə məhdudlaşmır. Onun vətəndaşların gündəlik həyatına, sosial təminatına, məşğulluğuna və sağlamlığına təsiri də mühüm göstəricidir. Avropa ölkələri ilə iqtisadi və texnoloji əməkdaşlığın genişlənməsi Azərbaycana yeni investisiyaların cəlb olunmasına, yüksəkixtisaslı iş yerlərinin yaradılmasına və əmək bazarında rəqabətqabiliyyətli peşələrin inkişafına şərait yarada bilər. Xüsusilə gənclərimizin müasir texnologiyalar, mühəndislik, tibb, süni intellekt və digər innovativ sahələr üzrə təhsil və peşə hazırlığı imkanlarının genişlənməsi uzunmüddətli sosial-iqtisadi inkişaf baxımından əhəmiyyətlidir.

Dublin səfərinin nəticələrini siyasi, iqtisadi və humanitar istiqamətlər üzrə birlikdə qiymətləndirmək lazımdır. Siyasi baxımdan Avropa liderləri ilə birbaşa dialoq, regional sülh prosesinin müzakirəsi və Azərbaycan-Böyük Britaniya münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsində rəsmiləşdirilməsi diqqətçəkən məqamlardır.

İqtisadi baxımdan isə 30 ildən artıq enerji əməkdaşlığı təcrübəsinin yüksək texnologiyalar, innovasiya, bərpaolunan enerji, nəqliyyat və xidmət sektorlarına genişləndirilməsi üçün imkanlar yaranır.

İmzalanmış bəyannamədə tərəflərin əməkdaşlığın üç əsas istiqaməti üzrə irəliləyişini nəzərdən keçirmək və gələcək prioritetləri müəyyənləşdirmək məqsədilə hər il strateji tərəfdaşlıq görüşü keçirməsi planlaşdırılır. Bu, sənədin icrasının mütəmadi müzakirəsi üçün konkret mexanizmdir.

Azərbaycanın qarşısında duran mühüm vəzifələrdən biri beynəlxalq tərəfdaşlıqları yalnız iqtisadi gəlir mənbəyi kimi deyil, həm də insan kapitalının inkişafına xidmət edən mexanizm kimi dəyərləndirməkdir.

Müşfiq MƏMMƏDLİ,
Milli Məclisin deputatı



Çoxqütblü dünyada müstəqil siyasət

Azərbaycan güc mərkəzləri ilə qarşılıqlı hörmət və etimad əsasında tərəfdaşlıq qurmağı bacaran nadir ölkələrdəndir

"...Bizim xarici siyasətlə bağlı addımlarımız dünyada böyük təqdirlə qarşılanır. Nüfuzumuz artır. Biz bir çox yeni formatlara qoşuluruq. Bu gün Azərbaycan qədər çoxşaxəli beynəlxalq əlaqələr quran və bir çox ölkələrlə, deyə bilərəm ki, bütün qütblərlə təmasda olan, öz maraqlarını müdafiə edən ikinci ölkə çətin tapılsın, bəlkə də var. Amma hər halda bu bir nadir təcrübədir".

Prezident İlham Əliyevin səsləndirdiyi bu fikirlərdə olduğu kimi, dünyanın kəskin qütbləşməyə məruz qaldığı, dövlətlərin fərqli geosiyasi bloklar arasında seçim etmək məcburiyyətində qaldığı bir dövrdə rəsmi Bakı öz milli maraqlarını hər şeydən üstün tutaraq tamamilə müstəqil güc kimi çıxış edir.

Bəli, ərazisi və əhalisi böyük olmasa da, Azərbaycan heç bir hərbi-siyasi düşərgəyə qoşulmadan bütün güc mərkəzləri ilə qarşılıqlı hörmət və etimad əsasında tərəfdaşlıq qurmağı bacaran nadir ölkələrdəndir.

Artan nüfuzun göstəricisi

Azərbaycanın qlobal müstəvidə artan nüfuzunun təməlində ilk növbədə bölgədə yaratdığı yeni geostrateji reallıqlar dayanır. İkinci Qarabağ müharibəsindən dərhal sonra Bakının irəli sürdüyü beş təməl prinsip əsasında formalaşan sülh gündəliyi artıq real nəticələr verir. Tranzit məhdudiyyətlərinin aradan qaldırılması, ABŞ Prezidenti Donald Trampın iştirakı ilə Vaşinqtonda Ermənistanla Birgə Bəyannamənin imzalanması, sülh sazişi layihəsinin paraflanması Cənubi Qafqazda dayanıqlı sabitliyin əsasını qoyub. Zəngəzur dəhlizinin (TRIPP) açılması istiqamətində əldə olunan razılaşmalar isə bölgəni vahid nəqliyyat-kommunikasiya məkanına çevirir.

Qətiyyətli və uzaqgörən siyasəti Azərbaycanı dünyanın iki əsas supergücü - ABŞ və Çin üçün əvəzsiz tərəfdaşa çevirib. Prezident İlham Əliyevin ötən ilin avqustunda Vaşinqtona səfəri zamanı ABŞ lideri Donald Trampın "Azadlığı Müdafiə Aktı"na 907-ci düzəlişin icrasını dayandırması, Ağ Evin rəmzi açarını dövlətimizin başçısına təqdim etməsi bu super gücün Bakıya olan dostluq münasibətini özündə əks etdirirdi.

Bu il fevralın 10-da paytaxtımızda imzalanan "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası" isə xüsusi əhəmiyyət kəsb etdi. Çünki, bu sənəd iki ölkə arasında münasibətlərin yeni mərhələyə yüksəlməsi ilə yanaşı, regionun gələcək taleyinə təsir göstərə biləcək mühüm siyasi hadisə oldu.

Tarixi İpək yolunun birləşdirdiyi Azərbaycan və Çin hər zaman bir-birilərinin suverenliyini dəstəkləyiblər. Bakı hər zaman bəyan edir ki, Azərbaycan daim "Vahid Çin" siyasətini dəstəkləyir. Son dövrlər iki ölkə arasında əlaqələr daha da şaxələnərək dinamik inkişaf edir. Prezident İlham Əliyevin bu ölkəyə dövlət və işgüzar səfərləri, iki ölkə arasında mühüm sənədlərin imzalanması münasibətlərin dərinliyini göstərir.

Dünyanın iki supergücü arasında rəqabətin mövcud olduğu bir şəraitdə hər ikisi ilə eyni səviyyədə əlaqələr yaratmağın, strateji sənədlər imzalamağın sirrini Prezident İlham Əliyev belə izah edib: "Çinlə hərtərəfli strateji tərəfdaşlıq bəyannaməsi imzalanmışdır, Amerika Birləşmiş Ştatları ilə Strateji Xartiya imzalanmışdır. Bunlar dünyanın iki supergücüdür, üçüncüsü yoxdur. O da həqiqətdir, bu ölkələr arasında təbii ki, məsələlər müzakirə edilir və müəyyən rəqabət də var... ...Bax bu iki supergüclə Azərbaycan strateji tərəfdaşdır... ...Nədir bu? Bax bizə olan inam, bizə olan münasibət, bizim sözümüzə olan inam. Artıq dünyada bilməyən yoxdur ki, sözümüz imzamız qədər dəyərlidir. Nəyi deyiriksə, onun üstündə dururuq".

Avropa ilə enerji və siyasi dialoq körpüsü

Azərbaycanın balanslaşdırılmış xarici siyasət kursunda Avropa İttifaqı (Aİ) və qitənin aparıcı dövlətləri ilə əməkdaşlıq xüsusi yer tutur. Bu gün Azərbaycan təbii qazı dünyanın 14 ölkəsinə, o cümlədən Aİ-yə üzv olan 10 dövlətə ixrac edilir. Ənənəvi karbohidrogen resursları ilə yanaşı, ölkəmiz külək və günəş enerjisi potensialı ilə də Avropanın "yaşıl enerji" keçidində açar rol oynayır.

Ölkəmizin Aİ-nin 10 üzv dövləti ilə strateji tərəfdaşlıq sənədləri mövcuddur. 2020-ci ildə İtaliya ilə imzalanmış Çoxölçülü Strateji Tərəfdaşlığın Gücləndirilməsinə dair Birgə Bəyannamənin ardınca bu ilin iyul ayında Prezident İlham Əliyevin Berlində Almaniya Federal Kansleri Fridrix Mertslə imzaladığı "İkitərəfli tərəfdaşlıq üçün strateji gündəliyə dair Birgə Bəyannamə" Avropanın əsas siyasi-iqtisadi mərkəzləri ilə münasibətlərin yeni yol xəritəsini müəyyənləşdirdi.

Cari il ərzində Avropa İttifaqının ali rəsmiləri - Antonio Koşta, Kaya Kallas və Ursula fon der Lyayenin Bakıya ardıcıl səfərləri, Aİ ilə 2026-2030-cu illər üzrə Tərəfdaşlıq Prioritetlərinin razılaşdırılması və noyabrın 12-də İrlandiyanın paytaxtı Dublində keçirilən "Avropa Siyasi Birliyinin" 9-cu Zirvə Toplantısında diplomatik fəallıq Azərbaycanın Avropa siyasətindəki yerini daha da möhkəmləndirdi.

Prezident İlham Əliyev Dublin Sammiti çərçivəsində gün ərzində Avropa İttifaqı Şurasının prezidenti Antonio Koşta, həmçinin Ukrayna, Moldova, Bolqarıstan, Yunanıstan, Çexiya, Rumıniya, Litva, Böyük Britaniya və Ermənistanın dövlət və hökumət başçıları da daxil olmaqla, ümumilikdə 10 ikitərəfli görüş keçirdi. Qarşı tərəflərin istəyi ilə keçirilən bu görüşlər Azərbaycan liderinə və dövlətimizə göstərilən qlobal etimadın, həmçinin ölkəmizin beynəlxalq nüfuzunun göstəricisi idi.

Bununla yanaşı, Dublində Böyük Britaniyanın Baş naziri Endi Börnhem ilə keçirilən görüşdə "Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə"nin mübadilə olunması 30 ildən artıq davam edən enerji əməkdaşlığını yüksək texnologiyalar və süni intellekt müstəvisinə keçirdi.

Şərqlə Qərbin qovşağında yerləşən Azərbaycan qlobal təchizat zəncirinin ən təhlükəsiz halqası olan Orta dəhlizin əsas təminatçısıdır. Bu logistik üstünlük və siyasi etimad ölkəmizə qonşu regionlarla da unikal inteqrasiya imkanları yaradıb. Ötən ilin noyabrında Cənubi Qafqazda yerləşməsinə baxmayaraq, Azərbaycanın Mərkəzi Asiya Məşvərət Görüşlərinə tamhüquqlu üzv qəbul edilməsi tarixi zərurətdir.

Ölkəmizin MDB üzvləri, o cümlədən Rusiya ilə də sıx əlaqələri var. 2022-ci ilin fevralında Prezident İlham Əliyevin Rusiya Federasiyasına rəsmi səfəri çərçivəsində ölkəmizin rəhbəri ilə Rusiya Prezidenti Vladimir Putin tərəfindən "Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə" imzalanıb. Bu, şimal qonşumuzla əlaqələrin sabit inkişafına xidmət edir.

Türk Dövlətləri Təşkilatının aparıcı gücü olan ölkəmizin xarici siyasətində islam dünyası ilə həmrəylik də dəyişməz prioritetdir. Azərbaycanın 30 il ərzində heç bir yeni üzv qəbul etməyən D-8 təşkilatına üzv seçilməsi və İslam Əməkdaşlıq Təşkilatının qarşıdakı Zirvə görüşünə evsahibliyi etməyə hazırlaşması ölkəmizin birləşdirici missiyasının göstəricisidir.

Gətirdiyimiz nümunələrdən də göründüyü kimi, müxtəlif qütblər arasında məharətlə tarazlıq yaradan, yalnız milli maraqlara və beynəlxalq hüquqa söykənən Azərbaycan diplomatiyası artıq regional çərçivələri aşaraq qlobal miqyasda qəbul edilən müstəqil dövlətçilik modelinə çevrilib. Bu fəaliyönümlü və uzaqgörən siyasət ölkəmizin gələcək tərəqqisinin və beynəlxalq arenadakı sarsılmaz mövqeyinin ən böyük təminatıdır.

Yasəmən MUSAYEVA,
"Azərbaycan"

Bakıya olan yüksək etimad Prezident İlham Əliyevin güclü siyasi iradəsinin nəticəsidir

2026-cı il noyabrın 12-də İrlandiyanın paytaxtı Dublində keçirilən "Avropa Siyasi Birliyi"nin 9-cu Zirvə Toplantısı Avropa məkanında vahid inteqrasiya bloklarına üzv olmayan, lakin qitənin təhlükəsizlik və iqtisadi arxitekturasında həlledici rol oynayan dövlətlərlə Aİ arasında bərabərhüquqlu siyasi-diplomatik platforma kimi çıxış edərək Azərbaycanın müasir xarici siyasət tarixində keyfiyyətcə yeni mərhələnin başlanğıcını qoydu. Prezident İlham Əliyevin sammit çərçivəsində "Rəqabətqabiliyyətli Avropanın yaradılması - innovasiya, bağlantılar və əlçatan enerji" mövzusunda "dəyirmi masa"da iştirakı və yüksəksəviyyəli ikitərəfli görüşləri ölkəmizin Avropa ilə münasibətlərinin ikitərəfli təchizat müqavilələri çərçivəsini aşaraq, ümum-Avropa strateji tərəfdaşlığı müstəvisinə keçdiyini təsdiqlədi. Əvvəlki illərdə Avropanın Cənubi Qafqaza yanaşması daha çox klassik Şərq tərəfdaşlığı mexanizmləri və qeyri-müəyyən siyasi şərtlərlə xarakterizə olunurdusa, hazırkı mərhələdə münasibətlər praqmatizm, qarşılıqlı maraqların uzlaşdırılması və realpolitik prinsipləri üzərində qurulur.



Milli Məclisin deputatı Bəhruz MƏHƏRRƏMOV qəzetimizə açıqlamasında dedi ki, Avropa liderlərinin və Aİ-nin yüksəkvəzifəli rəsmilərinin Bakıya intensivləşən diqqətini bir neçə fundamental geosiyasi və iqtisadi amil şərtləndirir: "İlk növbədə, qlobal enerji bazarlarında yaranmış struktur böhranı fonunda Avropanın enerji mənbələrinin şaxələndirilməsinə kəskin ehtiyacı yaranıb. 2022-ci ildə imzalanmış enerji sahəsində strateji tərəfdaşlığa dair Anlaşma Memorandumu ilə hüquqi-normativ bazası möhkəmlənən bu əməkdaşlıq nəticəsində Azərbaycanın qaz təchizatının 8 milyard kubmetrdən 13 milyard kubmetrə çatdırılması, bu prosesin 10 Avropa İttifaqı ölkəsini əhatə etməsi, TAP kəmərinin ötürmə gücünün Yunanıstan və İtaliya istiqamətində 11,2 milyard kubmetrə yüksəldilməsi və bərpaolunan mənbələrdən Avropaya elektrik enerjisi ixracı layihələri ölkəmizi qitənin enerji təhlükəsizliyinin əsas təminatçılarından birinə çevirib. Digər mühüm amil Avropa ilə Asiya arasında ən qısa və təhlükəsiz quru yolunu təmin edən Orta dəhlizin strateji əhəmiyyətinin artması və Azərbaycanın öz suverenliyini tam bərpa etməsi ilə regionda yaratdığı yeni geosiyasi reallıqdır. Eyni zamanda Azərbaycanın 2028-ci ilin mayında "Avropa Siyasi Birliyi"nin Sammitinə evsahibliyi edəcəyi fonunda Dublin görüşləri Bakı Sammitinin gündəliyini formalaşdırmaq və Avropa liderləri ilə birbaşa koordinasiya yaratmaq üçün mühüm diplomatik zəmin hazırladı".

Deputat bildirdi ki, Dublin zirvəsinin ən mühüm tarixi-hüquqi nəticələrindən biri Prezident İlham Əliyev və Böyük Britaniyanın Baş naziri Endi Börnhem tərəfindən "Azərbaycan Respublikası ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə"nin imzalanması olub. 30 ildən artıq enerji əməkdaşlığına söykənən münasibətləri rəsmən strateji müttəfiqlik səviyyəsinə yüksəldən bu sənəd müdafiə və təhlükəsizlik sahəsində birgə təlimləri, müdafiə sənayesi üzrə təşəbbüsləri, sərhəd təhlükəsizliyi və hüquq-mühafizə orqanları arasında əməkdaşlığı rəsmiləşdirdi. Bundan əlavə, Azərbaycanda ən böyük Avropa investoru olan Böyük Britaniya ilə süni intellekt, rəqəmsal idarəetmə, maliyyə və kapital bazarları, "yaşıl maliyyələşdirmə" və universitetlərarası elmi əməkdaşlıq üzrə yeni institusional mexanizmlər yaradıldı. Orta dəhlizin inkişafına isə həm London, həm də Brüssel tərəfindən siyasi-iqtisadi dəstək təsdiqləndi.

B.Məhərrəmov vurğuladı ki, sammit həm də Cənubi Qafqazdakı postmünaqişə dinamikasının Avropa təhlükəsizlik arxitekturası ilə uzlaşdırılması baxımından həlledici rol oynayıb: "40-dan çox dövlət və hökumət başçısını birləşdirən platformada Ermənistanın Baş naziri Nikol Paşinyanla keçirilən ikitərəfli görüşün, qarşı tərəfin xahişi ilə Çexiya, Yunanıstan, Bolqarıstan, Rumıniya, Litva və Ukrayna liderləri ilə aparılan işgüzar danışıqlarla eyni formatda baş tutması regionda münaqişə səhifəsinin bağlandığını və sülh prosesinin kənar vasitəçilərin ssenariləri üzrə deyil, məhz ikitərəfli razılaşmalar və 2025-ci il avqustun 8-də imzalanmış Vaşinqton Birgə Bəyannaməsinin yaratdığı yeni hüquqi-siyasi reallıqlar çərçivəsində inkişaf etdiyini göstərdi. Sammit çərçivəsində beynəlxalq hüququn ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsiplərinin vurğulanması yekun sülh müqaviləsinin imzalanması üçün fundamental hüquqi şərt olan Ermənistan konstitusiyasının dəyişdirilməsi və Azərbaycana qarşı ərazi iddialarının aradan qaldırılması tələbinə beynəlxalq dəstək yaratdı. Eyni zamanda "Beynəlxalq Sülh və Rifah Naminə Tramp Marşrutu"nun dəmir yolu və avtomobil yolu komponentlərinin planlaşdırılması Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz tranzit bağlantısının beynəlxalq gündəlikdə prioritet kimi təsbit edildiyini göstərdi. Transsərhəd çayların idarə olunması üzrə işçi qrupların yaradılmasının alqışlanması Oxçuçay və Araz çaylarının çirkləndirilməsi ilə bağlı ekoloji hüquq iddialarının praktiki həll müstəvisinə keçməsinə şərait yaratdı. Ötən ilin noyabrından bəri Azərbaycan ərazisindən Ermənistana 105 min ton yükün tranzit daşınmasının müsbət hal kimi qeyd olunması isə rəsmi Bakının regional logistik mərkəz rolunu möhkəmləndirdi".

Deputat qeyd etdi ki, Vaşinqtonda paraflanmış sülh sazişi mətni və Dublin görüşünün gündəliyi Azərbaycan-Ermənistan normallaşma prosesinin artıq konseptual razılaşmalar mərhələsindən hüquqi-institusional icra və praktiki inteqrasiya fazasına keçdiyini və 2027-ci ilin bu istiqamətdə həlledici dönüş ili olacağını göstərir. Hüquqi baxımdan sülh müqaviləsinin ratifikasiyası qarşısındakı əsas maneə olan Ermənistan konstitusiyasının preambulasındakı ərazi iddialarının 2027-ci ildə referendum yolu ilə aradan qaldırılması beynəlxalq hüququn "pacta sunt servanda" prinsipinə uyğun olaraq yekun Sülh Sazişinin imzalanmasına və BMT Katibliyində qeydiyyata alınmasına yol açacaq. Paralel olaraq, 2027-ci ildə Tramp marşrutunun layihələndirmə mərhələsindən bilavasitə tikinti-bərpa işlərinə, gömrük-sərhəd keçid protokollarının unifikasiyasına və beynəlxalq tranzit rejiminin hüquqi tənzimlənməsinə başlanılması gözlənilir. "1991-ci il Almatı Bəyannaməsi bazasında aparılan sərhədlərin delimitasiyası və demarkasiyası prosesi çərçivəsində anklavlar, eksklavlar və strateji yüksəkliklərlə bağlı sahələr üzrə yeni protokolların imzalanması sərhədboyu ərazilərdə üçüncü tərəflərin müşahidə missiyalarına hüquqi cəhətdən ehtiyac qalmaması məsələsini də həll edəcək. Bundan başqa, tərəflər arasında de-fakto formalaşmış iqtisadi etimadın ikitərəfli ticarət rejiminin hüquqi tənzimlənməsi, elektrik enerjisi şəbəkələrinin sinxronlaşdırılması, transsərhəd su ehtiyatlarının bölgüsü üzrə dövlətlərarası sazişlərin imzalanması, eləcə də ikitərəfli icra komissiyasının formalaşdırılması və itkin düşmüş şəxslərin taleyinin aydınlaşdırılması kimi humanitar tədbirlərin sistemli xarakter alması 2027-ci ildə diplomatik münasibətlərin qurulmasını təmin edə bilər", - deyə o əlavə etdi.

B.Məhərrəmov bildirdi ki, əldə olunan bütün bu nailiyyətlər bilavasitə Prezident İlham Əliyevin uzunmüddətli, çoxvektorlu xarici siyasət kursunun, tarixi zamanlama hissinin və strateji uzaqgörənliyinin məntiqi nəticəsidir. Dövlət başçısı hələ bir neçə il əvvəl "Cənub qaz dəhlizi"nin zərurəti ilə bağlı müəyyən dairələrdə mövcud olan tərəddüdlərə baxmayaraq, layihənin hüquqi-maliyyə mexanizmlərini dəqiqliklə quraraq Azərbaycanı regional təchizatçıdan ümum-Avropa enerji və nəqliyyat təhlükəsizliyinin sistemyaradıcı aktoruna çevirdi. Beynəlxalq münasibətlər sistemində artan qütbləşmə şəraitində İlham Əliyevin suveren bərabərlik və milli maraqların qorunması prinsipindən çıxış etməsi, sammitdə əlavə hüquqi-siyasi öhdəliklər yaradan bəzi sənədlərə qoşulmayaraq, məhz qarşılıqlı etimada və konkret iqtisadi-enerji layihələrinə fokuslanması müstəqil qərar qəbuletmə iradəsinin və siyasi realizminin bariz nümunəsidir. Avropa liderlərinin Bakıya artan etimadı təkcə Azərbaycanın coğrafi mövqeyi və təbii resursları ilə deyil, həm də Prezident İlham Əliyevin şəxsində təcəssüm edən güclü siyasi iradə, sabit dövlət idarəçiliyi və verilən bütün öhdəliklərin vaxtında icra olunması zəmanəti ilə bilavasitə bağlıdır.

Əsmər QARDAŞXANOVA,
"Azərbaycan"



İlham Əliyevin güclü Azərbaycan strategiyası

Tarix bəzən xalqların taleyini bir anın, bir qərarın və sarsılmaz bir iradənin üzərində qurur. Azərbaycan xalqı üçün bu tarixi dönüş nöqtəsi 2020-ci ilin payızında başladı. İllər boyu davam edən haqsızlığa, doğma yurdlarından didərgin düşmüş yüz minlərlə soydaşımızın nisgilinə, tapdalanan milli qürurumuza son qoymaq zamanı yetişmişdi. 30 ilə yaxın bir müddətdə sülh danışıqlarının nəticəsiz qalması, düşmənin yeni təxribatlara əl atması xalqın səbir kasasını daşırmışdı. Lakin bu illər ərzində Azərbaycan nə sınmış, nə də torpaqlarından üz döndərmişdi, əksinə, hər ötən gün içimizdəki qisas və qələbə əzmi daha da böyümüşdü.

44 günlük Vətən müharibəsi təkcə hərbi əməliyyatlar silsiləsi deyildi, həm də bir millətin öz varlığını, şərəfini və əzəli torpaqlarını geri qaytarmaq uğrunda göstərdiyi misilsiz iradə nümayişi idi. Müharibənin ilk saatlarından etibarən Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin xalqa müraciətləri cəmiyyətdə görünməmiş bir səfərbərlik və ruh yüksəkliyi yaratdı. Hər bir müraciət xalqla lider arasındakı sarsılmaz birliyin təcəssümünə çevrildi. Dövlətimizin başçısının "İkinci Qarabağ müharibəsi xalqımız üçün Vətən müharibəsidir. Biz Vətən torpaqlarını işğalçılardan azad edirik, biz döyüş meydanında tarixi ədaləti bərpa edirik" sözləri hər bir vətəndaşın qəlbində əks-səda doğurdu. Siyasi baxışından, yaşından və sosial statusundan asılı olmayaraq, hər kəs vahid bir amal - Vətənin azadlığı uğrunda "dəmir yumruq" kimi birləşdi.

Müharibənin ilk saatlarından başlayan xalq-lider birliyi 2020-ci ilin noyabrında 300-dən çox şəhər və kəndin, o cümlədən Qarabağın tacı Şuşanın azad edilməsi ilə nəticələndi. Həmin birlik 2023-cü ilin sentyabrında Qarabağda suverenliyimizin tam bərpası ilə öz məntiqi zirvəsinə çatdı. Ali Baş Komandanın Zəfərin 6-cı ildönümü müraciətində qeyd etdiyi kimi, Xankəndidə ucaldılan ikinci Zəfər tağının hər pilləsində həm 44 günlük şanlı yürüşün tarixi, həm də şəhidlərimizin müqəddəs qanı həkk olunub.

Ötən 6 il ərzində darmadağın edilmiş şəhər və kəndlərimiz sıfırdan qurulur, Böyük qayıdış proqramı çərçivəsində artıq 97 min insan azad edilmiş doğma torpaqlarında yaşayır, təhsil alır və çalışır. Prezident İlham Əliyevin xalqa müraciəti tarixi qələbəmizin 6-cı ildönümü ilə bağlı təbrik məzmunu ilə yanaşı, ölkəmizin son illərdə keçdiyi siyasi, hərbi və sosial-iqtisadi inkişaf yolunun ümumiləşdirilməsi, milli birliyin fəlsəfəsinin ifadəsi və gələcək dövlət quruculuğunun əsas istiqamətlərinin təqdimatı kimi də əhəmiyyət daşıyırdı.

Dövlətimizin başçısının Vətən müharibəsi dövründə səsləndirdiyi "Qarabağ Azərbaycandır və nida!" bəyanatı hər vətəndaşımızın yaddaşında müasir tariximizin ən mühüm siyasi ifadələrindən biri kimi qalıb. Bu bəyanat həmin dövrdə yalnız işğala son qoyulacağına dair qətiyyətli mövqeyin ifadəsi olmaqla qalmırdı, Azərbaycanın ərazi bütövlüyünün müzakirə predmeti olmayacağını, dövlətimizin öz suveren hüquqlarını bərpa etmək əzmini nümayiş etdirirdi. Həmin cümlənin sonundakı nida işarəsinin tarixi mənası isə 2023-cü il sentyabrın 20-də Azərbaycanın həyata keçirdiyi birgünlük antiterror tədbirlərindən sonra daha aydın şəkildə ortaya çıxdı. Məhz həmin gün Xankəndidə separatçı silahlı birləşmələrin fəaliyyətinə son qoyuldu, Azərbaycanın dövlət suverenliyi ölkənin bütün ərazisində bərpa edildi.

Beləliklə, 2020-ci ildə siyasi bəyanat formasında səsləndirilmiş fikir üç il sonra konkret tarixi və siyasi reallığa çevrildi. 2026-cı ildə Prezidentin məhz Xankəndidən xalqa müraciəti isə bu tarixi prosesin məntiqi davamı oldu. Başqa sözlə, vaxtilə Azərbaycan dövlətinin suverenliyinə qarşı çıxan qüvvələrin fəaliyyət göstərdiyi məkan bu gün dövlət başçımızın milli birlik və gələcək inkişaf barədə mesajlarının səsləndirildiyi yerə çevrildi.

Yeni məzmun qazanan tarixi məkanlar

Müraciətin ən yaddaqalan məqamlarından biri Xankəndidə yaradılmaqda olan Zəfər muzeyi ilə bağlı idi. Muzey vaxtilə separatçıların və işğalçılıq siyasətinin təmsilçilərinin yerləşdiyi keçmiş icra orqanının binasında fəaliyyət göstərəcək. Cənab İlham Əliyevin həmin bina ilə bağlı xatirəsi isə simvolik məzmunu ilə diqqət çəkdi: "Bu, bir şeytan yuvası idi. O binaya mən şanlı Zəfərimizdən sonra - 2023-cü ilin oktyabrında gələndə ilk növbədə binanın pəncərələrini açdım ki, o şeytan ruhu oradan çəkilsin. İndi həmin o binada Zəfər Muzeyi yerləşəcək".

Beləliklə, Zəfər tarixi məkanlara da yeni məzmun qazandırır. Bir vaxtlar separatçı idarəçiliyin simvollarından olmuş binanın Zəfər muzeyinə çevrilməsi keçmişlə gələcək arasında rəmzi körpü yaradır. Həmin bina tezliklə dövlət suverenliyinin, milli yaddaşın, tarixi qələbənin təbliğ olunduğu məkana çevriləcək. Muzeylərin funksiyası yalnız tarixi hadisələri nümayiş etdirməklə məhdudlaşmır, onlar həm də gələcək nəsillərin tarixi yaddaşını formalaşdırır. Xankəndidə yaradılacaq Zəfər muzeyi bu baxımdan xüsusi əhəmiyyət daşıyacaq. Burada Vətən müharibəsinin hərbi-siyasi salnaməsinin, şəhidlərin xatirəsinin, Azərbaycan Ordusunun qəhrəmanlığının və dövlətimizin suverenliyinin bərpası prosesinin gələcək nəsillərə çatdırılması üçün əyani eksponatlar, sənədlər, fotolar nümayiş olunacaq.

Prezidentin müraciətində hərbi cinayətkarların hazırda Bakı həbsxanalarında cəzalarını çəkməsinə də diqqət yönəltməsi bu tarixi mənzərənin digər tərəfidir. Bununla bağlı hüquqi qiymətləndirmədə əsas məsələ fərdi məsuliyyət prinsipidir: müharibə və münaqişə dövründə törədilmiş cinayətlərə görə məsuliyyət məhkəmə qərarları və hüquqi prosedurlar əsasında müəyyən edilir. Bu, münaqişədən sonrakı dövrdə hüququn və dövlət institutlarının rolunun önə çəkilməsi baxımından əhəmiyyətlidir.

Zəfərdən suverenliyə

Tarixi Zəfərimizin arxasında çox güclü amillər durur. Ümummilli Lider Heydər Əliyevin təməlini qoyduğu və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi uzunmüddətli dövlət quruculuğu, ölkəmizin hərbi potensialının gücləndirilməsi, sosial-iqtisadi imkanların genişləndirilməsi, uğurlu diplomatik fəaliyyət, xalqımızın milli vəhdəti kimi bir-biri ilə əlaqəli məsələlər bura daxildir. Hərbi qələbə müharibə başlayan gündən formalaşmağa başlayan prosesin nəticəsi deyil, ondan əvvəlki illərdə həyata keçirilmiş siyasi, iqtisadi və hərbi strategiyanın yekun mərhələsi idi.

Müstəqil dövlətin gücü yalnız onun ordusunun say və texniki imkanları ilə ölçülmür. İqtisadi dayanıqlıq, dövlət institutlarının fəaliyyəti, beynəlxalq münasibətlər sistemində mövqe, diplomatik manevr imkanları və cəmiyyətin ümumi səfərbərlik potensialı milli təhlükəsizliyin ayrılmaz elementləridir. Azərbaycanın 2020-ci ildə əldə etdiyi nəticələri təhlil edərkən məhz bu amillərin məcmusuna diqqət yetirmək lazımdır.

İşğal dövründə Azərbaycan rəhbərliyi münaqişənin danışıqlar yolu ilə həllinə üstünlük verdiyini bildirir, eyni zamanda ərazi bütövlüyünün bərpası məsələsində güzəştsiz mövqe nümayiş etdirirdi. Beynəlxalq vasitəçilik prosesinin uzun illər nəticəsiz qalması, danışıqların real irəliləyişə gətirib çıxarmaması və işğalın davam etməsi Azərbaycanın hərbi potensialının artırılmasını dövlət siyasətinin prioritetlərindən birinə çevirmişdi.

Artıq başqa yol qalmamışdı. Prezidentin müraciətində də vurğulandığı kimi, Azərbaycan Ordusunun müasirləşdirilməsi, yeni silah və texnikanın alınması, hərbi qulluqçuların peşəkarlığının yüksəldilməsi, müntəzəm təlimlərin keçirilməsi qələbənin mühüm şərtlərindən oldu. Bununla yanaşı, ölkəmizin iqtisadi imkanlarının genişlənməsi və beynəlxalq nüfuzunun yüksəlməsi də müdafiə qabiliyyətinin möhkəmləndirilməsinə əlavə imkanlar yaratdı.

Bu kontekstdə siyasi rəhbərliyin qərarvermə iradəsi, prinsipiallığı və uzunmüddətli hədəflərə sadiqliyi də diqqətəlayiq amillərdir. İşğalın davam etdiyi 30 ilə yaxın müddətdə Azərbaycanın üzləşdiyi beynəlxalq təzyiqlər, müxtəlif siyasi dairələrin münaqişənin hərbi həllinin mümkün olmadığı barədə mövqeləri və kompromis adı altında irəli sürülən təkliflər dövlətin strateji qərarlarına təsir göstərən mürəkkəb şərait formalaşdırırdı. Prezidentin müraciətində bu məqamların bir daha yada salınması Azərbaycanın öz milli maraqlarını beynəlxalq münasibətlər sistemində müdafiə etmək əzminin ifadəsi kimi təqdim olundu. Buradan çıxan əsas nəticə ondan ibarətdir ki, müstəqil xarici siyasət yürütmək üçün dövlətin həm iqtisadi, həm hərbi, həm də diplomatik resursları olmalıdır. Bu resursların qarşılıqlı tamamlanması isə ölkənin strateji qərarlarını müstəqil qəbul etmək imkanlarını genişləndirir.

Zəfərimizin ən mühüm xüsusiyyətlərindən biri isə hərbi potensialla milli ruhun bir-birini tamamlaması idi. Prezidentin müraciətində də bu fikir xüsusi vurğulandı. Müasir texnika və peşəkar ordu müharibənin aparılması üçün zəruri şərtlər olsa da, onları real nəticəyə çevirən məhz insan amilidir. Əsgər və zabitlərimizin fədakarlığı, xalqın orduya mənəvi dəstəyi, şəhidlərin xatirəsi qarşısında duyulan məsuliyyət və milli ləyaqət hissi müharibənin ictimai-siyasi mənzərəsini müəyyənləşdirirdi.

44 günlük Vətən müharibəsi Azərbaycanın ərazi bütövlüyünün bərpası yolunda həlledici mərhələ olsa da, ölkənin suverenliyinin bütün ərazidə tam təmin edilməsi prosesi 2023-cü ilin sentyabrında yekunlaşdı. Məlumdur ki, dövlətin öz ərazisi üzərində suverenliyinin təminatı yalnız bayrağın ucaldılması ilə deyil, qanunların tətbiqi, dövlət institutlarının fəaliyyəti, təhlükəsizlik sisteminin qurulması və ictimai həyatın vahid hüquqi çərçivəyə daxil edilməsi ilə tamamlanır. 2023-cü ilin sentyabrından sonra Qarabağda həyata keçirilən proseslər də məhz bu istiqamətdə inkişaf etdi.

Prezidentin müraciətində xüsusi yer tutan istiqamətlərdən biri də işğaldan azad edilmiş ərazilərimizdə aparılan bərpa və quruculuq işləri, o sıradan Böyük qayıdış proqramının icrasıdır. Zəfərimizdən sonra Azərbaycan dövləti qarşısında duran ən mühüm vəzifələrdən biri hərbi qələbənin nəticələrini sosial-iqtisadi və humanitar müstəvidə möhkəmləndirmək idi. İşğal dövründə Qarabağ və Şərqi Zəngəzurda şəhər və kəndlərin böyük hissəsi dağıdılmış, tarixi və dini abidələrə ciddi ziyan vurulmuş, infrastruktur sıradan çıxarılmışdı. Bir vaxtlar insanların yaşadığı, təsərrüfat fəaliyyəti ilə məşğul olduğu, sosial və mədəni həyatın qaynadığı yaşayış məntəqələri vandalcasına xarabalığa çevrilmişdi.

Bu gün həmin ərazilərdə faktiki olaraq yeni şəhərsalma və regional inkişaf modeli formalaşdırılır. Ev və mənzillər yol və kommunikasiya infrastrukturu, elektrik enerjisi və su təminatı, məktəblər, xəstəxanalar, yaşayış kompleksləri, sənaye və kənd təsərrüfatı obyektləri vahid inkişaf strategiyasının tərkib hissəsi kimi qurulur. Böyük qayıdışın əhəmiyyəti yalnız keçmiş məcburi köçkünlərin doğma torpaqlarına qayıtması ilə ölçülmür. Bu proses Azərbaycanın regional inkişaf siyasətinin, demoqrafik potensialının və iqtisadi imkanlarının genişləndirilməsi baxımından da mühüm əhəmiyyət daşıyır.

Azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadi sisteminə inteqrasiyası yeni istehsal və xidmət sahələrinin yaradılmasına, məşğulluğun artırılmasına, kənd təsərrüfatı potensialının reallaşdırılmasına və daxili turizmin inkişafına imkan yaradır. Qarabağın tarixi turizm potensialı, Şərqi Zəngəzurun təbii resursları, yeni nəqliyyat infrastrukturu və regional logistika imkanları gələcək iqtisadi inkişaf üçün əlavə perspektivlər açır. Bir sözlə, dağıntıların yerində yeni yaşayış məkanlarının yaradılması hərbi qələbənin sülh və inkişaf gündəliyinə çevrilməsinin əsas göstəricilərindəndir.

Milli birliyin ideoloji təməli

Prezident İlham Əliyevin müraciətinin ən mühüm məqamlarından biri də azərbaycançılıq məfkurəsi və milli-mənəvi dəyərlərlə bağlıdır. Dövlətimizin başçısı Azərbaycanın bütün etnik qruplarının və dini konfessiyaların nümayəndələrini bir ailə kimi birləşdirən əsas fəlsəfənin azərbaycançılıq olduğunu vurğuladı. Bu məqamı Zəfər Günü müraciətinin ümumi məzmunu ilə əlaqələndirdikdə azərbaycançılıq ideologiyasının yalnız mədəni və mənəvi kimlik məsələsi olmadığı aydın görünür. O, həm də dövlətin siyasi birliyini, vətəndaş həmrəyliyini və ümumi gələcək qarşısında məsuliyyəti ifadə edən ideoloji platformadır.

Ölkəmizin tarixi inkişaf təcrübəsi göstərir ki, müxtəlif etnik və dini mənsubiyyətə malik insanların vahid dövlətçilik ideyası ətrafında birləşməsi ölkənin ictimai-siyasi sabitliyinin mühüm şərtlərindəndir. Bu modelin əsasını vətəndaşlıq prinsipi, ümumi dövlət maraqları, milli-mənəvi dəyərlərə hörmət və qarşılıqlı həmrəylik təşkil edir. Azərbaycançılıq ideyasının dövlətçilik fəlsəfəsi kimi formalaşmasında Ümummilli Lider Heydər Əliyevin tarixi rolu müstəsnadır. Müstəqilliyin ilk illərində ölkənin üzləşdiyi siyasi böhran, hərbi qarşıdurma, iqtisadi çətinliklər və ictimai parçalanma təhlükəsi şəraitində Heydər Əliyevin həyata keçirdiyi siyasətin əsas istiqamətlərindən biri milli birliyin təmin edilməsi idi.

Azərbaycançılıq məfkurəsi məhz bu tarixi şəraitdə müxtəlif sosial, etnik və dini qrupları vahid dövlətçilik ideyası ətrafında birləşdirən konseptual yanaşma kimi ön plana çıxdı. Bu ideologiyanın əsas mahiyyəti insanların etnik və dini fərqlərindən asılı olmayaraq, Azərbaycan dövlətinə mənsubiyyət hissini, ümumi tarixi məsuliyyəti və gələcək qarşısında ortaq öhdəlikləri gücləndirməkdən ibarətdir. Vətən müharibəsi zamanı nümayiş etdirilən milli birlik də bu baxımdan vacib əhəmiyyət daşıyır. Müxtəlif bölgələrdən, sosial təbəqələrdən və fərqli dünyagörüşlərindən olan insanlar ümumi məqsəd - Azərbaycanın ərazi bütövlüyünün bərpası naminə birləşdilər. Bu birlik yalnız müharibə dövrünün səfərbərlik amili deyildi, dövlətin ideoloji və ictimai dayaqlarının göstəricisi kimi bütün dünyanın diqqətini çəkirdi.

Azərbaycançılıq məfkurəsinin daha da möhkəmləndirilməsi və gələcək nəsillərə ötürülməsi bu gün ən mühüm vəzifələrdəndir. Qloballaşma, rəqəmsallaşma və informasiya mühitinin sürətlə dəyişdiyi müasir dünyada milli kimliyin qorunması, ana dilinə, tarixi irsə və mədəni dəyərlərə münasibətin möhkəmləndirilməsi dövlətin ideoloji təhlükəsizliyinin mühüm elementlərindəndir.

Gələcəyin əsas prioriteti

Prezident İlham Əliyevin müraciətinin yekun hissəsində səsləndirilən fikirlər Azərbaycanın gələcək inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Dövlətimizin başçısı Azərbaycanın siyasi, iqtisadi və hərbi baxımdan müstəqil, heç kimdən asılı olmayan, ləyaqətli dövlət olduğunu vurğulayaraq gələcək üçün əsas məqsədi belə ifadə etdi: "Biz elə güclü olmalıyıq ki, bundan sonra Azərbaycana zərər vermək heç kimin ağlına belə gəlməsin!"

Bu fikir müstəqilliyin yalnız formal dövlət atributları ilə məhdudlaşmadığını göstərir. Müasir dünyada real müstəqillik iqtisadi dayanıqlılıq, texnoloji inkişaf, hərbi təhlükəsizlik, güclü dövlət institutları, enerji və ərzaq təhlükəsizliyi, beynəlxalq münasibətlər sistemində müstəqil mövqe nümayiş etdirmək imkanları ilə müəyyən olunur.

Dövlətin uzunmüddətli qüdrəti eyni zamanda vətəndaşlarının rifahı, təhsilin keyfiyyəti, səhiyyə sisteminin səmərəliliyi, sosial ədalət, hüququn aliliyi və iqtisadi imkanların bərabər bölüşdürülməsi ilə bağlıdır. Bu sahələrdə əldə olunan nəticələr milli təhlükəsizliyin və ictimai dayanıqlılığın möhkəmləndirilməsinə birbaşa təsir göstərir.

Azərbaycanın qarşısında duran növbəti mühüm vəzifə hərbi qələbənin yaratdığı siyasi imkanları davamlı sülhə, regional əməkdaşlığa və iqtisadi tərəqqiyə çevirməkdir. Cənubi Qafqazda uzunmüddətli sabitliyin təmin olunması, kommunikasiyaların açılması, ticarət əlaqələrinin genişləndirilməsi və qarşılıqlı iqtisadi asılılığın formalaşması regionun bütün ölkələri üçün yeni inkişaf imkanları yarada bilər. Bu baxımdan, güclü Azərbaycan strategiyası həm də sülhün və sabitliyin təmin olunmasına xidmət edən dövlətçilik konsepsiyası kimi nəzərdən keçirilməlidir. Çünki müstəqilliyin qorunması qədər onun yaratdığı imkanlardan səmərəli yararlanmaq, ölkənin gələcək nəsillər üçün daha rəqabətqabiliyyətli və dayanıqlı olmasını təmin etmək də vacibdir.

Prezident İlham Əliyevin 8 noyabr 2026-cı il tarixində Xankəndidən Azərbaycan xalqına müraciəti də bir neçə mühüm ideyanı vahid məntiqi xətt üzrə birləşdirirdi: tarixi yaddaş, dövlət suverenliyi, milli birlik, quruculuq və güclü gələcək. Zəfər tarixi bir hadisədir, onun nəticələrini qorumaq və gələcək nəsillərə daha güclü Azərbaycan dövlətini miras qoymaq isə davamlı dövlətçilik missiyasıdır. Xankəndidən səslənən müraciətin əsas ideya xətti də məhz bu yanaşma idi.

İradə ƏLİYEVA,
"Azərbaycan"

Dublin Sammiti Azərbaycanın yüksək beynəlxalq nüfuzunu bir daha təsdiqlədi

Ölkəmiz Avropa siyasi məkanında etibarlı tərəfdaş kimi qəbul edilir və Avrasiyanın iqtisadi-siyasi arxitekturasının formalaşmasında həlledici rol oynayır

Beynəlxalq siyasətdə ciddi dəyişikliklər baş verdiyi və dövlətlərarası münasibətlərin yenidən formalaşdığı bir zamanda yalnız öz milli maraqlarını qətiyyətlə müdafiə edən, müstəqil siyasi iradəsi ilə fərqlənən ölkələr aparıcı gücə və etibarlı tərəfdaşa çevrilə bilirlər. Bu gün Prezident İlham Əliyevin uzaqgörən, çevik və çoxvektorlu xarici siyasət strategiyası sayəsində Azərbaycan regional çərçivələri aşaraq Avrasiya məkanının enerji, nəqliyyat və təhlükəsizlik xəritəsini yenidən dizayn edən əsas dövlətlərdən biri kimi qəbul olunur.

Ölkəmizin qlobal miqyasda qazandığı yüksək nüfuzun və Avropa paytaxtlarında Bakıya marağın bariz təzahürlərindən biri İrlandiyanın paytaxtı Dublində keçirilən "Avropa Siyasi Birliyi"nin 9-cu Zirvə Toplantısında özünü aydın şəkildə göstərdi. İrlandiyanın Baş naziri Mixol Martin və Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın dəvəti ilə 50-yə yaxın dövlət və hökumət başçısının qatıldığı mötəbər siyasi platformada Azərbaycan Prezidentinin iştirakı rəsmi Bakının qitənin gələcək inkişafı və təhlükəsizliyi ilə bağlı müzakirələrdə nüfuzlu bərabərhüquqlu tərəfdaş kimi mövqeyini bir daha təsdiqlədi. Sammitin iqtisadiyyat, innovasiya, nəqliyyat bağlantıları, enerji, müdafiə və təhlükəsizlik kimi əsas gündəm mövzuları mahiyyət etibarilə Azərbaycanın uzun illərdir ardıcıl şəkildə həyata keçirdiyi inkişaf strategiyası və regional layihələrlə üst-üstə düşür.

Qitənin üzləşdiyi müasir çağırışların həlli yollarının axtarıldığı bir vaxtda Azərbaycanın bu proseslərə verdiyi real töhfələr dövlətimizin başçısının sammit çərçivəsindəki çıxışlarında xüsusi diqqət mərkəzində dayandı. Zirvə toplantısının açılış mərasimində və "Rəqabətqabiliyyətli Avropanın yaradılması - innovasiya, bağlantılar və əlçatan enerji" mövzusunda keçirilən "dəyirmi masa"da iştirak edən Prezident İlham Əliyev Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında ölkəmizin oynadığı həlledici rolu konkret faktlarla diqqətə çatdırdı. Dövlətimizin başçısı Azərbaycan ilə Avropa İttifaqı arasında 2022-ci ildə imzalanmış Strateji tərəfdaşlığa dair Anlaşma Memorandumundan ötən müddət ərzində Aİ bazarına qaz təchizatının 8 milyard kubmetrdən 13 milyard kubmetrə yüksəldildiyini, bunun ümumi qaz ixracımızın təxminən yarısını təşkil etdiyini bildirdi. Yeddi ölkənin ərazisindən keçən və Bolqarıstandakı interkonnektorlar vasitəsilə Aİ-nin on üzv dövlətini mavi yanacaqla təmin edən Bakı-İtaliya boru kəmərinin tam gücü ilə işlədiyini qeyd edən Azərbaycan lideri yeni yataqların istismara cəlb edilməsi, eləcə də Yunanıstan və İtaliya istiqamətində ötürücülük imkanlarının genişləndirilməsi sayəsində təchizat həcmlərinin daha da artırılacağını vurğuladı.

Bununla yanaşı, ölkəmizin Avropa üçün strateji əhəmiyyəti təkcə ənənəvi karbohidrogen resurslarının ixracı ilə məhdudlaşmır, həm də "yaşıl enerji" və tranzit-logistika imkanlarının genişləndirilməsi müstəvisində özünü göstərir. Azərbaycan bu gün Xəzərin zəngin külək və günəş enerjisi potensialını Qara dənizin dibi ilə çəkiləcək sualtı elektrik kabeli və digər "yaşıl enerji" dəhlizləri vasitəsilə Avropa bazarlarına inteqrasiya etmək istiqamətində mühüm addımlar atır. Rumıniya, Bolqarıstan, Yunanıstan və Xorvatiya kimi Qara dəniz, Balkan və Adriatik regionu ölkələri ilə dərinləşən enerji və nəqliyyat əməkdaşlığı bu çoxşaxəli inteqrasiyanın bariz nümunəsidir.

Eyni zamanda Avropa ilə Asiya arasında ən qısa, təhlükəsiz və səmərəli quru marşrutu olan Orta dəhlizin inkişafı, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının və dəmir yolu infrastrukturunun müasirləşdirilməsi Azərbaycanı qitənin təchizat zəncirlərinin dayanıqlılığını təmin edən əvəzolunmaz logistika mərkəzinə çevirib. Xüsusən, bunu da nəzərə alaq ki, son illərdə ənənəvi marşrutlardakı risklər Avropa ilə Asiya arasında alternativ və etibarlı yolların rolunu maksimum səviyyəyə qaldırıb. Bu baxımdan, Orta dəhliz sadəcə qısa məsafə yox, həm də qlobal iqtisadiyyat üçün təhlükəsizlik və etibarlılıq zəmanətinə çevrilir.

İqtisadi layihələrlə yanaşı, Dublin sammiti Azərbaycanın diplomatik çevikliyini və dövlətimizin başçısına göstərilən yüksək beynəlxalq etimadı əyani şəkildə nümayiş etdirdi. Zirvə toplantısı çərçivəsində bir gün ərzində doqquz dövlət və hökumət başçısı, o cümlədən Avropa İttifaqı Şurasının Prezidenti ilə ümumilikdə on ikitərəfli görüşün məhz qarşı tərəflərin müraciəti əsasında baş tutması ölkəmizin beynəlxalq nüfuzuna verilən yüksək qiymətin göstəricisidir. Böyük Britaniya, Yunanıstan, Rumıniya, Çexiya, Litva və Ukrayna liderləri ilə aparılan müzakirələr ikitərəfli əlaqələrin yeni inkişaf mərhələsinə qədəm qoyduğunu təsdiqlədi. Böyük Britaniya ilə münasibətlərin rəsmən strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsi isə Azərbaycanın Avropanın aparıcı güc mərkəzləri ilə qurduğu bərabərhüquqlu tərəfdaşlığın növbəti tarixi uğuru kimi dəyərləndirilməlidir.

Siyasi dialoqun intensivləşməsi fonunda regionda davamlı sülhün və təhlükəsizliyin təmin olunması məsələləri də Avropa liderləri ilə aparılan təmasların mühüm istiqamətlərindən birini təşkil etdi. Suverenliyini və ərazi bütövlüyünü tam bərpa edərək Cənubi Qafqazda yeni reallıq yaradan Azərbaycan bu gün regionda qarşıdurma deyil, əməkdaşlıq mühitinin formalaşmasının, kommunikasiyaların açılmasının və Ermənistanla sülh gündəliyinin irəli aparılmasının əsas təşəbbüskarı kimi çıxış edir. Dublindəki görüşlərdə sülh gündəliyi çərçivəsində praktiki layihələrin müzakirə edilməsi rəsmi Bakının konstruktiv mövqeyinin və regional sabitliyə verdiyi töhfələrin Avropa paytaxtlarında yüksək qiymətləndirildiyini göstərir. Təsadüfi deyil ki, 2028-ci ilin may ayında Avropa Siyasi Birliyinin növbəti Zirvə toplantısının məhz Azərbaycanda keçirilməsinin nəzərdə tutulması da ölkəmizin beynəlxalq sülhə, təhlükəsizliyə və qitələrarası dialoqa verdiyi töhfələrin məntiqi nəticəsidir.

Bütün bu reallıqlar fonunda bir daha aydın görünür ki, Azərbaycanın Avropa siyasəti yeni və daha dərinməzmunlu bir mərhələyə daxil olub. Prezident İlham Əliyevin prinsipiallığı, praqmatik xarici siyasəti Azərbaycanı qlobal gündəliyi formalaşdıran etibarlı tərəfdaşa çevirib. Ölkəmizin beynəlxalq nüfuzu, dəyişməz mövqeyi, qarşılıqlı hörmətə və ortaq maraqlara söykənən siyasət kursu qarşıdakı illərdə də Azərbaycan ilə Avropa dövlətləri arasında strateji əməkdaşlığın daha da möhkəmlənməsinə mühüm töhfələr verəcək.

İsmayıl QOCAYEV,
"Azərbaycan"

COP31: İqlim böhranına qarşı qlobal həmrəylik

Qlobal temperaturun yüksəlməsi, ekstremal hava hadisələrinin intensivləşməsi, buzlaqların əriməsi, su ehtiyatlarının azalması və biomüxtəlifliyin zəifləməsi bəşəriyyətin gələcəyini təhdid edir. Artıq iqlim böhranı yalnız ekoloji məsələ deyil, həm də iqtisadi inkişaf, ərzaq təhlükəsizliyi, insan sağlamlığı və sosial rifahla birbaşa bağlı olan qlobal çağırışdır. Belə bir şəraitdə beynəlxalq əməkdaşlığın gücləndirilməsi, dövlətlərin üzərinə götürdükləri öhdəliklərin yerinə yetirilməsi və konkret nəticələrə istiqamətlənmiş qərarların qəbul olunması xüsusi əhəmiyyət daşıyır.



Bu baxımdan noyabrın 9-da Türkiyənin Antalya şəhərində işə başlayan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 31-ci sessiyası - COP31 dünya ictimaiyyətinin diqqət mərkəzindədir. Noyabrın 20-dək davam edəcək konfransda dövlət və hökumət nümayəndələri, beynəlxalq təşkilatlar, alimlər, ekoloqlar, biznes strukturları və vətəndaş cəmiyyəti təmsilçiləri iştirak edirlər. COP31-in əsas məqsədi iqlim dəyişmələrinə qarşı mübarizədə mövcud razılaşmaların icrasını sürətləndirmək, istixana qazı emissiyalarının azaldılması istiqamətində səyləri gücləndirmək və iqlim böhranının təsirlərinə uyğunlaşma imkanlarını genişləndirməkdir. Konfransın gündəliyində mühüm məsələlərdən biri Paris İqlim Sazişinin hədəflərinə nail olunmasıdır. 2015-ci ildə qəbul edilmiş bu sənəd qlobal temperatur artımını sənayeləşmədən əvvəlki dövrlə müqayisədə 2 dərəcədən xeyli aşağı saxlamağı, eyni zamanda artımı 1,5 dərəcə ilə məhdudlaşdırmaq üçün səyləri davam etdirməyi nəzərdə tutur. Lakin mövcud qlobal tendensiyalar göstərir ki, qarşıya qoyulan məqsədlərə çatmaq üçün daha sürətli və əhatəli tədbirlərə ehtiyac var. İqlim siyasətinin yalnız uzunmüddətli vədlər üzərində qurulması kifayət etmir. Bu vədlərin real investisiyalara, texnoloji yeniliklərə və iqtisadiyyatın müxtəlif sahələrində əməli dəyişikliklərə çevrilməsi vacibdir.

COP31-in mühüm müzakirə istiqamətlərindən biri də iqlim maliyyələşdirilməsidir. İnkişaf etməkdə olan ölkələr iqlim dəyişmələrinin mənfi təsirlərinə daha həssas olduqları halda, onların uyğunlaşma tədbirlərini həyata keçirmək üçün maliyyə və texnoloji imkanları çox vaxt məhduddur. Quraqlıq, daşqın, torpaq deqradasiyası və digər təbii hadisələr bu ölkələrdə iqtisadi itkiləri artırır, əhalinin yaşayış şəraitini çətinləşdirir. Buna görə də beynəlxalq maliyyə mexanizmlərinin səmərəliliyinin yüksəldilməsi, iqlim layihələrinə sərmayələrin artırılması və maliyyə resurslarına çıxışın asanlaşdırılması mühüm əhəmiyyət kəsb edir.

İqlim dəyişmələrinə qarşı mübarizədə enerji sektorunun transformasiyası da əsas prioritetlərdəndir. Bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsi, enerji səmərəliliyinin artırılması və müasir texnologiyaların tətbiqi atmosferə buraxılan istixana qazlarının azaldılmasında mühüm rol oynayır. Günəş və külək enerjisinə yatırılan investisiyalar təkcə ekoloji baxımdan deyil, həm də iqtisadi inkişaf, yeni iş yerlərinin açılması və enerji təhlükəsizliyinin möhkəmləndirilməsi baxımından əhəmiyyətlidir. Bununla yanaşı, enerji keçidinin sosial baxımdan ədalətli həyata keçirilməsi, xüsusilə həssas əhali qruplarının maraqlarının qorunması zəruridir.

COP31 Azərbaycan üçün də xüsusi əhəmiyyət daşıyır. Ölkəmiz 2024-cü ildə Bakıda COP29-a evsahibliyi etməklə beynəlxalq iqlim diplomatiyasında mühüm rol oynayıb. Bakı konfransı iqlim maliyyələşdirilməsi məsələlərinin qlobal gündəlikdə ön plana çıxması ilə yadda qalıb. Azərbaycanın həmin prosesdə qazandığı təşkilati və diplomatik təcrübə beynəlxalq ekoloji əməkdaşlığın davam etdirilməsi baxımından əhəmiyyətli əsas yaradır. COP31-də ölkəmizin iştirakı da iqlim gündəliyinə verdiyi önəmin, ekoloji təhlükəsizlik və dayanıqlı inkişaf istiqamətində beynəlxalq əməkdaşlığa marağının göstəricisidir. Antalyada keçirilən konfrans çərçivəsində Azərbaycanın ekoloji təşəbbüslərinin beynəlxalq ictimaiyyətə təqdim olunması da diqqət çəkir. Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın COP31-də iştirakı bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Leyla Əliyeva konfrans çərçivəsində şəhərlərdə havanın keyfiyyətinin yaxşılaşdırılması, Xəzər dənizinin ekoloji problemləri və qadınların iqlim fəaliyyətində rolunun gücləndirilməsi ilə bağlı müzakirələrə qatılıb. Həmçinin Heydər Əliyev Fondu ilə Türkiyənin Sıfır Tullantı Fondunun birgə pavilyonunu ziyarət edərək təqdim olunan ekoloji layihələrlə tanış olub.

Noyabrın 13-də IDEA İctimai Birliyi və Beynəlxalq Təbiəti Mühafizə İttifaqının birgə təşkilatçılığı ilə keçirilən tədbirdə Xəzər dənizinin səviyyəsinin azalması və bunun ekosistemə təsirləri müzakirə olunub. Leyla Əliyeva çıxışında su səviyyəsinin aşağı düşməsinin Xəzər suitisi və nərəkimilər də daxil olmaqla, nadir canlı növləri üçün ciddi təhlükə yaratdığını diqqətə çatdırıb. O, bu sahədə elmi tədqiqatların genişləndirilməsinin, beynəlxalq əməkdaşlığın və birgə fəaliyyətin vacibliyini vurğulayıb. IDEA-nın həyata keçirdiyi layihələrdən danışılarkən 2011-ci ildən bəri sahilyanı təmizlik aksiyalarına 7 minə yaxın könüllünün qoşulduğu, 120 tondan artıq tullantının toplandığı bildirilib. Bu təşəbbüslər ekoloji problemlərin həllində ictimai iştirakın nə qədər mühüm olduğunu göstərir. COP31 çərçivəsində qadınların iqlim fəaliyyətində iştirakının genişləndirilməsinə də xüsusi diqqət ayrılır. Azərbaycan pavilyonunda keçirilən müzakirələrdə Leyla Əliyeva qadınların cəmiyyətdəki rolunun gücləndirilməsinin və onların potensialından daha səmərəli istifadə olunmasının əhəmiyyətini vurğulayıb. IDEA-nın xüsusilə regionlarda həyata keçirdiyi layihələrin qadınlar üçün yeni imkanlar yaratdığı qeyd olunub.

İqlim dəyişmələri ilə mübarizədə Azərbaycanın qarşısında duran mühüm vəzifələrdən biri də təbii sərvətlərin qorunması, su ehtiyatlarından səmərəli istifadə və ekoloji tarazlığın təmin edilməsidir. Xəzər dənizinin səviyyəsində müşahidə olunan azalma, səhralaşma riskləri və su resurslarına artan təzyiq regional əməkdaşlığın əhəmiyyətini daha da artırır. Eyni zamanda Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa-quruculuq prosesində "yaşıl enerji" və ekoloji dayanıqlılıq prinsiplərinin tətbiqi ölkəmizin uzunmüddətli inkişaf strategiyasının mühüm istiqamətlərindəndir. Bütün bunlar göstərir ki, iqlim böhranına qarşı mübarizənin uğuru yalnız beynəlxalq konfranslarda qəbul edilən qərarlardan deyil, həmin qərarların real həyatda necə həyata keçirilməsindən asılıdır. Unutmamalıyıq ki, təbiətin qorunması yalnız bugünkü nəslin rifahına deyil, gələcək nəsillərin sağlam və təhlükəsiz mühitdə yaşamaq hüququna da xidmət edir.

Ülkər XASPOLADOVA,
"Azərbaycan"

BTC-nin uzun yolunun başlanğıcı

27 il əvvəl İstanbulda kəmərin marşrutunu müəyyənləşdirən mühüm sənəd imzalanmışdır

O zaman "Çıraq" artıq iki il idi neft verirdi. Qarşıda "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokunda quraşdırılacaq növbəti platformalardan hasilatın başlanacağı gözlənilirdi. Odur ki, mövcüd Bakı-Supsa və Bakı-Novorossiysk kəmərlərinin artacaq həcmlərin ixracı üçün gücünün kifayət etməyəcəyi dəqiq idi. Belə olan halda ötürmə qabiliyyəti daha böyük olan bir ixrac xəttinin çəkilməsi zərurəti yaranmışdı.

Yeni kəmərin yaranmasının ideya müəllifi Ümummilli Lider Heydər Əliyev oldu. 1999-cu il noyabrın 18-də İstanbulda, ATƏT-in Zirvə toplantısında Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəmərinin çəkilişi ilə bağlı sazişə imza atıldı. Bu, xam neftin BTC vasitəsilə Azərbaycan, Gürcüstan və Türkiyənin ərazilərilə nəql edilməsinə dair saziş idi. Kəmərin tikintisi üçün həlledici rol oynayan həmin mühüm sənədi Azərbaycanın, Gürcüstanın, Türkiyənin, Qazaxıstanın və ABŞ-nin ovaxtkı prezidentləri imzaladılar. Bu, Ulu Öndər Heydər Əliyevin siyasi uzaqgörənliyi və dünyadakı nüfuzu sayəsində mümkün oldu.



Sözügedən hadisədən bir il əvvəl - 1998-ci il oktyabrın 19-da Ankarada kəmərin inşa edilməsi haqqında Bəyannamə imzalanmışdı. İstanbulda imzalanan, BTC qarşısında "yaşıl işıq" yandıran növbəti, həlledici sazişin imzalanması isə "Əsrin müqaviləsi"ndən sonra Azərbaycan üçün tarixi əhəmiyyət kəsb edən daha bir böyük hadisə idi.

Sənədin imzalandığı 1999-cu ildə Azərbaycan neftini Bakı-Supsa marşrutu ilə daşıyan Qərb İxrac Boru Kəməri (QİBK) istifadəyə verilmişdi. Bu, texniki cəhətdən çox mürəkkəb layihə idi və böyük maliyyə vəsaiti hesabına reallaşmışdı. Tikintinin müvəffəqiyyətlə başa çatdırılması bir daha göstərmişdi ki, Azərbaycan böyük işlər görməyə, həm də onları qısa müddətdə həyata keçirməyə qadirdir.

Lakin BTC-nin həm ölkəmizdə, həm də xaricdə bədxahları var idi. Onlar hər vasitə ilə bu layihənin gerçəkləşməsinə mane olmaq istəyirdilər. Əsassız bəhanələr gətirirdilər. Gah deyirdilər ki, Azərbaycanın bu xətti doldurmaq üçün yetərincə nefti yoxdur. Gah kəmərin seysmik zonalardan keçəcəyini söyləyir, gah da ətraf mühitə ziyan vuracağı barədə əsassız iddialar qaldırırdılar.

Bununla belə, Ulu Öndər Heydər Əliyevin dühası ilə düşünülən və siyasi nüfuzu ilə özünə yol açan bu möhtəşəm layihə qalib gəldi. 2002-ci il sentyabrın 18-də Səngəçal terminalında Ulu Öndərin iştirakı ilə kəmərin təməli qoyuldu. 2005-ci il mayın 25-də isə Prezident İlham Əliyevin iştirakı ilə xəttə ilk neft vuruldu. BTC tam sistem kimi 2006-cı il iyulun 13-də istifadəyə verildi.

Uzunluğu 1768 kilometr olan, Xəzər regionundan Aralıq dənizinə təhlükəsiz və məsuliyyətli şəkildə xam neft ixrac etmək üçün çəkilən kəmərə aid qısa arayışa nəzər salaq. Beləliklə, BTC Azərbaycanda 443, Gürcüstanda 249, Türkiyədə 1076 kilometr məsafə qət edir. Ölkəmizdə 13 rayondan - Qaradağ, Abşeron, Hacıqabul, Ağsu, Kürdəmir, Ucar, Ağdaş, Yevlax, Goranboy, Samux, Şəmkir, Tovuz və Ağstafadan keçir. Gürcüstanda 7 bölgənin - Qardabani, Marneuli, Tetritskaro, Tsalka, Borjomi, Axaltsixe və Agideni rayonlarının ərazisi boyu uzanır. Xəttin Türkiyədə keçdiyi 9 rayon isə Ərdahan, Qars, Ərzurum, Ərzincan, Sivas, Kayseri, Kahraman Maraş, Osmaniyə və Adanadır.

BTC əvvəlcə gündə bir milyon barel neft ötürmək gücündə layihələndirilmişdi. 2009-cu ilin yazından isə onun gündəlik ötürücülük qabiliyyəti 1,2 milyon barelə çatdırıldı.

Bakı-Tbilisi-Ceyhan kəməri üçüncü minilliyin nəhəng mühəndis qurğusudur. O, təkcə yerin altı ilə uzanan borulardan ibarət deyil. Uzun illərdir qüsursuz fəaliyyət göstərən çoxsaylı yerüstü obyektlərə də malikdir. Belə ki, kəmərin 8 nasos stansiyası və 98 siyirtmə məntəqəsi var. Baş nasos stansiyası Səngəçalda yerləşir. İkinci stansiya da ölkəmizin ərazisində, Yevlax rayonunun Aran qəsəbəsindədir. Daha iki stansiya Gürcüstanda fəaliyyət göstərir. Qalan dörd stansiya Türkiyənin payına düşür.

Ulu Öndər Heydər Əliyevin adını şərəflə daşıyan Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə bu ilin ilk altı ayı ərzində Səngəçal terminalından ixrac olunmuş təqribən 13 milyon ton (təxminən 97 milyon barel) xam neft və kondensat Ceyhan terminalında 131 tankerə yüklənib və dünya bazarlarına yola salınıb.

Hazırda BTC əsasən Azərbaycandan AÇG nefti və "Şahdəniz" kondensatı daşıyır. Bundan əlavə, kəmər vasitəsilə Xəzərin digər regional xam neft və kondensat həcmləri (Qazaxıstan, Türkmənistan, SOCAR-ın Azərbaycanda hasil edilmiş digər həcmləri) də nəql olunur.

Deyilənlərə onu da əlavə edək ki, BTC-nin operatorluğu rəsmi olaraq 2026-cı il iyulun 1-dən etibarən BP-dən SOCAR-a məxsus şirkətə keçib. Yeni operator "SOCAR Midstream Operations" MMC-dir.

Flora SADIQLI,
"Azərbaycan"

Azərbaycan və Latviya: ortaq maraqlar və tərəfdaşlıq körpüsü

Baltik dənizinin şərq sahilində, Şimali və Şərqi Avropanın kəsişməsində yerləşən Latviya əlverişli coğrafi mövqeyi sayəsində Avrasiya məkanında mühüm nəqliyyat-tranzit qovşağı rolunu oynayır. Donmayan dərin sulu limanları (Riqa, Ventspils, Liepaya), inkişaf etmiş dəmir yolu şəbəkəsi və Riqadakı iri aviasiya qovşağı ölkəyə Skandinaviya, Mərkəzi Avropa və Şərq bazarları arasında effektiv multimodal logistika körpüsü yaratmaq imkanı verir. Bu gün Latviya Avropa İttifaqı və Avrozonanın üzvü kimi Şimali Avropa və Baltikyanı regionun əsas logistika, tranzit və ixrac-yönümlü sənaye qovşaqlarından biri kimi çıxış edir.

Avropa İttifaqının, NATO-nun və Avrozonanın tamhüquqlu üzvü kimi Latviya ittifaqın şərq cinahında təhlükəsizlik siyasətinin formalaşmasında, rəqəmsal transformasiyada və Aİ-nin Şərq Tərəfdaşlığı proqramı çərçivəsində qonşu regionlarla əlaqələrin dərinləşdirilməsində fəal mövqe tutur. Bu strateji baxış fonunda Latviya Cənubi Qafqazdakı əsas tərəfdaşı olan Azərbaycana xüsusi maraq göstərir. Qlobal təchizat zəncirlərinin dəyişdiyi bir dövrdə Orta dəhliz ilə Baltik limanlarının inteqrasiyası, Azərbaycan məhsullarının Şimali Avropa bazarlarına çıxışı üçün Latviyanın logistik mərkəz kimi istifadəsi, eləcə də İKT, "yaşıl enerji", kənd təsərrüfatı və əczaçılıq sahələrində birgə layihələrin reallaşdırılması rəsmi Riqanın Bakı ilə əməkdaşlıqda əsas prioritetlərini təşkil edir.

Baltik dənizinin şərq sahilində yerləşən üç buz bağlamayan limanı Aİ-nin şərq hüdudlarındakı dəniz yükdaşımalarının təxminən üçdəbirini təmin edir. Riqa Beynəlxalq Hava Limanı isə Baltikyanı ölkələrin ən böyük aviasiya mərkəzidir. Həmçinin inşa edilən Rail Baltica dəmir yolu xətti Baltikyanı regionunu Mərkəzi və Qərbi Avropa dəmir yolu şəbəkəsinə birləşdirən strateji layihədir.

Ərazisinin yarıdan çoxu meşələrlə örtülü olan Latviya Avropa bazarlarına taxta-şalban, faner, mebel və taxta yanacaq materiallarının əsas ixracatçılarından biridir. Eyni zamanda kənd təsərrüfatı məhsulları (xüsusilə taxıl və emal olunmuş qida) üzrə də mühüm regional ixracatçıdır.

Latviya ümumi enerji istehlakında bərpaolunan enerji mənbələrinin payına görə (50 faizdən yuxarı) Avropa İttifaqında aparıcı mövqelərdən birini tutur və Baltik-Skandinaviya enerji bazarlarının inteqrasiyasında iştirak edir. Şimali Avropa və Aİ bazarları üçün maliyyə texnologiyaları, telekommunikasiya avadanlıqları, proqram təminatı və əczaçılıq məhsulları istehsalı və ixracı ölkə iqtisadiyyatının yüksək əlavə dəyərli sektorlarını formalaşdırır.

Latviyanın xarici ticarəti əsasən Avropa İttifaqının vahid bazarına, xüsusilə də qonşu Baltikyanı və Skandinaviya ölkələrinə yönəlib. İxrac üzrə əsas tərəfdaş ölkələr Litva, Estoniya, Almaniya, İsveç, Böyük Britaniya və Polşadır. İdxal üzrə başlıca tərəfdaşları isə - Litva, Almaniya, Polşa, Estoniya, Finlandiya və Niderlanddır. Aİ-dən kənar tərəfdaşlar arasında isə Böyük Britaniya, ABŞ və Çin əsas yerləri tutur.

Azərbaycan Respublikası ilə Latviya Respublikası arasında diplomatik əlaqələr 11 yanvar 1994-cü ildə yaradılmışdır. Azərbaycanın Latviyadakı səfirliyi 2005-ci ildə (Baltikyanı ölkələrdə açılan ilk səfirlik olaraq), Latviyanın Azərbaycandakı səfirliyi isə 2006-cı ildə fəaliyyətə başlamışdır. Müqavilə-hüquq bazasına gəldikdə isə, iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığa dair 45 sənəd imzalanmışdır (2026-cı ilin aprelində imzalanan son sənədlərlə birlikdə müqavilə bazası daha da genişləndirilmişdir).

Son illər Latviya-Azərbaycan münasibətləri yüksəksəviyyəli siyasi dialoq, ticarət dövriyyəsinin davamlı artımı və strateji tərəfdaşlığın dərinləşməsi ilə xarakterizə olunur. Bu dövrdə iki ölkə arasında əlaqələr hələ 2017-ci ildə imzalanmış Strateji Tərəfdaşlıq haqqında Bəyannamənin prinsipləri əsasında yeni inkişaf mərhələsinə qədəm qoymuşdur.

2025-ci ildə nazirlər və diplomatlar səviyyəsində davam edən təmaslar 2026-cı ildə dövlət başçıları səviyyəsində rəsmi görüşlərlə zirvəyə çatmışdır. Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçs 21-22 aprel 2026-cı il tarixlərində Azərbaycana rəsmi səfər etmişdir. Səfər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə təkbətək və geniş tərkibdə görüşlər keçirilmiş, yekunda iki ölkə başçısının Birgə Bəyanatı qəbul olunmuşdur. Avropa ilə Asiya arasında yükdaşımaların artırılması məqsədilə Orta dəhlizin (Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) potensialından birgə istifadə və Baltikyanı limanlarla inteqrasiya əsas müzakirə mövzusu olmuşdur.

Bərpaolunan enerji mənbələri, enerji təhlükəsizliyi, eləcə də işğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" və meşə təsərrüfatı sahələrində Latviya təcrübəsinin tətbiqi nəzərdən keçirilmişdir. Prezident Edqars Rinkeviçsin səfər zamanı Bakı Ağ Şəhər layihəsi ilə tanışlığı şəhərsalma və ekoloji bərpa sahəsində əməkdaşlıq marağını gücləndirmişdir.

İki ölkənin parlamentləri arasında dialoqun institusional əsasını hər iki qanunverici orqanda fəaliyyət göstərən dostluq qrupları təşkil edir. Azərbaycan Milli Məclisində Azərbaycan-Latviya parlamentlərarası əlaqələr üzrə işçi qrupu fəaliyyət göstərir. 2025-ci ilin iyun və 2026-cı ilin mart aylarında Azərbaycan deputatlarının Riqaya işgüzar səfərləri olmuşdur. 2026-cı ilin may ayında Latviya nümayəndə heyətinin Bakıya səfəri və Milli Məclisdə keçirilən görüşlər zamanı əsas müzakirə mövzusu Bakıda keçirilən WUF13 (Ümumdünya Şəhərsalma Forumu) çərçivəsində parlamentlərarası və bələdiyyələrarası əməkdaşlıq məsələsi olmuşdur.



Latviya Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini daim dəstəkləmiş, Avropa İttifaqı-Azərbaycan münasibətlərinin inkişafında fəal tərəfdaş kimi çıxış etmişdir. Latviya Seyminin dostluq qrupu Azərbaycana qarşı törədilmiş faciələrin (o cümlədən 20 Yanvar və Xocalı soyqırımı) Riqada anılmasında və beynəlxalq səviyyədə obyektiv informasiyanın yayılmasında fəal iştirak etmişdir.

2025-ci il iki ölkə arasında ticarət dövriyyəsinin həcmi 27,8 milyon dollar təşkil etmiş və əvvəlki illə müqayisədə sabit artım qeydə alınmışdır. Bu göstərici 2026-cı ilin yanvar-iyul ayları ərzində 16,1 milyon dollardan çox olmuşdur. Azərbaycanda ticarət, logistika, xidmət və tikinti sahələrində onlarla Latviya kapitallı şirkət qeydiyyatdan keçmiş və hazırda ölkəmizdə fəaliyyət göstərir.

Latviya Azərbaycana əsasən heyvan mənşəli və süd, qida və ərzaq məhsulları, kimya sənayesi, əczaçılıq məhsulları ixrac edir.

Azərbaycan isə Latviyaya əsasən kənd təsərrüfatı, qida və qeyri-neft sənayesi məhsulları ixrac edir. Digər qeyri-neft məhsulları, müəyyən sənaye və tekstil məhsulları, kağız məmulatları da ixrac siyahısındadır.

2026-cı il aprelin 22-də Bakıda hər iki ölkə prezidentinin iştirakı ilə biznes-forum təşkil olunmuşdur. Tədbirdə sənaye parklarına investisiya qoyuluşu və birgə müəssisələrin yaradılması imkanları təqdim edilmiş, iki ölkənin işgüzar dairələri arasında əlaqələrin şaxələndirilməsi müzakirə olunmuşdur. Biznes-forum çərçivəsində AZPROMO ilə Latviya Ticarət və Sənaye Palatası arasında, eləcə də "Caspian Energy Club International" MMC ilə Latviyanın enerji və texnologiya sektorunu təmsil edən şirkətlər arasında əməkdaşlıq sənədləri imzalanmışdır.

Həmçinin Hökumətlərarası komissiyanın fəaliyyəti çərçivəsində iki ölkə nümayəndələri arasında görüş keçirilmişdir. 2025-ci ildə Latviya Azərbaycan iqtisadiyyatına 6 milyon 945 min dollar həcmində birbaşa investisiya yönəltmişdir.

Baltik dənizi limanları ilə Xəzər hövzəsi və Orta dəhliz (Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) arasında yükdaşımaların inteqrasiyası və Cənubi Qafqazla Baltik regionunun nəqliyyat əlaqələrinin gücləndirilməsi, bərpaolunan enerji layihələrində təcrübə mübadiləsi, elektron hökumət həlləri, İKT və kibertəhlükəsizlik sahələrində birgə təşəbbüslər məsələsi ön plana çıxarılmışdır.

Təhsil və elm sahəsində əlaqələr mühüm sahələrdən birini təşkil edir. Belə ki, 2026-2027-ci tədris ili üçün Hökumətlərarası Təqaüd Proqramı davam etdirilmiş, azərbaycanlı tələbələrə bakalavriat, magistratura və doktorantura pillələri üzrə Latviya universitetlərində təhsil almaq imkanı yaradılmışdır. 2026-cı ilin rəsmi məlumatlarına əsasən, Latviyanın ali təhsil müəssisələrində 450-dən çox Azərbaycanlı tələbə təhsil alır. Həmçinin Latviya Dövlət Təqaüdü çərçivəsində hər tədris ilində əlavə olaraq 10 Azərbaycanlı tələbə tam və ya qismən dövlət təqaüdü hesabına Latviyada təhsil almaq hüququ qazanır. Azərbaycanlı tələbələrin üstünlük verdiyi ali məktəblər sırasına Riqa Texniki Universiteti, Latviya Universiteti, Riqa Stradiņş Universiteti və Turiba Universiteti daxildir.

Qarşılıqlı ədəbi əlaqələr də inkişaf edir. Azərbaycanın klassik və müasir poeziyasının görkəmli nümayəndələrinin əsərləri müxtəlif illərdə Riqada nəşr edilən Şərq və dünya ədəbiyyatı antologiyalarında, eləcə də elmi-ədəbi toplularda latış dilində işıq üzü görmüşdür. Eyni zamanda latviyalı yazıçı və şairlərin də əsərləri Bakıda nəşr edilmişdir.


İkitərəfli münasibətlərin ümumi strateji xəttinə uyğun olaraq turizm sahəsi humanitar və iqtisadi əməkdaşlığın əsas istiqamətlərindən biri kimi qiymətləndirilir. 2026-cı ilin may ayında Riqa şəhərində keçirilən "TTR Baltic 2026" tədbiri çərçivəsində Azərbaycanın turizm potensialı, sağlamlıq və mədəni turizm marşrutları yerli turizm sənayesi nümayəndələrinə təqdim olunmuşdur. Latviya vətəndaşları Azərbaycana səfər etmək üçün "ASAN viza" elektron sistemi vasitəsilə cəmi 3 iş günü (və ya təcili qaydada 3 saat) ərzində sadələşdirilmiş elektron viza ala bilirlər.

Azərbaycan Cənubi Qafqaz regionunda mühüm siyasi və iqtisadi aktor kimi çıxış edərkən, Latviya Avropa İttifaqının üzvü olaraq Şərqi Avropa məkanında strateji mövqeyə malikdir.

Hazırda Latviya və Azərbaycan arasındakı münasibətlər qarşılıqlı hörmət, etimad və strateji tərəfdaşlıq prinsiplərinə əsaslanaraq dinamik şəkildə inkişaf edir. Siyasi sahədə beynəlxalq təşkilatlar çərçivəsində nümayiş etdirilən qarşılıqlı dəstək və yüksəksəviyyəli dialoq, iqtisadi müstəvidə ticarət dövriyyəsinin artırılması, nəqliyyat-logistika və "yaşıl enerji" sahələrində birgə layihələrlə daha da möhkəmlənir. Eyni zamanda təhsil, turizm və mədəniyyət mübadilələrinin genişlənməsi iki xalq arasındakı tarixi dostluq bağlarını dərinləşdirərək, gələcək əməkdaşlıq üçün möhkəm zəmin yaradır.

Atamoğlan MƏMMƏDLİ,
BDU-nun dosenti

Almaniyanın xarici işlər naziri Bakıda Şəhidlər xiyabanını ziyarət edib



Azərbaycanda səfərdə olan Almaniya Federativ Respublikasının xarici işlər naziri Yohan David Vadefulun başçılıq etdiyi nümayəndə heyəti noyabrın 17-də Şəhidlər xiyabanını ziyarət edib.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçərək şəhid olan qəhrəman Vətən övladlarının xatirəsinə ehtiram bildirilib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.

Azərbaycan Aİ-nin Brüsseldə keçirilən nazirlər toplantısında təmsil olunub



Noyabrın 16-da Avropa İttifaqının (Aİ) təşəbbüsü ilə Brüssel şəhərində regionlararası təhlükəsizlik və bağlantılar mövzusuna həsr olunmuş ikinci nazirlər toplantısı keçirilib.

Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, ölkəmizi toplantıda Azərbaycan xarici işlər nazirinin müavini Samir Şərifovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

İki sessiyadan ibarət nazirlər toplantısının birinci sessiyasında Qara dəniz hövzəsində təhlükəsizlik və sabitliyin möhkəmləndirilməsi, ikinci sessiyasında isə Regionlararası Bağlantılar Gündəliyinin həyata keçirilməsi məsələləri ətrafında müzakirələr aparılıb.

Hər iki sessiyada çıxış edən nazir müavini Samir Şərifov Azərbaycan ilə Avropa İttifaqı arasında son dövrlərdə müşahidə olunan müsbət dinamikanın əhəmiyyətini qeyd edib.

Avropa və Mərkəzi Asiya arasında enerji, nəqliyyat və rəqəmsal bağlantılar baxımından müstəsna rola malik Azərbaycanın təşəbbüsü ilə indiyədək həyata keçirilmiş infrastruktur layihələrinin Orta dəhlizin formalaşmasına əhəmiyyətli töhfə verdiyi vurğulanıb. Bu sahələrdə konkret layihələrin həyata keçirilməsi istiqamətində regional və beynəlxalq tərəfdaşlarla əməkdaşlığın davam etdirilməsinə Azərbaycanın qətiyyətli olduğu diqqətə çatdırılıb.

Bununla yanaşı, Azərbaycanın öncül rolu ilə davam etdirilən sülh və normallaşma prosesinin regionda sülh, sabitlik və əməkdaşlıq üçün geniş imkanlar yaratdığı bildirilib. Qeyd olunub ki, bu proses geniş Qara dəniz regionunda sülh və sabitliyin möhkəmlənməsinə töhfə verir, həmçinin regionlararası bağlantı layihələrinin həyata keçirilməsi üçün əlverişli zəmin yaradır.

Baş prokuror Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraiyyə Komitəsinin 62-ci iclasında iştirak edib



Noyabrın 14-15-də Argentina Respublikasının Buenos-Ayres şəhərində Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) İcraiyyə Komitəsinin 62-ci iclası keçirilib.

Dünyanın müxtəlif ölkələrinin prokurorluq orqanlarının rəhbər şəxslərinin və assosiasiyanın nümayəndələrinin iştirak etdiyi iclasda təşkilatın fəaliyyəti, rəhbər orqanlarının formalaşdırılması, dünya prokurorlarının beynəlxalq sferada əməkdaşlığının inkişaf istiqamətləri və qarşıdakı dövr üçün əsas prioritetlər müzakirə olunub.

Yığıncaqda digər məsələlərlə yanaşı, assosiasiyanın fəaliyyəti barədə hesabatla çıxış edən qurumun baş müşaviri Tarika Cayaratne 2026-cı ilin iyun ayında Azərbaycana səfəri çərçivəsində Milli Aviasiya Akademiyasında "Rəqəmsal sübutlar və kibercinayətlər üzrə cinayət təqibi" mövzusunda keçirilmiş təlimi yüksək qiymətləndirərək, bu təşəbbüsü beynəlxalq prokuror ictimaiyyəti üçün qabaqcıl təcrübə və gələcəkdə analoji tədbirlərin təşkili baxımından uğurlu nümunə kimi qeyd edib.

İcraiyyə Komitəsinin 62-ci iclasında həmçinin Assosiasiyanın beynəlxalq əlaqələrinin genişləndirilməsi, təşkilatın üzvləri arasında təcrübə mübadiləsi, prokurorların peşə hazırlığı, BPA-nın ixtisaslaşdırılmış şəbəkələrinin fəaliyyəti, təlim proqramlarının inkişafı və qarşıdakı illərdə keçiriləcək beynəlxalq tədbirlərlə bağlı məsələlər müzakirə olunub.

BPA-nın vitse-prezidenti qismində tədbirdə iştirak edən baş prokuror Kamran Əliyev assosiasiyanın fəaliyyətində Azərbaycanın fəal iştirak etdiyini, ölkəmizin assosiasiyanın inkişafına mühüm əhəmiyyət verdiyini diqqətə çatdırıb. Qeyd olunub ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən mütərəqqi islahatlar çərçivəsində prokurorluq orqanlarının fəaliyyətinin müasir dövrün tələblərinə uzlaşdırılması, beynəlxalq hüquqi əməkdaşlığın genişləndirilməsi və cinayətkarlığın ənənəvi və yeni təzahürlərinə qarşı mübarizənin gücləndirilməsi istiqamətində ardıcıl tədbirlər görülür.

Bu xüsusda 2024-cü ildə Bakıda BPA-nın 29-cu illik konfransının yüksək səviyyədə təşkil olunması, habelə Azərbaycanın assosiasiyanın rəhbər orqanlarında təmsilçiliyi ölkəmizin dünya prokurorlarının bu unikal və effektiv platforması ilə səmərəli əməkdaşlığının göstəricisi kimi qeyd edilib.

İclas zamanı ölkəmizin nümayəndə heyətinin rəhbəri tərəfindən ayrı-ayrı xarici həmkarlarla səmərəli görüşlər keçirilib.

Baş prokuror ölkəmizin Argentina Respublikasındakı səfirliyini ziyarət edərək əməkdaşlarla görüşüb, ölkələr arasında müxtəlif sahələrdə əlaqələrin və əməkdaşlığın gücləndirilməsi barədə fikir mübadiləsi aparıb.

Səfər çərçivəsində məlumat verildiyi kimi baş prokuror Kamran Əliyevin Argentina Respublikasının federal baş prokuroru Eduardo Kasal, Buenos-Ayres Muxtar Şəhərinin baş prokuroru Martin Lopes Savaleta və ölkənin ədliyyə naziri Xuan Bautista Mahikes ilə ikitərəfli görüşləri keçirilib.

Görüşlərdə Azərbaycan Respublikasının Argentina Respublikasında fövqəladə və səlahiyyətli səfiri Rəmzi Teymurov da iştirak edib.

"Azərbaycan"

Litva Hərbi Akademiyasının nümayəndə heyəti Azərbaycana səfər edib

Azərbaycan və Litva müdafiə nazirlikləri arasında 2026-cı il üçün imzalanmış ikitərəfli hərbi əməkdaşlıq planına uyğun olaraq, Litvanın General Yonas Jemaytis adına Hərbi Akademiyasının nümayəndə heyəti ölkəmizə səfər edib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, akademiyada təşkil olunan "Vytautas Magnus Quru Qoşunları Komandir-Qərargah kursu"nda Litva ilə yanaşı, Azərbaycan, Moldova və Ukrayna silahlı qüvvələrinin hərbi qulluqçuları təhsil alırlar. Səfərin əsas məqsədi kurs dinləyicilərini Vətən müharibəsində icra olunan əməliyyatlar barədə məlumatlandırmaq, onları bu əməliyyatların taktiki və strateji nəticələri, eləcə də müharibədən çıxarılan hərbi dərslərlə tanış etməkdir. Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Hərbi İdarəetmə İnstitutunda olan nümayəndə heyətinə burada mövcud təhsil imkanları, zabit heyətinin hazırlanması sistemi və tətbiq edilən təhsil konsepsiyası barədə ətraflı məlumat verilib.

Səfər çərçivəsində Azərbaycan Hərb Tarixi Muzeyini də ziyarət edən qonaqlar ölkəmizin hərb tarixi və Vətən uğrunda canından keçmiş şəhidlərimizin qəhrəmanlıq yolu ilə yaxından tanış olublar.

Qeyd edək ki, bu səfər ölkələrimiz arasında hərbi təhsil sahəsində təcrübə mübadiləsinin genişləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Müdafiə və milli təhlükəsizlik sistemi büdcə siyasətinin prioritet istiqamətlərindəndir



44 günlük Vətən müharibəsində əldə olunan tarixi Zəfər və 2023-cü ildə ölkəmizin bütün ərazisində suverenliyin bərpası Azərbaycanın hərbi və siyasi tarixində mühüm mərhələdir. Lakin hərbi uğurların qorunması və gələcək təhlükəsizlik çağırışlarına hazır olmaq davamlı iş tələb edir.

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu NAĞIYEV qəzetimizə açıqlamasında dedi ki, müasir və peşəkar ordu quruculuğunun davam etdirilməsi, ordunun ən müasir silah və texnologiyalarla təchiz edilməsi, pilotsuz sistemlər, elektron müharibə vasitələri, kəşfiyyat və rəqəmsal idarəetmə imkanlarının inkişaf etdirilməsi, yerli müdafiə sənayesinin gücləndirilməsi və xarici təchizatdan asılılığın mərhələli şəkildə azaldılması, dövlət sərhədlərinin etibarlı qorunması və milli təhlükəsizlik sisteminin təkmilləşdirilməsi, hərbi qulluqçuların, şəhid ailələrinin və müharibə iştirakçılarının sosial müdafiəsinin diqqət mərkəzində saxlanılması müdafiə siyasətinin əsas istiqamətlərindəndir.

Müasir dövrdə təhlükəsizlik anlayışının yalnız ənənəvi hərbi güclə ölçülmədiyini deyən deputat qeyd etdi ki, kibertəhlükəsizlik, informasiya təhlükəsizliyi, enerji infrastrukturlarının qorunması, iqtisadi təhlükəsizlik və strateji kommunikasiya xətlərinin mühafizəsi də milli təhlükəsizliyin ayrılmaz hissəsidir: "Bu gün Azərbaycanın qarşısında duran əsas vəzifələrdən biri əldə olunmuş suverenliyin, ərazi bütövlüyünün və regional mövqelərin etibarlı şəkildə qorunmasıdır. Müasir dünyada geosiyasi proseslərin sürətlə dəyişdiyi, regionumuzda təhlükəsizlik çağırışlarının davam etdiyi bir şəraitdə güclü dövlət olmaq, güclü orduya malik olmaq və təhlükəsizlik sistemini daim təkmilləşdirmək strateji zərurətdir. 2027-ci ilin dövlət büdcəsi layihəsi də bu reallıqları nəzərə alan maliyyə sənədidir".

A.Nağıyev vurğuladı ki, büdcədə ən mühüm istiqamətlərdən biri müdafiə və milli təhlükəsizlikdir. Gələn il bu sahəyə ümumilikdə 8 milyard 816 milyon 401 min manat vəsait ayrılması planlaşdırılır. 2026-cı ildə bu istiqamət üzrə təsdiq edilmiş xərclər təxminən 8 milyard 717 milyon manat təşkil edib. 2027-ci ildə isə müdafiə və milli təhlükəsizlik xərclərinin təxminən 98,8 milyon manat, yaxud 1,1 faiz artırılması nəzərdə tutulur. "İlk baxışdan 1,1 faizlik artım böyük rəqəm kimi görünməyə bilər, lakin burada əsas məsələ yalnız faiz göstəricisi deyil, ayrılan vəsaitin hansı istiqamətə yönəldilməsi, ondan nə dərəcədə səmərəli istifadə olunması və ölkənin müdafiə qabiliyyətinə hansı töhfəni verməsidir. Müdafiə büdcəsinə yanaşarkən kəmiyyətlə yanaşı, keyfiyyət göstəricilərinə də xüsusi diqqət yetirilməlidir", - deyə o əlavə etdi.

Komitə sədri bildirdi ki, növbəti ilin büdcə layihəsində müdafiə və milli təhlükəsizlik xərclərinin bölgüsü təqdirəlayiqdir. Müdafiə qüvvələri üzrə 3 milyard 369,6 milyon manat, milli təhlükəsizlik üzrə 479,2 milyon manat, sərhəd xidməti üzrə 554 milyon manata yaxın, müdafiə və milli təhlükəsizlik sahəsinə aid digər fəaliyyətlər üzrə 4 milyard 413,7 milyon manat vəsait ayrılması nəzərdə tutulur. Bundan əlavə, xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üçün 4 milyard manat ayrılması planlaşdırılır.

Deputat qeyd etdi ki, 2027-ci ilin dövlət büdcəsində məhkəmə hakimiyyəti, hüquq-mühafizə orqanlarının və prokurorluğun saxlanılması xərclərinə 3 438,6 milyon manat vəsait yönəldiləcək ki, bu da 2026-cı illə müqayisədə 102,3 milyon manat və ya 3,1 faiz, 2025-ci ilin icrası ilə müqayisədə isə 518,3 milyon manat və ya 17,7 faiz çoxdur: "Müdafiə və hüquq-mühafizə orqanlarında şəxsi heyətin tam komplektləşdirilməsi, həmin orqanların maddi-texniki təminatının daha da yaxşılaşdırılması, işğaldan azad olunmuş ərazilərdə müdafiə və hüquq-mühafizə orqanlarının müvafiq xidmətlərinin təşkili ilə bağlı tələb olunan vəsait 2027-ci ilin dövlət büdcəsində nəzərə alınıb. Növbəti ilin dövlət büdcəsində 20 il və daha çox xidmət göstərib işləyən və ehtiyatda olan hərbi qulluqçuların mənzillə təmin olunması və digər zəruri xərclərin maliyyə təminatı üçün 15,0 milyon manat, kirayəyə götürülmüş yaşayış sahəsinə görə yaşayış yeri olmayan hərbi qulluqçulara ödənilən pul kompensasiyası üçün isə 14,7 milyon manat məbləğində vəsait nəzərdə tutulub. Eyni zamanda bu məqsədlə xidmətdə olanlara 94,5 milyon, xüsusi rütbəlilərə 21,5 milyon manat ayrılması planlaşdırılır ki, bu da ümumilikdə 120 milyon manat deməkdir".

A.Nağıyev vurğuladı ki, 2027-ci ilin dövlət büdcəsinin müdafiə və milli təhlükəsizlik, məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq xərcləri bölmələrindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri 443,7 milyon manat təşkil edəcək. Həmin vəsaitin 20,6 milyon manatı və ya 4,6 faizi müdafiə və milli təhlükəsizlik xərclərinin, 423,1 milyon manatı və ya 95,4 faizi isə məhkəmə hakimiyyəti, hüquq-mühafizə orqanlarının və prokurorluğun saxlanılması xərclərinin payına düşür. Bu rəqəmlər göstərir ki, dövlətimizin təhlükəsizlik siyasəti yalnız silahlı qüvvələrin saxlanılması ilə məhdudlaşmır. Buraya milli təhlükəsizlik, sərhədlərin qorunması, xüsusi müdafiə layihələri və digər strateji tədbirlər də daxildir.

Komitə sədri yekunda dedi ki, ümumilikdə 2027-ci ildə müdafiə qüvvələri üzrə xərclərin 2026-cı illə müqayisədə təxminən 11,2 faiz artırılması nəzərdə tutulur. Bu da ümumi müdafiə və təhlükəsizlik xərclərinin 1,1 faizlik artımından fərqli olaraq, struktur daxilində daha ciddi artımdır.

Əsmər QARDAŞXANOVA,
"Azərbaycan"

Əsas hədəf qeyri-neft sektorunun inkişafı olaraq qalacaq

Dövlət büdcəsi layihəsinin Milli Məclisdə müzakirəsi zamanı parlament və hökumət üzvlərinin bu sahədə mövqeləri üst-üstə düşür

Dövlət büdcəsi hər bir ölkənin iqtisadi və sosial inkişaf strategiyasını, maliyyə siyasətinin əsas istiqamətlərini və qarşıya qoyduğu strateji hədəfləri özündə birləşdirən əsas maliyyə sənədidir. Onun formalaşdırılması ölkənin iqtisadi potensialının reallaşdırılması, sosial rifahın yüksəldilməsi, milli təhlükəsizliyin təmin olunması və uzunmüddətli inkişafın maliyyə əsaslarının yaradılması deməkdir.

Bu kontekstdə Azərbaycanın 2027-ci il üçün dövlət büdcəsi layihəsinin hazırlanaraq Milli Məclisin müzakirəsinə təqdim olunması qarşıdakı ilin iqtisadi və sosial prioritetlərinin müəyyənləşdirilməsi baxımından vacibdir. Parlamentin plenar iclasında layihənin birinci oxunuşda müzakirəsində çıxış edən iqtisadiyyat naziri Mikayıl Cabbarovun diqqətə çatdırdığı önəmli məsələlərdən biri son illər Azərbaycan iqtisadiyyatında şaxələndirmə prosesinin sürətlənməsi və qeyri-neft-qaz sektorunun inkişafı oldu.

İqtisadiyyatın şaxələndirilməsi istiqamətində əldə olunan nəticələrin qiymətləndirilməsi üçün diqqət yetirilməli əsas məqamlardan biri qeyri-neft-qaz sektorunun istehsal və ixrac imkanlarının genişlənməsi, vergi bazasının böyüməsidir. Bura özəl sektorun iqtisadi fəallığının artmasını və dövlət büdcəsinin gəlirlərində bu sahənin xüsusi çəkisinin yüksəlməsini də əlavə etsək, mənzərə aydın olur. Bu baxımdan ilk növbədə sənaye zonalarının neftdənkənar sənayenin inkişafında və ixrac potensialının genişlənməsində artan rolunu qeyd etmək lazımdır.

Danılmaz faktdır ki, sənaye parkları yeni istehsal müəssisələrinin yaradılması, investisiyaların cəlb edilməsi, müasir texnologiyaların tətbiqi və yerli məhsulların xarici bazarlara çıxarılmasından dolayı önəmli platformaya çevrilib. Mikayıl Cabbarov bununla bağlı bildirib ki, cari ilin 9 ayında sənaye zonalarının ölkənin qeyri-neft-qaz sənaye istehsalında payı 19, ixracında isə 23 faizdən çox olub. Bu göstərici sənaye zonalarının artıq neftdənkənar sənayenin ixrac strukturunda əhəmiyyətli yer tutduğunu göstərir.

Sənaye zonalarında yaradılan müəssisələr yeni məşğulluq imkanlarının formalaşmasına, yerli istehsal zəncirlərinin genişlənməsinə və əlavə dəyərin ölkə daxilində yaradılmasına da töhfə verir. Üstəlik, sənaye zonalarında istehsal olunan məhsulların xarici ölkələrə ixracı Azərbaycanın neftdənkənar məhsullarının yeni bazarlara çıxmasına və ixrac çeşidinin artmasına imkan yaradır. Bu baxımdan sənaye zonalarının ixracda 23 faizdən çox paya malik olması iqtisadiyyatın şaxələndirilməsi prosesinin konkret nəticələrindən biri kimi diqqəti cəlb edir.

Digər mühüm göstərici vergi daxilolmalarının artmasıdır. Mikayıl Cabbarovun təqdim etdiyi məlumata görə, 2026-cı ilin 10 ayında qeyri-neft-qaz sektorundan vergi daxilolmaları ötən ilin müvafiq dövrü ilə müqayisədə 13 faizdən çox artıb. Bu, neftdənkənar sektorda vergi daxilolmalarının iqtisadi artımla müqayisədə daha sürətlə yüksəldiyini göstərir.

Əslində, vergi daxilolmalarının artımını yalnız büdcəyə daxil olan vəsaitlərin yüksəlməsi kimi qiymətləndirmək düzgün olmazdı. Üstəlik, bu göstərici iqtisadi fəaliyyətin daha geniş hissəsinin rəsmi dövriyyəyə cəlb olunmasını, vergi ödəyicilərinin sayının və vergi bazasının genişlənməsini xarakterizə edir. Məhz bu baxımdan ƏDV ödəyicilərinin sayında baş verən dəyişiklik xüsusi əhəmiyyət daşıyır. Nazir qeyd edib ki, 2018-ci ildən bəri ölkədə ƏDV ödəyicilərinin sayı 3,5 dəfə artıb. Bu artım iqtisadiyyatda formal fəaliyyət göstərən təsərrüfat subyektlərinin genişlənməsinin və vergi münasibətlərinin əhatə dairəsinin böyüməsinin önəmli göstəricilərindəndir.

Proseslərin ən vacib nəticələrindən biri dövlət büdcəsinin gəlirlərində qeyri-neft-qaz daxilolmalarının xüsusi çəkisinin artmasıdır. Faktlara müraciət edək: 2021-ci ildə dövlət büdcəsinin gəlirlərində qeyri-neft-qaz daxilolmalarının payı 49 faiz təşkil etdiyi halda 2026-cı ilin 10 ayında həmin göstərici 55 faizi ötüb. Bu müqayisə büdcə gəlirlərinin formalaşmasında neftdənkənar sahənin rolunun gücləndiyini göstərir. Nazir bildirib ki, dövlət büdcəsinin qeyri-neft-qaz daxilolmaları 2021-ci ildəki 12,9 milyard manatdan 2026-cı ilin təsdiq olunmuş büdcəsində 22,2 milyard manata yüksəlib. Beləliklə, 5 illik bir dövrdə bu sektorda büdcə gəlirlərinin həcmi 9,3 milyard manat artıb. Bu, neftdənkənar sahənin təkcə iqtisadi artımda deyil, dövlətin maliyyə təminatında da rolunun genişləndiyini göstərən mühüm göstəricidir. Onu da xüsusi qeyd edək ki, büdcənin qeyri-neft-qaz gəlirlərinin 63 faizdən çoxu məhz bu sektordan daxil olan vergilər hesabına formalaşır.

Beləliklə, Mikayıl Cabbarovun Milli Məclisə təqdim etdiyi rəqəmlər qeyri-neft-qaz sektorunun Azərbaycan iqtisadiyyatında artan rolunu bir neçə mühüm müstəvidə ortaya qoyur. İxrac potensialının genişlənməsi, vergi daxilolmalarının yüksəlməsi, əmək bazarının rəsmiləşdirilməsi və büdcə gəlirlərinin şaxələndirilməsi iqtisadi inkişafın keyfiyyət göstəricisi olduğuna dəlalət edir. Qarşıdakı dövrdə əsas vəzifə bu dinamikanı qorumaqla yanaşı, neftdənkənar sahədə məhsuldarlığın, rəqabətqabiliyyətliliyin və ixrac imkanlarının artırılmasından ibarətdir.

Züleyxa ƏLİYEVA,
"Azərbaycan"

● Yeni nəşrlər

Yazıçı-jurnalistin sözü ictimaiyyətin bütün təbəqələrinədir

Yazıçı-jurnalist Rəfiqə Sadıqovanın yeni, "Sözüm sizədir" adlı kitabı çapdan çıxıb. Uzun illərdir mətbuatda çalışan bu peşəkar jurnalist həm də maraqlı bədii əsərlərin müəllifidir. Odur ki, təzəcə işıq üzü görmüş kitabı onun ədəbiyyatsevərlərlə növbəti görüşü sayıla bilər.

Əvvəlki kitablarında Rəfiqə Sadıqovanın çoxsaylı hekayələrini, povestlərini oxumuşuq. Bu yeni kitabında isə müəllif tamamilə başqa bir rakursdan çıxış edir. Kitabda mənəviyyat mövzusunda yazılmış kiçik esselər, hekayələr və qeydlər qələmə alınıb. Yeri gəlmişkən onu da qeyd edək ki, həmin yazıların bir çoxu "Azərbaycan" qəzetində dərc olunub. Ümumiyyətlə, Rəfiqə xanım "Azərbaycan"ın "Mənəviyyat mövzusunda" rubrikasında davamlı şəkildə çıxış edir.

Elə buradaca vacib bir məqamı da vurğulayaq. Təsadüfi deyil ki, Prezident İlham Əliyev mənəviyyat və milli-mənəvi dəyərləri dövlətçiliyin və milli varlığın əsas təməl prinsiplərindən biri kimi qiymətləndirir. O, azərbaycanlı üçün mənəviyyatın hər şeydən üstün olduğunu qeyd edir. Xalqımızın bu dəyərləri əsrlər boyu öz qəlbində və əxlaqında yaşatdığını dəfələrlə diqqətə çatdırıb. Milli-mənəvi dəyərlərə, ənənələrə və həyat tərzinə sadiqliyin ölkəmizin əsas istiqaməti və başlıca tendensiyası olaraq qaldığını deyib. Milli ruhlu, sağlam əqidəli gəncliyin Azərbaycan dövlətinin gələcək mövcudluğunun qarantı olduğuna əminliyini bildirib.

Rəfiqə Sadıqovanın sözügedən kitabında toplanmış yazılarında əks olunan hadisələr də müəllifin mövzuya məhz bu prizmadan yanaşdığını göstərir. Yazılarda xalqımızın yüzilliklər boyu yaşatdığı ənənələr vəsf olunur, sağlam həyat tərzi dəstəklənir. Təbii ki, ara-sıra, zaman-zaman cəmiyyətdə həmin müqəddəs amalların pozulması hallarına da rast gəlinir. Bunların şahidi olduğu halda Rəfiqə xanım dərhal qələmini götürür. Bir azərbaycanlı xanım, bir ana və fikrini mükəmməl ifadə etməyi bacaran bir yazar kimi etirazını sözü ilə bildirir.

Kitabın annotasiyasında deyildiyi kimi, müəllif oxucunu xeyirxahlıq, dürüstlük, mərhəmət və ədalət kimi ali insani keyfiyyətlər haqqında düşünməyə sövq edir: "Onun qələmində söz yalnız fikri ifadə etmək vasitəsi deyil, həm də insan qəlbinə yol tapan mənəvi qüvvədir. Esse və hekayələr toplusundan ibarət bu kitabda insanın daxili aləmi, həyata münasibəti və mənəvi seçimləri xüsusi həssaslıqla diqqətə çatdırılır. Müəllifin publisistik düşüncələri oxucunu daxili aləminə nəzər salmağa, vicdanı qarşısında hesabat verməyə çağırır".



Biz isə bu deyilənləri yazıların özünə istinadən konkret misallarla göstərək. "Elegiya"dan başlayaq. Rəfiqə xanımın öz anasına ithaf etdiyi elegiyadan. Bu, təkcə yaşa dolmuş bir insanın ana həsrəti, uzaqda qalmış uşaqlığı barədə kövrək xatirələr deyil. Bu, anasını canı qədər sevən, ananı müqəddəs bilərək hətta cənnəti onun ayaqları altında görən xalqımızın mənəviyyatı haqqında sanballı bir sözdür. Nə qədər yaşa dolsaq da, həmişə ata-ana həsrəti çəkirik. Onlara mənəvi ehtiyacımız həmişə var. Mənəviyyatımız belədir.

Və həm də anasının qədrini bilməyən, onu unudanlara bir örnək, bir mesajdır bu elegiya. Təəssüf ki, cəmiyyətimizdə belələri də var. "Yəqin əlim dəyib..." essesində müəllif anasına bir telefon zəngini belə qıymayan oğulun nankorluğundan danışır. Əli çörəyə çatan, şəhərdə özünə firavan həyat quran oğul anasını nəinki itirib-axtarmır, hətta ana ona zəng vuranda deyir ki, "qısa danış, vaxtım azdır".

Hələ bu nədir ki? İxtiyar yaşlı valideynlərini qocalar evinə "yerləşdirənlər" də var. Dövlətin sahib çıxdığı həmin qocalar orada maddi korluq çəkməsələr də, mənən əzilirlər, mənəviyyatı kasad olan övladlarının laqeydliyi, üzüdönüklüyü ucbatından əzab çəkirlər.

"Sonrakı peşmanlıq"da isə Rəfiqə Sadıqova diqqəti ailədə uşaqların təlim-tərbiyəsi kimi vacib məsələyə cəlb edir. "Təhsil ailədən, valideyndən başlamalıdır", - deyir müəllif. - "Necə? Ona göstərilən diqqət və qayğı ilə. "Vaxtım yoxdur" sözü bu sahədə keçərli ola bilməz, olmamalıdır. Analar telefonları əllərindən yerə qoyub öz müqəddəs işləri, ailəsi ilə qayğılanmalıdır. Rəqabət çeşidli restoran, səyahət, geyim, bahalı kosmetika və estetik-cərrahi müdaxilə sahəsində olmamalıdır. Gələcəyimiz sayılan övladlarımızın təhsilləri, tərbiyələri, sağlamlıqları diqqət mərkəzində saxlanılmalıdır. Çünki bugünkü səhvlərimiz illər sonra geri dönüşü mümkün olmayan vəziyyətə çevrilə bilər. Ataların dediyi kimi, sonrakı peşmanlığın faydası olmaz".

Bir sözlə, Rəfiqə Sadıqova oxucunun diqqətini bu gün cəmiyyətimizi narahat edən ən ümdə mənəviyyat problemlərinə cəlb edir. Onun yazdıqları fantaziya və ritorikadan uzaq bir qələm məhsulu, həyatda gördükləri, eşitdikləri, müşahidə etdikləridir.

Bir daha xatırladaq ki, Rəfiqə xanım peşəkar jurnalistdir. Onun həyatı belə dəqiqliklə müşahidə etməsi həm də bundan irəli gəlir. Və nə xoş ki, o həm də yazıçıdır. Bütün bunları öz bədii təxəyyülü, mükəmməl ifadə tərzi ilə diqqətə çatdırır.

Məşhur yazıçılardan hansısa təvazökarlıqla deyib: "Mən o qədər istedadlı deyiləm ki, qısa yaza biləm".

Rəfiqə Sadıqova yaradıcılığının ən ümdə məziyyətlərindən biri də məhz böyük bir problemi qısa, aydın, lakonik şəkildə çatdırmasıdır. Bu da onun istedadından və təcrübəsindən qaynaqlanır. İndiki hər dəqiqəsi bol məlumatlı, insanların vaxtının az olduğu zamanda maraqlı bir mövzunu oxucuya yığcam və gözəl şəkildə təqdim etməyin özü də ona bir töhfədir.

Yazıçı-jurnalist Rəfiqə Sadıqovanın bu töhfəsindən oxucuların bəhrələnməsini, özünə isə belə dəyərli əsərlərinin davamlı olmasını arzu edirik.

Flora SADIQLI,
"Azərbaycan"

● Region mətbuatımızın tarixi

"Əxbari" - Qubada nəşr edilən ilk qəzet

Qubada nəşr edilən "Şəfəq" qəzeti ilk bölgə mətbuatı kimi tariximizə düşüb. Odur ki, o, həmişə region mətbuatımızın "qaranquşu" kimi təqdim olunur. Müxtəlif adlarla ("Əxbari", "Yeni dirilik", "Kollektivləşmə yolu", "Qızıl Quba", "Şəfəq", "Quba" və yenidən "Şəfəq") fəaliyyət göstərmiş bu mətbu orqan milli mətbuatımızın inkişafına öz töhfəsini vermişdir.



Azərbaycanda demokratik mətbuatın formalaşmasında əvəzsiz xidmətləri olan Ümummilli Lider Heydər Əliyev "Şəfəq" qəzetinin 75 illik yubileyi münasibətilə redaksiyaya göndərdiyi 29 iyul 1996-cı il tarixli təbrik məktubunda yazmışdır: "Quba rayonu əhalisinin istək və arzularını, ictimai-iqtisadi və siyasi həyatının bütün sahələrini daim öz səhifələrində əks etdirən və əsası 75 il bundan əvvəl qoyulmuş "Şəfəq" qəzeti çox zəngin və şərəfli bir inkişaf yolu keçmişdir. Qəzet Azərbaycanın çoxşaxəli mədəniyyətə, adət-ənənələrə və milli-mənəvi dəyərlərə malik olan bölgəsində dövlətçiliyin və xalqlar dostluğunun daim qorunub saxlanmasına və möhkəmləndirilməsinə xidmət göstərmiş, bütün bölgə əhalisinin imkanlarını respublikamızın ən ümdə problemlərinin həllinə səfərbər etmişdir".

Ulu Öndər həmin məktubunda redaksiya kollektivinə öz tövsiyələrini də vermişdir: "Azərbaycan dövlətinin bugünkü demokratik və azad mətbuat sistemində öz dəst-xətini qorumaq, layiqli yer tutmaq üçün qəzetin kollektivi səylərini daha da artırmalı, həm respublikanın, həm də rayonun ictimai-iqtisadi və siyasi həyatında gedən dəyişiklikləri, demokratik prosesləri obyektiv, yüksək professional səviyyədə işıqlandırmalıdır. Bu yolda qəzetin bütün yaradıcı heyətinə müvəffəqiyyətlər arzu edirəm".

Bu yazımızda biz "Şəfəq"in sələfi olan "Əxbari"dən söz açmaq istəyirik. 1921-ci il aprelin 25-də Azərbaycanın kənd rayonları arasında ilk dəfə Qubada Qəza İnqilab Komitəsinin "Əxbari" adlı çoxtirajlı qəzeti çapdan çıxdı. "Əxbari"nin ilk müxbirlərindən biri olmuş Qubanın Xaltan kənd sakini Mütəllib Əfəndiyevin xatirələrinə istinadla bildirək ki, qəzetin təşkili münasibətilə Quba şəhərindəki fəhlə-kəndli klubunda təntənəli yığıncaq keçirilib. Qəzetin redaktoru qəza partiya komitəsinin təbliğat şöbəsinin müdiri, müəllim, jurnalist Hüseynağa Məmmədbəyli, katibi isə Əsgər Fərəczadə seçilib. Qəzetə ad verilməsi geniş müzakirələrə səbəb olmuşdu. Hətta qəzetə Leninin adını vermək tövsiyə edilmişdi. Lakin "yuxarı"dan bildirmişlər ki, rəhbər belə təklifləri xoşlamır. Ona görə də qəzet "Əxbari" adı ilə çıxmağa başlayıb. Qeyd edək ki, "Şəfəq"in sələfi sayılan "Əxbari"nin (dilimizdə "əxbar"ın iki anlamı vardır: onlardan biri xəbərlər, məlumat, ikincisi isə dövrəşırı mətbuatdır) ilk sayının aprelin 21-də, bəzi mənbələrdə 22-də çapdan çıxdığı ilə bağlı fikirlər var.

Lakin əlimizdə olan faktlar hər iki tarixi inkar edir. Belə ki, uzun müddət bu qəzetdə məsul redaktor kimi çalışmış Mövlud Qonaqov "Qızıl Quba"nın 25 aprel 1946-cı il tarixli sayında "25 il mübariz vəzifə başında" adlı bir məqalə ilə çıxış edib. Həmin məqalədən bəzi faktları nəzərinizə çatdırırıq: "25 il bundan əvvəl, 1921-ci ilin 25 aprelində yeni iqtisadi-siyasət dövründə Quba bolşeviklərinin mübariz orqanı "Əxbari" (indiki "Qızıl Quba") qəzetinin birinci nömrəsi çapdan çıxdı. Bu qəzet 22 nömrəyə kimi davam etdi. Sonra 1922-ci ilin 16 yanvarında Quba qəza partiya, icraiyyə komitələrinin və Quba sovetinin orqanı "Yeni dirilik" qəzeti müntəzəm nəşr edilməyə başladı". Çox güman ki, qəzetin ilk sayının aprelin 22-də - Leninin ad günündə nəşr olunması nəzərdə tutulub. Lakin müəyyən səbəblərdən, daha doğrusu, Moskvadan göndərilmiş çap maşınının vaxtında gəlib çatmaması səbəbindən bu baş tutmayıb. Bəzi mənbələrə görə, həmin çap maşını Quba əvəzinə Kubana gedib çıxıbmış.

Bir məsələni də vurğulayaq ki, "Şəfəq"in sələfinin adı çox mənbələrdə "Əxbar" kimi çəkilir. Əslində isə qəzetin adı "Əxbari" olub. Bu, əlimizdə olan "Əxbari"də açıq-aydın görünür. Yeri gəlmişkən qeyd edək ki, indiyədək "Əxbari"nin heç bir nömrəsinin olmadığı iddia edilirdi. Axtarışlarımıza baxmayaraq, qəzetin ilk nömrələrini əldə etmək mümkün olmadı. Elə bu səbəbdən "Əxbari"nın ilk sayları barədə dəqiq bir fikir irəli sürə bilmirik. Amma bu yaxınlarda "Əxbari"nin 16-cı sayını əldə etmək bizə müyəssər olub. Yeri gəlmişkən bu işdə bizə yaxından kömək göstərdiklərinə görə, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin, eləcə də M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının rəhbərliklərinə, həmçinin işçilərinə minnətdarlığımızı bildiririk.

"Azərbaycan Sovet Ensiklopediyası"na (IV cild, 1980) istinadən onu da qeyd edək ki, "Əxbari"nın 16 sayı işıq üzü görüb. Bu fakta əsasən belə demək olar ki, əlimizdəki "Əxbari"nin son sayıdır. Bu, həm də "Əxbari"nin arxivlərimizdə indiyədək qorunmuş yeganə nüsxəsidir. Həmin sayla bağlı bəzi məqamları nəzərinizə çatdırırıq: 4 səhifədən ibarət "Əxbari"nin bu sayı 30 oktyabr 1922-ci ildə (yekşənbə 30 oktyabr 1922, № 16) nəşr olunub. Hər halda qəzetin üzərindəki qeydlər belə deməyə əsas verir.

"Əxbari"nin loqotipinin sol tərəfində "Kəndçi fəhlə həyatına dair məqalələr məmnuniyyətlə qəbul olunur", sağ tərəfində "Quba Qəza İcraiyyə və Firqə Komitələrinin" sözləri yazılıb. Bu baxımdan, qəzetin bütöv adı belə olmalıdır: "Quba Qəza İcraiyyə və Firqə Komitələrinin Əxbari". Loqotipin orta hissəsində isə bu sözlər yer alıb: "Quba Qəza İcraiyyə və Firqə Komitələrinin nəşr əfkarıdır. Həftədə bir dəfə çıxar. Tək nüsxəsi 150 min rubl".

Bu sayın birinci səhifəsindəki ilk məqalə bağçılıqla bağlıdır. Həmin yazı bu sözlərlə başlayır: "Quba qəzasının sərvət təbiiləri içində birinci sırada yer tutan bağçılıqdır. Belə ki, əhalinin bir çoxu ancaq bağçılıq ilə imrar həyat edir... Rusyəni başdan-başa yaş və quru meyvəylə təchiz edən demək olar ki, Quba qəzasıdır. Quba qəzası hətta Krıma rəqabət edə biləcək qadir qocaman bağlara malikdir. Fəqət fərq orasında ki, Krım bağları əsri hazırın bağçılıq fənninə müvafiq mədəniləşdirilmişdir. Amma Quba bağları Xudaya labit bir halda qalmışdır və nəticə etibarilə Krımın hər ildə kiçik bir bağçası verdiyi məhsulatı Qubanın ən böyük bağı iki ildə bir dəfə də olsa verməyir". ("Əxbari" qəzeti, 30 oktyabr 1922-ci il)". Göründüyü kimi, bu yazıda qəzanın təsərrüfat həyatı üçün əhəmiyyətli məsələ qaldırılır və aqronomluq elminə əsaslanan mədəni bağçılıq uğrunda mübarizənin zəruriliyi vurğulanır və Qubada xüsusi bağçılıq məktəbi yaradılması vacib sayılır. Məqalədə çoxlu mənfəət gətirən "göy təsərrüfatı"nı (tərəvəzçiliyi) inkişaf etdirmək məsələsindən də danışılır.

İlk səhifədəki ikinci yazı isə Birinci Dünya müharibəsi ilə bağlıdır. "Əxbari"nin ikinci səhifəsində "Firqə xəbərləri", "Teleqraf xəbərləri", üçüncü səhifəsində "Çıxarılan qərarlar", "Firqə həyatı", dördüncü səhifəsində "Quba xəbərləri", "Gənclər sütunu" və s. rubrikalar altında müxtəlif səpkili materiallar yer alıb. Məsələn, "Quba xəbərləri" rubrikasında 12 xəbər ("İcraiyyə komitəsində", "Quba maarif işləri", "18 milyard pul", "Təlim işləri", "Kitabxana üçün kitablar", "İkinci dərəcəli məktəb", "Sənət məktəbi", "Məktəblər təmiri", "Quba mətbəəsi", "Təbliğat və nəşriyyat", "Təlim əşyaları mağazası", "Təlim işləri") var. "Təlim işləri"ndə deyilir: "Bakıdan Quba və qəza məktəbləri üçün kağız, dəftər, mürəkkəb, qələm içi və sair kibi belə çox təlim əşyası gətirilmişdir. Bu əşyalar məktəblərə tam bir sənə kifayət edəcəkdir". "Quba maarif işləri"ndə belə bir məlumat verilir: "Maarif şöbəsi müdiri yoldaş H.Musizadə Bakıdan qayıdıb. Para və çox təlimat əşyası gətirmişdir". Həmin səhifədə bir elan da yerləşdirilib.

Bu sayda iki imza (Həsənzadə və Saleh Məhəmmədov) daha çox diqqəti cəlb edir. Təəssüf ki, həmin şəxslər barədə ətraflı məlumat əldə edə bilmədik. "Əxbari"nin sonunda isə redaksiyanın fəaliyyət göstərdiyi ünvan göstərilib: "Quba qəza müştərək təsərrüfat mətbəəsi şöbəsi".

1922-ci ildə qəzet öz işini yenidən qurmaqla yanaşı, adı da dəyişdirilib və "Yeni dirilik" (dilimizdə bu sözün 5 anlamı var və onlardan biri "həyat", "yaşayış", "güzəran" deməkdir) adlandırılıb. "Yeni diriliy"in ilk sayı həmin ilin yanvar ayının 16-da işıq üzü görüb.

Qəhrəman QASIMOV,
Əməkdar jurnalist,

Qvami MƏHƏBBƏTOĞLU,
Azərbaycan Yazıçılar və Azərbaycan Jurnalistlər birliklərinin üzvü

Ekologiya

Qlobal istiləşmə dağların "buz yaddaşı"nı əridir

Proses Azərbaycanın su təhlükəsizliyi ilə bağlı rahatsızlıqları artırır

Dünyanın ən möhtəşəm ağ mənzərələrindən sayılan buzlaqlar iqlim dəyişmələrinə ən çox məruz qalan təbiət abidələrindən hesab olunur. Alp dağlarından Himalayadək, Andlardan Qafqazadək uzanan buzlaqların sahəsi və həcmi getdikcə azalır. Qlobal temperaturun yüksəlməsi nəticəsində minilliklər ərzində formalaşmış bu təbii su anbarları son illər sürətlə kiçilir.



Buzlaqların kiçilməsi həm dağ mənzərəsini dəyişir, həm də dünyanın, o cümlədən Azərbaycanın su ehtiyatları və dağ ekosistemləri üçün yeni təhlükələr yaradır. BMT-nin Ətraf Mühit Proqramının 2024-cü ildə açıqladığı hesabatda son 100 ildə Qafqaz buzlaqlarının orta hesabla 600 metr geri çəkildiyi, 2000-ci ildən bəri isə buzlaqlarda toplanmış 11 milyard tondan çox şirin suyun itirildiyi bildirilir.

Azərbaycan ərazisində buzlaqlar Böyük Qafqazın şimal-şərq yamacında - Qusarçayın hövzəsində mövcuddur. Burada buzlaqlar qar xəttinin yüksək olduğu və onların əmələ gəlib saxlanılması üçün əlverişli şəraitə malik ayrı-ayrı zirvələrdə və həmin zirvələrin yamaclarında saxlanılıb. Morfoloji tipinə görə respublikanın dağ buzlaqları iki əsas tipə bölünür: dağ yamaclarının buzlaqları (kar, asılı kar, asılı buzlaqlar) və dağ zirvələrinin buzlaqları (yastı zirvə buzlaqları). Birinci tip buzlaqlar Baş Qafqaz silsiləsinin Bazardüzü, Bazaryurd, Tufan və başqa zirvələrinin yamaclarında, ikincisi isə Yan silsiləsinin Şahdağ zirvəsində müşahidə olunur.

Bəs sadaladığımız buzlaqların hazırkı vəziyyəti necədir? Ərimə prosesi Azərbaycanın su ehtiyatlarına və dağ çaylarına necə təsir edir? Azərbaycan Milli Elmlər Akademiyasının Coğrafiya İnstitutunun məlumatları ayrı-ayrı dağlarda buzlaq sahələrinin ciddi dərəcədə azaldığını göstərir. İnstitutun hesablamalarına əsasən, 1990-2022-ci illərdə Şahdağ buzlağının sahəsi 22,5, Bazaryurd buzlağının sahəsi 83,3, Çarundağ buzlağının sahəsi isə 90,3 faiz azalıb. Bazardüzü zirvəsində vaxtilə 3,62 kvadratkilometr ərazini əhatə edən qar-buzlaq ekosisteminin sahəsi təxminən 92,3 faiz kiçilərək 0,28 kvadratkilometrə düşüb.

Buzlaqların əriməsi ilə bağlı rahasıztlıq Azərbaycanın rəsmi gündəliyində xüsusi yer tutur. Qlobal iqlim dəyişmələrinin dağ ekosistemlərinə təsiri, buzlaqların qorunması və onların monitorinqinin maliyyələşdirilməsi məsələlərinə toxunan Baş nazirin müavini Teymur Musayev "Buzlaqlarla əlaqədar uyğunlaşma, azalma, itki və zərər, onların monitorinqinin maliyyələşdirilməsi" mövzusunda keçirilən yüksəksəviyyəli tədbirdə çıxış edərək bildirib ki, buzlaqların sürətlə əriməsi milyardlarla insanın su təhlükəsizliyini birbaşa təhdid edir. Onun sözlərinə görə, əsrlər boyu dağ icmaları təbiətlə tarazlıq şəraitində yaşayaraq aşağı axınlarda məskunlaşan əhalinin su təminatında mühüm rol oynayıb. Lakin iqlim dəyişmələri nəticəsində tarazlıq pozulur. Daimi donuşluğun (permafrostun) əriməsi, torpaq sürüşmələri və dağıdıcı daşqınlar daha tez-tez müşahidə olunur. Qafqaz dağları Azərbaycan üçün həyati əhəmiyyət daşıyan su mənbəyidir. Qusarçay hövzəsində buzlaqlarla bağlı ilk rəsmi məlumatlar 1890-cı ilə aiddir. Son illər aparılan sahə müşahidələri isə ərimə prosesinin əhəmiyyətli dərəcədə sürətləndiyini göstərir.

Çox təəssüf ki, 2017-2025-ci illərdə Böyük Qafqazın Azərbaycan hissəsində buzlaqların sahəsi 9 faiz azalıb. Bu göstərici buzlaqların əhatə etdiyi ərazinin kiçilməsini əks etdirir. Lakin buz ehtiyatlarının itkisi yalnız sahənin azalması ilə ölçülmür. Buzlaqların əriməsi ilə bağlı daha yeni elmi araşdırma Azərbaycanın vəziyyətini təsdiqləyən mühüm rəqəmlər ortaya qoyur. 2026-cı il oktyabrın 20-də "Remote Sensing" elmi jurnalında dərc olunan tədqiqatda Böyük Qafqaz buzlaqlarının 1960-2025-ci illər üzrə həcmi qiymətləndirilib. Tədqiqatçılar Azərbaycanı Böyük Qafqazda buzlaq həcminin nisbi azalmasının ən yüksək olduğu ölkə kimi göstəriblər. Araşdırmalar göstərir ki, 1960-cı ildə Azərbaycanın Böyük Qafqaz hissəsindəki buzlaqlarının ümumi həcmi təxminən 0,25 kubkilometr olduğu halda 2025-ci ildə bu göstərici cəmi 0,004 kubkilometrə düşüb. Başqa sözlə, 65 il ərzində buz ehtiyatının 98,4 faizi itirilib. Qusarçay hövzəsində son 19 ildə aparılan tədqiqatlar qar örtüyünün su ehtiyatlarındakı payının azalma tendensiyasını ortaya qoyub.

Buzlaqların əriməsi Azərbaycanın su ehtiyatlarına hansı dərəcədə təsir edir? Məlumdur ki, buzlaqlar dağ çaylarının təbii qidalanma mənbələrindən biridir. Qış aylarında toplanan qar və buz isti mövsümdə tədricən əriyərək çaylara su verir. Bu proses xüsusən yağıntıların azaldığı və temperaturun yüksəldiyi yay aylarında böyük əhəmiyyət kəsb edir. Təbii ki, temperaturun yüksəlməsi nəticəsində buzlaqların normadan artıq və sürətlə əriməsi heç də həmişə müsbət nəticə vermir. İlkin mərhələdə ərinti sularının artması dağ çaylarında suyun səviyyəsinin və axımının yüksəlməsinə səbəb ola bilər.

Bu gün dünyanın müxtəlif regionlarında buzlaqlar sürətlə geri çəkilir. Azərbaycan üçün bu proses yalnız dağ zirvələrindəki buz ehtiyatlarının itirilməsi demək deyil. Buzlaqların kiçilməsi gələcəkdə dağ çaylarının su ilə qidalanmasına, su ehtiyatlarının mövsümi bölgüsünə və bütövlükdə ölkənin su təhlükəsizliyinə təsir göstərə bilər. Çünki ölkənin dağlıq ərazilərindəki buz ehtiyatları məhduddur və onların itirilməsi ekosistemin tarazlığını pozur.

Mövcud vəziyyət göstərir ki, buzlaqların qorunması onların sahəsinin və həcminin azalmasını qeydə almaqla bitmir. Müntəzəm elmi müşahidələrin aparılması, peyk texnologiyalarından istifadə etməklə dəyişikliklərin izlənməsi, buzlaqların əriməsinin çayların su ehtiyatlarına təsirinin qiymətləndirilməsi vacibdir. Dağlıq ərazilərdə sel, daşqın və sürüşmə kimi risklərin əvvəlcədən müəyyənləşdirilməsi üçün erkən xəbərdarlıq sistemlərinin inkişafını sürətləndirmək, eləcə də mümkün təhlükələrin qarşısının alınması və nəticələrinin minimuma endirilməsi istiqamətində qabaqlayıcı tədbirlər görmək zəruridir.

Buzlaqların taleyi, sadəcə, dağların zirvələrində baş verən dəyişiklik deyil. O həm də gələcək su ehtiyatlarımız, ekoloji tarazlığımız və gələcək nəsillərin təbii sərvətlərdən istifadə imkanları ilə bağlı məsələdir.

Züleyxa ƏLİYEVA,
"Azərbaycan"



Mədəniyyət




● Sənət dünyası

Xalçaçılığa ürəkdən bağlandı, ilmələrlə möcüzələr yaratdı

İnsanları sehrinə salan qədim sənət sahələrindən biri də xalçaçılıqdır. Araşdırmalar göstərir ki, bu sənətin kökləri xeyli qədimlərə gedib çıxır. O səbəbdən dünya nə qədər müasirləşsə də, bu qədim sənət unudulmur. Yeni çalarları, rəngləri ilə insanları heyran qoymaqda davam edir.

Azərbaycanda bu sahənin inkişafı Orta əsrlərdə xalçaçılıq məktəblərini formalaşdırmışdır. Həmin məktəblərdə bacarıqlı ustalarla yanaşı, tərtibatçı rəssamlar da yetişmişdir ki, bu da xalçaçılığın inkişafına yeniliklər gətirmişdir. Belə sənətkarlardan biri də Kamil Əliyevdir. Xalçaçılığın incə sirlərinə bələd olan K.Əliyev yaşadığı və işlədiyi illər ərzində bir-birindən gözəl, bənzərsiz, görənlərin zövqünü oxşayan xalçalar yaratmışdır. Bu, belə də olmalıydı, çünki Kamil Əliyev sənətinin vurğunu idi, bu sənətə ürəkdən bağlanmışdı. Sənətə ürəkdən bağlananda isə möcüzələr yaranır.





Xalçaçılıq sənətinin inkişafına böyük töhfələr vermiş Kamil Əliyev həmişə işinə böyük məsuliyyətlə yanaşırmış. Çalışırmış ki, araya-ərsəyə gətirdiyi xalçalarda bütün ilmələr, rənglər yerində olsun. Buna görə də rəssamın təxəyyülündən yaranmış xalçaların heç birində yad təsir doğuran naxışa da rast gəlinmir, bütün ilmələr, naxışlar və rənglər öz yerindədir.

Görkəmli xalçaçı rəssam Kamil Müseyib oğlu Əliyev 1921-ci il oktyabrın 22-də Qərbi Azərbaycanın İrəvan şəhərində anadan olub. Atalar yaxşı deyib ki, göz gördüyünü götürər. Hələ kiçik yaşlarından evlərində nənəsi Gülsüm xanımın, anası Xanımın xalça toxuduqlarını görüb. Kamil Əliyevin ürəyində özü də hiss etmədən bu sənətə sevgi yaranıb və bu sevgi, bu istək demək olar ki, hər gün ilmə-ilmə artıb. Gördüyü hər kiçik ilmə onu görkəmli xalça ustası kimi yetişdirib.

1936-cı ildə Bakı Rəssamlıq Məktəbinə qəbul olunan Kamil Əliyev xalçaçılıq sənətini dərindən öyrənir. 3 il Bakı Rəssamlıq Məktəbində "Dekorasiya" şöbəsində təhsil alır. Gələcəyinə güvənən müəllimlərinin məsləhəti ilə Kamil Əliyev "Azərxalça"da eksperimental laboratoriyada köçürücü rəssam kimi əmək fəaliyyətinə başlayır. Burada Lətif Kərimov, Qəzənfər Xaliqov, Kazım Kazımzadə və başqa görkəmli sənət adamları ilə birlikdə işləyir. Həftələr, aylar keçdikcə təcrübəsi artan rəssam Nizami Gəncəvinin 800 illik yubileyinə həsr olunan süjetli xalçaların toxunmasında yaxından iştirak edir. Həmin illər Kamil Əliyev görkəmli xalça ustası Lətif Kərimovdan xalçaçılığın sirlərini dərindən öyrənir.

Gələcək həyat yollarını hələ gənclik illərindən müəyyənləşdirən Kamil Əliyev yaradıcılığının əsasını Təbriz elit rəssamlıq məktəbi və Bakı məktəbinin xovlu xalça toxunuş üslubu təşkil edir. Bu üslüb hər addımda ona uğurlar gətirir. Sənətkarın özünün də etiraf etdiyi kimi, o, rənglər dünyasında qızılı rəngə daha çox üstünlük verir. Sevdiyi bu rəngin bir-birinə bənzəməyən tonlarına ilk dəfə miniatur kitablarında rast gələn Kamil Əliyev uzun və gərgin çalışmalardan, sınaqlardan sonra həmin effekti xalçalar üzərində də tətbiq etməyi bacarır. Bu, Kamil Əliyevin sənətin zirvələrinə gedən yolda atdığı uğurlu addımlardan biri olur.





Kamil Əliyevin taleyinə hitlerçilərə qarşı müharibədə iştirak etmək də yazılıbmış. 1941-ci ildə könüllü olaraq orduya yollanan Kamil Əliyev Gürcüstandakı hərbi məktəbdə təlim keçdikdən sonra cəbhəyə yola düşmüşdür. O, Maykopdan Berlinə qədər şərəfli döyüş yolu keçmişdir. Göstərdiyi qəhrəmanlığa görə 22 orden və medala layiq görülmüşdür.

1946-cı ildə müharibədən qayıdan görkəmli xalça ustası sevimli peşəsində çalışmağa başlamışdır. Bir müddət Respublika Bədii Fonduna rəhbərlik etmişdir. Sonrakı illər Bakı zərgərlik fabrikində direktor vəzifəsində işləmişdir. Həmin illərdə o, yalnız xalı, parça kimi toxuma materiallarında deyil, qızıl, gümüş və digər metallarda da özünün mahir bədii tərtibatçı kimi məharətini göstərmişdir.

1950-ci illərdən sonra Kamil Əliyevin yaradıcılığında süjetli xalıların və portret-xalçaların yaradılması əsas yerlərdən birini tutur. Həmin illər sənətkar yüksək peşəkarlıqla Azərbaycan klassiklərinin, görkəmli dövlət xadimlərinin portretlərini yaratmağa başlayır. Tanınmış siyasi və ictimai xadimlərin, klassik şair və mütəfəkkirlərin obrazlarını xalça üzərinə köçürür. Kamil Əliyev ilk portret-xalçasını böyük Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 400 illiyinə həsr etmək qərarına gəlir. O, bu işin öhdəsindən bacarıqla gələrək sənət dünyasında əbədi qalacaq möhtəşəm bir əsər yaradır.

Sənətinin vurğunu olan Kamil Əliyev sonrakı illərdə qalereyasını daha da zənginləşdirir. Onun Heydər Əliyev, İlham Əliyev, Məmmədəmin Rəsulzadə, Mustafa Kamal Atatürk, Turqut Özal, Süleyman Dəmirəl, İndira Qandi, Boris Yeltsin, Bill və Hillari Klintonlar, Mirzə Fətəli Axundzadə, Aleksandr Sergeyeviç Puşkin, Şota Rustavelli, Rabindranat Taqor və başqa görkəmli şəxsiyyətlərə həsr etdiyi xalçaları bu gün də böyük heyranlıqla baxılır.

Xalq rəssamı Kamil Əliyevin fərdi sərgiləri yalnız respublikamızda deyil, dünyanın bir çox ölkəsində keçirilib. Paris, London, Tokio, Dehli, Ankara, İstanbul, Tehran, Moskva, Kiyev və digər şəhərlərin aparıcı muzey və qalereyaları qapılarını Kamil Əliyevin üzünə həmişə böyük sevgi ilə açıb. Böyük sənətkarın müəllifi olduğu xalçalar bu gün də dünyanın məşhur muzeylərində və şəxsi kolleksiyalarda etibarlı şəkildə qorunub saxlanılır.

Görkəmli xalça ustası Kamil Əliyevin xalqımız və dövlətimiz qarşısındakı xidmətləri zaman-zaman layiqincə qiymətləndirilib. O, 1982-ci ildə Azərbaycan SSR-in "Xalq rəssamı" adına layiq görülmüşdür. Sonrakı illər "İstiqlal" və "Şərəf nişanı" ordenləri ilə təltif edilmişdir.

Azərbaycan xalçaçılıq sənətini daim inkişaf etdirən, ona yeni çalar və rənglər qatan Kamil Əliyev 1 mart 2005-ci ildə dünyasını dəyişmişdir.

Vahid MƏHƏRRƏMOV,
"Azərbaycan"

● Ədəbi simalar

Azadlıq carçısı, inqilab şairi

Onun taleyi doğma xalqının taleyinə bənzəyirdi. Odur ki, əsərlərində yalnız öz hisslərini, duyğularını deyil, bütöv bir xalqın ayrılıq ağrısını, yurd həsrətini, tarixin amansız sınaqlarını, Vətənə qovuşmaq arzusunu əks etdirirdi. Qəlbi Vətən eşqi ilə döyünən, təsirli lirik şeirlərin, bənzərsiz poemaların müəllifi, Xalq şairi Balaş Azəroğlu yüz illərdir davam edən, sonu gəlməyən bu hicranını belə ifadə edirdi:

Mən hicranla dolu ömür sürmüşəm,
Min əzab çəkmişəm, min qəm görmüşəm.
Axıb neysan kimi gözümün yaşı,
Nələr çəkdirməmiş mənə bu aləm.
İnan ki, əyilər dağların başı
Əgər dərdlərimi ona söyləsəm.
Fəqət qurtarmışam dardan, çətindən
Tək sənin eşqinlə, vətən, ey vətən.

Balaş Abızadə 1921-ci ilin noyabrında Bakıda dünyaya gəlib. Valideynləri Cənubi Azərbaycanın Ərdəbil şəhərinin Səlim qışlağı kəndindən idilər. Orta təhsilini Bakıda 21 saylı məktəbdə alan Balaş hələ şagirdkən ədəbiyyata böyük həvəs göstərib. Respublika Pionerlər Evində ədəbiyyat dərnəyinə üzv olub. "Dnepr" adlı ilk şeiri 1936-cı ildə "Pioner" jurnalında dərc edilib.

Uşaqlıqdan qəlbində yuva salan poeziya sevgisi, ədəbiyyata marağı zaman keçdikcə tükənməz yaradıcılıq yanğısına çevrilib. O, hələ gənc yaşlarından sözün qüdrətini, poeziyanın insan ruhuna təsirini duyub və yəqin bu səbəbdən qələmə aldığı ilk şeirlərindən oxucuların rəğbətini qazanıb.

Amma repressiya siyasəti onun da ömrünü tufan kimi gərib. İran təbəəsi olduqlarından əvvəlcə ailəsi, sonra özü Cənubi Azərbaycana sürgün edilib. Həyatın bu ağır sınaqları onun qəlbində də, həyatında da dərin izlər buraxıb. Ömrünün gənclik çağında çəkdiyi sarsıntılar, ayrılıq, sürgün və mübarizə onun yaradıcılığının əsas mövzularına çevrilib. Şairin qələmində Vətən artıq yalnız doğulub boya-başa çatdığı torpaq deyil, həm də uğrunda mübarizə aparılan milli varlıq, mənəvi bütövlük rəmzi idi.

Balaş Azəroğlu 21 Azər hərəkatının fəallarından olmuşdu. İctimai-siyasi hadisələrin coşğun dövründə böyük arzularla, sonsuz ümidlərlə Azərbaycan Milli Hökuməti (AMH) fəaliyyətində iştirak etmiş, AMH Azərbaycan Milli Məclisinin deputatı seçilmişdi. "Cövdət" qəzetinin redaktoru, Azərbaycan Dövlət Radio Verilişləri Komitəsinin sədr müavini və "Yazıçılar və şairlər cəmiyyəti"nin İdarə Heyətinin üzvü olmuşdu. Amma heç vaxt, hətta çətin vaxtlarda da qəlbi poeziyadan ayrılmayıb. Şeirlərini Azəroğlu təxəllüsü ilə qələmə alıb. Təbrizdə və Ərdəbildə şeirlər kitabları işıq üzü görüb. 1941-1945-ci illərdə Cənubi Azərbaycanda gedən milli azadlıq hərəkatında fəal iştirakına görə Milli Hökumət tərəfindən "21 Azər" medalı ilə təltif edilib. 1946-cı ildə "Firdovsi" medalına layiq görülüb.



Ancaq yenə də arzuları yarımçıq qalıb. Azərbaycan Milli Hökuməti dağıldıqdan sonra Balaş Azəroğlu bir müddət Təbrizdə gizlənib. 1947-ci il aprelin 15-də gizli yollarla Təbrizdən çıxarılaraq Bakıya gətirilib. Bakıda Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Filologiya fakültəsində təhsil alıb. Universiteti qırmızı diplomla başa vurub, müxtəlif vəzifələrdə çalışıb.

Balaş Azəroğlu Ərdəbildə, Təbrizdə, Bakıda rəhbər vəzifələrdə çalışarkən həmişə doğma dilinə və xalqına sadiq olub. Şeirləri şairin xalqına sevgisini, mübarizə əzmini təcəssüm etdirib:

Mən əyilib hakimin əllərindən öpmədim,
Şeirimi çiçək kimi ayaqlara səpmədim.
Nə aciz bir bəndəyəm, nə satılmış bir qulam,
Nə saray məddahıyam dərgahlardan qovulam.
Mən ellərin oğluyam, ellər böyütmüş məni,
Şeirim eldən alıbdır bu ilhamı, bu qüvvəni.
Mən nə şam, nə pərvanə, nə rübab şairiyəm,
Azadlıq carçısı, inqilab şairiyəm.

Balaş Azəroğlunun lirikasında məhəbbət də xüsusi yer tutur. Onun məhəbbət lirikasında səmimiyyət hakimdir. Şairin yaradıcılığında sevgi insanı yaşadan, çətinliklərə sinə gərməyə güc verən mənəvi qüvvə kimi təqdim olunur. O, sevginin yalnız sevincini deyil, ayrılığını, intizarını, həsrətini, sevənlərin qəlbində yaratdığı tələtümləri də poetik dillə ifadə edib.

1958-ci ildə Azərbaycan Yazıçılar Birliyinin üzvü seçilən B.Azəroğlu 1981-ci ildə Azərbaycanın "Xalq şairi" fəxri adına layiq görülüb.

Şairin müxtəlif illərdə çıxmış "Şeirlər", "Savalan", "Mübarizə yollarında", "Gənclik dostlarım", "Mənim nəğmələrim", "Səhər şəfəqləri", "Sənətin qüdrəti", "Hafizin qəbri üstündə", "Elə oğul istəyir Vətən", "Dünənim, bu günüm, sabahım", "Gəl, ay bahar", "Sinəm Savalan dağıdır", "Bir kürsü istəyirəm" və digər kitabları oxucular tərəfindən rəğbətlə qarşılanıb.

Elmi fəaliyyətlə də məşğul olan Balaş Azəroğlu 1966-cı ildə "Məhəmməd Əmaninin yaradıcılığı" mövzusunda elmi işini müdafiə edərək filologiya elmləri namizədi adını alıb.

Poeziyası bu gün də bütöv Azərbaycan sevgisinin, ayrılıq ağrısının və milli yaddaşımızın poetik ifadəsi kimi yaşayan Balaş Azəroğlu 2011-ci il aprelin 24-də Bakıda vəfat edib.

Zöhrə FƏRƏCOVA,
"Azərbaycan"

● Yaddaş

Türkiyədə çıxan dərgidə çap edilmiş məqaləsinin qurbanı oldu

Azərbaycan ədəbiyyatının inkişafında böyük xidmətləri olmuş, özündən sonra bir-birindən dəyərli əsərlər qoymuş görkəmli tənqidçilərimizdən biri də Ələkbər (Əli Nazim) Mahmud oğlu Mahmudzadədir. 36 il ömür sürmüş Əli Nazim bir payız günündə - 24 noyabr 1906-cı ildə Təbrizdə dünyaya göz açmışdı.



İlk təhsilini də elə Təbrizdə "Mədrəseyi-Nicat"da almışdı. Bu təhsil ocağında fars dilində yazıb-oxumağı mükəmməl öyrənmişdi. 1916-cı ildə 10 yaşı tamam olanda Təbrizdən ayrılaraq Batumidə yaşayan ailəsinin yanına köçmüşdü. Yazıb-oxumağa böyük maraq göstərən Əli Nazim Batumidə rus dilini də öyrənmişdi. Həmin dövr bu şəhərdə rus dilini bilmək vacib idi. Çünki hamı bu dildə danışır və yazırdı. Öyrəndiyi fars dili burada keçərli deyildi.

Daim biliyini artıran, ədəbiyyata böyük maraq göstərən Əli Nazim zaman keçdikcə biliyi və bacarığı ilə artıq cəmiyyətdə tanınmışdı. O, ədəbi yaradıcılığa 1921-ci ildə Batumidə işıq üzü görən "İştirak" qəzetində başlamışdı. Onun "Maarif və mədəniyyət", "Molla Nəsrəddin", "Dan ulduzu", "Hücum", "Yeni fikir", "Yeni yol", "Kommunist" qəzet və jurnallarında Hüseyn Cavid, Mirzə Ələkbər Sabir, həmçinin başqa görkəmli şair və yazıçılar haqqında bir-birindən dəyərli məqalələri çap olunmuşdu.

1922-ci ildə Səməd Ağaoğlu Batumidə yeni əlifba komitəsi yaradanda Ə.Nazim də komitənin işində yaxından iştirak etmiş, böyük fəallıq göstərmişdi. Daim oxumaq, təhsilini artırmaq arzusu ilə yaşayan gənc ədibin həyatında 1922-ci il böyük rol oynadı. Həmin il çoxdan bəri getmək və görmək arzusunda olduğu Bakıya köçdü. Köçməkdə əsas məqsəd və amalı təhsilini artırmaq idi. Əli Nazim Bakıya gələn kimi pedaqoji texnikuma qəbul oldu, arzusuna qovuşdu. Texnikumda oxuduğu illərdə ədəbiyyata, yaradıcılığa böyük maraq göstərən Əli Nazim dövri mətbuatla sıx əlaqələr qurdu, "Yeni yol" və "Kommunist" qəzetlərinə məqalələr göndərdi.

Texnikumu bitirdikdən sonra təhsilini davam etdirmək, elmi biliklərə dərindən yiyələnmək arzusunda olan Ə.Nazim 1925-ci ildə Azərbaycan KP MK-nın göndərişi ilə A.S.Yenukidze adına Leninqrad Şərq İnstitutunun Türkologiya Seminariyasına göndərildi. Bununla onun gələcək həyatının qarşısında geniş yollar açıldı. Əli Nazim dövrünün məşhur sovet şərqşünasları akademik A.N.Samoyloviç və professor Y.E.Bertelsindən dərs aldı.

O, institutda təhsil almaqla yanaşı, qələmindən də ayrılmırdı, müasir ədəbiyyatın aktual problemlərinə dair məqalələr yazıb Bakıda dərc olunan mətbuat orqanlarına göndərirdi. Həmin məqalələr "Kommunist"də, "Maarif və mədəniyyət"də işıq üzü görürdü. Əli Nazimin qələmə aldığı tənqidi məqalələr oxucular tərəfindən maraqla qarşılanırdı. Bu məqalələrdən ədəbiyyat dünyasına qədəm qoyan savadlı bir tənqidçinin addım səsləri eşidilirdi.

Əli Nazim 1927-ci ildə institutun son kursunda oxuyarkən müəllimlərinin tövsiyəsi ilə Leninqrad Şərq İnstitutundan 6 ay müddətinə İstanbula elmi ezamiyyətə göndərildi. Qardaş Türkiyədə olarkən də tənqidçi yaradıcılığından qalmadı, Türkiyə mətbuatında - "Türk yurdu" dərgisində Əli Nazimin müasir Azərbaycan ədəbiyyatından bəhs edən geniş məqaləsi dərc olundu. Ezamiyyətdən qayıdandan sonra Əli Nazim Moskvada aspiranturaya qəbul edildi. Burada tanınmış ədəbiyyatşünas professor V.F.Pereverzevin mühazirələrini dinlədi.

1930-cu ildə aspiranturanı başa vurduqdan sonra RSFSR Xalq Maarif Komissarlığının qərarı ilə Əli Nazimə dosent elmi adı verildi. Bir müddət SSRİ XKS-də Qanunların nəşri şöbəsində redaktor, eyni vaxtda Kommunist Akademiyasında elmi işçi və SSRİ xalqları ədəbiyyatı və incəsənəti seksiyasının elmi katibi vəzifələrində də işlədi. Bakıya qayıtdıqdan sonra Ə.Nazim "Azərnəşr"də Sosialist siyasi ədəbiyyat şöbəsinin müdiri və başqa rəhbər vəzifələrdə çalışdı. 1935-ci ilin əvvəllərində isə Azərbaycan Sovet Ensiklopediyasında Ədəbiyyat, dil və incəsənət şöbəsinin redaktoru təyin olundu.

Əli Nazimin dövrünün diktəsi ilə diqqət ayırdığı problemlər sırasında yeni ədəbiyyatın siması, ədəbiyyatda ideyalılıq və sinfilik problemləri olmuşdu. Onun "Bugünkü ədəbiyyatımız haqqında", "Proletar ədəbiyyatı ətrafında", "Bugünkü Azərbaycan ədəbiyyatı və onun ictimai məfkurəvi siması", "Süleyman Rüstəm haqqında kiçik bir mülahizə", "Günəşi içirik… günəşlənirik", "Yeni vəzifələr qarşısında", "Mədəni inqilab və mədəni irs məsələsi", "Çığırdaşlarımız haqqında", "Yeni Azərbaycan ədəbiyyatı", "Proletar ədəbiyyatımızın yaradıcılıq siması", "Ədəbiyyatımızı bolşevikləşdirmək və həqiqi proletar ədəbiyyatı yaratmaq…", "Şeirimizin və şüurumuzun xəstəlikləri haqqında", "Üç şeir" və s. məqalələri o dövrün ədəbiyyatının yaradıcılıq məsələlərinə həsr olunmuşdu.

Əli Nazimin yaradıcılığını yaxından öyrənməyə maraq göstərdiyi ədəbiyyat adamlarından biri də görkəmli dramaturq Cəfər Cabbarlı olmuşdu. Tənqidçinin "Almaz", "Yaşar"a doğru", "Cəfər Cabbarlının yaradıcılıq yolu", "Cəfər Cabbarlı" məqalələri bu gün də maraqla oxunur. Alim həmçinin dünya və SSRİ xalqları ədəbiyyatları, Firdovsi, Nəvai, Xəyyam, Hötе kimi şəxsiyyətlər haqqında da heç vaxt təravətini itirməyən, bu gün də öz dəyərini qoruyub saxlayan məqalələr yazmışdı.

Ədəbiyyat Ensiklopediyasındakı (Moskva) "Hüseyn Cavid", "Əli bəy Hüseynzadə", "Abdulla Cövdət", "Ziya Göyalp", "Ziya Paşa", "Məhəmməd Fuad Köprülüzadə", "Namiq Kamal", "Lahuti" və başqa məqalələrin müəllifi də Əli Nazimdir. Bundan başqa, tənqidçi "XIX-XX əsr Azərbaycan ədəbiyyatı tarixi", "Mirzə Fətəli Axundzadənin fəlsəfi görüşləri", "Cəlil Məmmədquluzadə və yaradıcılığı" kitablarını da yazmışdır.

Professor B.Çobanzadənin və Az.FAN-ın sədr müavini R.Axundovun 1935-ci ildə geniş rəy və müraciətindən sonra SSRİ Elmlər Akademiyası Rəyasət Heyəti 1936-cı il 15 may tarixli qərarı ilə Əli Nazimə müdafiə etmədən ədəbiyyatşünaslıq üzrə "İctimai elmlər namizədi" elmi dərəcəsi vermişdir.

Təəssüflər olsun ki, yaradıcılığının çiçəkləndiyi bir vaxtda - 31 yaşında 1937-ci ilin repressiya dalğası ondan da yan keçmədi. Həmin il martın 18-də görkəmli tənqidçi həbs edildi. Müstəntiqin ona qarşı irəli sürdüyü ittiham Türkiyədə çıxan "Türk yurdu" dərgisinin 1927-ci ildəki iki nömrəsində dərc edilən "Yeni Azərbaycan ədəbiyyatı" adlı məqaləsi olmuşdu. 1937-ci il oktyabrın 13-də SSRİ Ali Məhkəməsi Hərbi kollegiyası səyyar sessiyasının qərarı ilə Ə.Nazimə 10 il həbs cəzası verildi. Tətbiq edilən ağır işgəncələrə dözə bilməyən görkəmli tənqidçi 1941-ci il avqustun 31-də Oryol həbsxanasında dünyasını dəyişdi.

V.MƏHƏRRƏMOV,
"Azərbaycan"

Xocavənddə daha 48 ailəyə evlərinin açarları təqdim olunub





Bu gün Xocavənd şəhərinə və Quzeyxırman kəndinə çatan ailələrə evlərinin açarları təqdim olunub.

AZƏRTAC xəbər verir ki, köçən ailələr qarşılandıqdan sonra onlara ANAMA-nın əməkdaşları tərəfindən mina və partlamamış hərbi sursatların yaratdığı təhlükələr barədə ətraflı məlumat verilib. Ailələrə tanımadıqları naməlum əşya və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları təqdirdə isə aidiyyəti qurumlara məlumat verələri tövsiyə olunub.

Açarların təqdim olunması mərasimində Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər.

Ailələr açarları sevinclə qəbul edərək evlərində məskunlaşıblar.

Öz yurdlarına qayıdan keçmiş məcburi köçkünlər onlara göstərilən dövlət qayğısından böyük məmnunluq duyaraq, yaradılan müasir yaşayış şəraitinə görə ölkə rəhbərliyinə dərin minnətdarlıqlarını ifadə ediblər. Sakinlər bu tarixi Qələbəni bizə bəxş edən, torpaqlarımızı işğaldan canı bahasına azad edən qəhrəman şəhidlərimizin əziz xatirəsini ehtiramla anıb, onlara Allahdan rəhmət diləyiblər. Eyni zamanda döyüşlərdə şücaət göstərən qazilərimizə uzun ömür və cansağlığı arzulayan sakinlər azad edilmiş ərazilərdəki dirçəlişin məhz bu fədakarlıq sayəsində mümkün olduğunu vurğulayıblar. Bildirilib ki, bu gün başlayan yeni həyat həm də şəhid və qazilərimizin bizə əmanət etdiyi Zəfərin bəhrəsidir.

Qeyd edək ki, bu mərhələdə Xocavənd şəhərinə 36 ailə olmaqla 140 nəfər, Quzeyxırman kəndinə 12 ailə olmaqla 45 nəfər köçürülüb. Onlar respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, düşərgə, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir.

Bakı şəhərində qarlı havalara hazırlıq tədbirləri davam edir

Bakı şəhərinin bütün rayonlarında təsdiq edilmiş tədbirlər planlarına uyğun olaraq qış mövsümünə hazırlıq tədbirləri davam edir. İlk növbədə şəhər və rayon kommunal xidmətlərinin xüsusi təyinatlı texnikaları hazır vəziyyətə gətirilib, bir sıra yaşayış və qeyri-yaşayış binalarında təmir işləri aparılıb, əlavə tədbirlər görülüb.



Bakı Şəhər İcra Hakimiyyətinin Mətbuat xidmətindən verilən məlumata görə, bu işlərə nəzarət məqsədilə icra hakimiyyəti tərəfindən hər bir rayona cavabdeh şəxs təyin edilib. Həmin şəxslər yerli icra hakimiyyətlərinin nümayəndələri ilə birgə mütəmadi olaraq rayonlarda qarlı havalara hazırlıq tədbirlərinin keçirilməsini təmin edir, verilən tapşırıqların və görülən işlərin icra vəziyyətini yoxlayırlar.

Bu işlər çərçivəsində paytaxtın Nərimanov, Binəqədi və Nəsimi rayonlarında qışın qarlı havalarına hazırlıq tədbirlərinin müzakirəsi məqsədilə Bakı Şəhər İcra Hakimiyyətinin məsul şəxslərinin, rayon rəhbərliyi, kommunal-təsərrüfat, idarə və təşkilatlarının, təhsil müəssisələrinin və digər aidiyyəti qurumların rəhbərlərinin, həmçinin özəl sektorun nümayəndələrinin iştiraki ilə operativ müşavirələr keçirilib. Müşavirələrdə hər bir sahənin rəhbərinin hesabatı dinlənilib.

Qeyd olunub ki, rayonlardakı hər bir qurum qış aylarında üzərinə düşən vəzifələri dəqiq bilməli, yarana biləcək problemləri operativ şəkildə aradan qaldırmağı bacarmalı və yerlərdə kifayət qədər duz və lazımi inventar ehtiyatı yaradılmalıdır. Bildirilib ki, hər bir təşkilat mövsümə hazırlıq tədbirlərinin həyata keçirilməsində fəal iştirak etməli və yağıntılar zamanı ərazilərin qardan və buzdan təmizlənməsi üçün müvafiq tədbirlər görməlidir. Qarın təmizlənməsi işlərinə kommunal qurumların texnikası ilə yanaşı, idarə, təşkilat, bələdiyyə və özəl qurumların da mövcud texnikalarının cəlb edilməsi qərara alınıb.

Müşavirələrdə rayonlardakı qurumlar arasında konkret vəzifə bölgüsü müəyyənləşdirilib, cavabdeh şəxslərə tapşırıqlar verilib. Eyni zamanda həm də ictimai iaşə müəssisələrinin, özəl qurumların rəhbərlərinə, ictimaiyyət nümayəndələrinə qarlı günlərdə bir sıra xarici ölkələrdə də qəbul edilən qaydalara uyğun özlərinə aid ərazilərin təmizlənməsində yaxından iştirak etməyə çağırış edilib.

"Azərbaycan"

Böyük qayıdışın növbəti ünvanı - Cahangirbəyli: 18 ailə doğma yurduna qovuşdu

İşğaldan azad olunan Zəngilan rayonunun Cahangirbəyli kəndinə növbəti köç prosesi gerçəkləşib.

AZƏRTAC xəbər verir ki, Cahangirbəyli kəndinə bu gün 18 ailə olmaqla 74 nəfər qayıdıb.





Qeyd edək ki, ümumi sahəsi 179,5 hektar olan Cahangirbəyli kəndində birinci mərhələ üzrə 62,57 hektar ərazidə 242 fərdi evin, məktəb binasının, körpələr evi-uşaq bağçasının, ikimərtəbəli inzibati binanın, bazar kompleksinin və çoxfunksiyalı binanın tikintisi həyata keçirilib. Evlər 2, 3, 4, 5 otaqlıdır. Onların hamısı su, işıq, qaz, Günəş panelləri və yüksəksürətli internetlə təmin olunub. Kənddaxili yollar da asfaltlanıb. Kənddəki çoxfunksiyalı binada həkim-tibb məntəqəsi, aptek, market, dərzi, gözəllik salonu da yer alır. Cahangirbəylidə 80 yerlik körpələr evi-uşaq bağçasında balacaların rahatlığının təmin olunmasına xüsusi diqqət yetirilib. Kənddə, inzibati binanın yaxınlığında Bayraq meydanı da inşa edilib. Bayraq meydanının yaxınlığında isə uşaq oyun meydançası, sakinlərin sağlam həyat tərzinin təşviqi və fiziki aktivliyinin artırılması məqsədilə idman zonası və park yaradılıb.

Kəndə köçən ailələr qarşılandıqdan sonra onlara ANAMA-nın əməkdaşları tərəfindən mina və partlamamış hərbi sursatların yaratdığı təhlükələr barədə ətraflı məlumat verilib. Ailələrə tanımadıqları naməlum əşya və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları təqdirdə isə aidiyyəti qurumlara məlumat verələri tövsiyə olunub. Açarların təqdim olunması mərasimində Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər.

Ailələr sevinclə açarları qəbul edərək evlərində məskunlaşıblar.

Daha 17 ailə Soltanlı kəndində məskunlaşdı

İşğaldan azad olunan Cəbrayıl rayonunun Soltanlı kəndinə növbəti köç prosesi gerçəkləşib, səhər saatlarında yola salınan ailələr doğma yurdlarına qovuşublar.

AZƏRTAC xəbər verir ki, Soltanlı kəndi bu gün 17 ailə olmaqla 74 nəfərə qucaq açıb. Ailələr yenidən qurulan kəndə sevinc göz yaşları ilə qədəm qoyub və doğma yurdlarında yaradılan gözəlliyi seyr ediblər.



Qeyd edək ki, ümumi sahəsi 108,5 hektar olan Soltanlı kəndində 420 fərdi ev inşa edilib. Evlər 2, 3, 4, 5 otaqlıdır və müasir kommunikasiya şəbəkəsi - su, işıq, qaz, Günəş panelləri, yüksəksürətli internetlə təmin olunub. Kənddaxili yollara asfalt döşənib. Layihə üzrə Soltanlı kəndində ikimərtəbəli inzibati bina, uşaq bağçası, həkim-tibb məntəqəsi, aptek, market, dərzi, gözəllik salonu və digər xidmət mərkəzləri üçün nəzərdə tutulmuş bir və ikimərtəbəli hissələrdən ibarət olmaqla çoxfunksiyalı bina inşa edilib.

Doğma yurdlarına qayıdan keçmiş məcburi köçkünlər onlara göstərilən dövlət qayğısından böyük məmnunluq duyaraq, yaradılan müasir yaşayış şəraitinə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər. Sakinlər bu tarixi Qələbəni bizə bəxş edən, torpaqlarımızı işğaldan canı bahasına qurtaran qəhrəman şəhidlərimizin əziz xatirəsini ehtiramla anıb, onlara Allahdan rəhmət diləyiblər. Eyni zamanda döyüşlərdə şücaət göstərən qazilərimizə uzun ömür və cansağlığı arzulayan sakinlər azad edilmiş ərazilərdəki dirçəlişin məhz bu fədakarlıq sayəsində mümkün olduğunu bildiriblər.

Soltanlı kəndinə köçən ailələrə ANAMA-nın əməkdaşları tərəfindən mina və partlamamış hərbi sursatların yaratdığı təhlükələr barədə ətraflı məlumat verilib. Onlara tanımadıqları naməlum əşya və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları təqdirdə isə aidiyyəti qurumlara məlumat verələri tövsiyə olunub.

Açarların təqdim olunması mərasimində Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər.

Ailələr sevinclə açarları qəbul edərək evlərində məskunlaşıblar.

Bəşəriyyətin iqlim sınağı

Müstəqil tədqiqat qrupu "Climate Action Tracker"in (CAT) hesablamalarına əsasən, iqlimlə bağlı hazırkı vəziyyət dəyişməsə, əsrin sonunadək dünyada temperatur sənayeləşmədən əvvəlki həddən 2,7 dərəcə yuxarı qalxacaq.



Bunun əsas səbəbi dövlətlərin atmosferə atılan zərərli qazları azaltmaq üçün lazımi addımları ləngitməsidir. "Climate Action Tracker" proqnozlarını hazırlayarkən qlobal emissiyaların təxminən 85 faizini təşkil edən 40-dan çox ölkənin və Avropa İttifaqının iqlim siyasətini təhlil edir. Beynəlxalq Enerji Agentliyinin məlumatına görə, qlobal istixana qazı emissiyalarının böyük hissəsi bir neçə aparıcı ölkənin payına düşür.

Mövcud proqnoz Paris Sazişində qarşıya qoyulan 1,5 dərəcəlik həddən xeyli yüksəkdir. 2015-ci ildə imzalanmış Paris Sazişinə əsasən, ölkələr qlobal istiləşməni 2 dərəcədən aşağı saxlamaq və 1,5 dərəcə həddində məhdudlaşdırmaq öhdəliyi götürüblər. Mütəxəssislərin fikrincə, temperaturun bu qədər artması güclü fırtınalar, quraqlıq, daşqınlar və istilər kimi təbiət fəlakətlərini daha da şiddətləndirəcək. BMT-nin İqlim Dəyişmələri üzrə Hökumətlərarası Ekspertlər Qrupunun hesablamalarına əsasən, qlobal istiləşmə 1,5 dərəcə səviyyəsində saxlanılarsa, təxminən 3,3-3,6 milyard insanın iqlim dəyişikliyinin yüksək risklərinə məruz qalması davam edəcək. 2 dərəcə və daha yüksək artım zamanı isə mərcan riflərinin 99 faizinin məhv olması və dəniz səviyyəsinin daha sürətlə qalxması qaçılmaz olacaq. Ümumdünya Meteorologiya Təşkilatının və BMT-nin İqlim Dəyişmələri üzrə Hökumətlərarası Ekspertlər Qrupunun məlumatlarına görə, Yer kürəsində orta temperatur artıq sənayeləşməöncəsi səviyyədən təxminən 1,2-1,4 dərəcə yüksəlib. Eyni zamanda Ümumdünya Meteorologiya Təşkilatı son 10 ilin müşahidələr tarixində ən isti dövr kimi qeydə alındığını və okeanların həddindən artıq istiləşməsinin buzlaqların əriməsini sürətləndirdiyini təsdiqləyir. Hətta dünya ölkələri verdiyi bütün iqlim vədlərinə əməl etsə belə ən yaxşı halda əsrin sonuna qədər havanın 1,9 dərəcə isinəcəyi ehtimal olunur.

BMT-nin baş katibi Antonio Quterreş dövlətləri neft, qaz və kömür kimi ənənəvi yanacaqlardan imtinanı sürətləndirməyə çağırıb. BMT-nin hesablamalarına əsasən, qalıq yanacaqlar qlobal istixana qazı emissiyalarının 75 faizindən çoxunu və bütün karbon qazı tullantılarının təxminən 90 faizini təşkil edir. 1,5 dərəcəlik hədəfə çatmaq üçün isə 2030-cu ilə qədər qlobal emissiyalar 2019-cu il səviyyəsi ilə müqayisədə 43 faiz azaldılmalıdır. Bununla yanaşı, BMT-nin Ətraf Mühit Proqramının "Emissiya Boşluğu" hesabatına əsasən, bu hədəfə nail olmaq üçün 2030-cu ildək qlobal istixana qazı tullantıları hər il orta hesabla 7,5 faiz azaldılmalı, bərpaolunan enerji gücü isə üç dəfə artırılmalıdır. Hesabatı hazırlayan ekspertlər bildiriblər ki, temperaturun hətta cüzi artımı belə ağır fəsadlar törədə bilər və buna görə də zərərli tullantıların azaldılması üçün vaxt itirmədən hərəkətə keçmək lazımdır.

Təhminə VERDİYEVA,
"Azərbaycan"

Alimlər xroniki iltihabın yaranma mexanizmini araşdırmaq üçün yeni alət hazırlayıblar

ABŞ-nin Kaliforniya Universitetinin Riversayd kampusunun alimləri insan hüceyrələrində iltihabın necə başladığını müəyyən etməyə imkan verən yeni elmi alət hazırlayıblar. Bu kəşf xroniki iltihabın yaranma mexanizmlərinin daha dərindən öyrənilməsinə və gələcəkdə onun qarşısının alınması yollarının müəyyənləşdirilməsinə kömək edə bilər.

AZƏRTAC xəbər verir ki, tədqiqatın nəticələri "Free Radical Biology and Medicine" elmi jurnalında dərc olunub.

Araşdırmada alimlər hüceyrənin enerji istehsalına cavabdeh olan mitoxondrilərdə DNT-nin zədələnməsi ilə iltihab reaksiyası arasındakı əlaqəni öyrəniblər. Mitoxondrilər hüceyrə nüvəsindəki DNT-dən fərqli olaraq öz genetik materialına malikdir. Əvvəlki tədqiqatlar mitoxondrial DNT-nin immun sisteminin fəaliyyətində mühüm rol oynadığını göstərsə də, onun zədələnməsinin iltihaba necə təsir etdiyi tam aydın deyildi. Tədqiqatçılar bu əlaqəni araşdırmaq üçün tənəffüs yollarını örtən insan hüceyrələrindən istifadə ediblər. Bu hüceyrələr hava vasitəsilə orqanizmə daxil olan çirkləndiricilərlə birbaşa təmasda olduqları üçün iltihab proseslərinin öyrənilməsində xüsusi əhəmiyyət daşıyırlar.

Təcrübələr göstərib ki, hazırlanmış vasitə hüceyrə nüvəsindəki DNT-yə zərər vermədən mitoxondrial DNT-ni zədələyə bilir. Tədqiqatçılar, həmçinin zədələnmiş mitoxondrial DNT-ni mitoxondrilərin xaricindəki hüceyrədaxili mayedə aşkar ediblər. Belə molekullar hüceyrə üçün təhlükə siqnalı rolunu oynayaraq immun reaksiyasında və iltihab prosesində iştirak edən genləri aktivləşdirə bilər.

Tədqiqatın müəllifi, kimya professoru Linlin Zhao bildirib ki, yeni vasitə mitoxondrial zədələnmənin iltihaba təsirini araşdırmaq üçün alimlərə yeni imkanlar yaradır. Tədqiqatçılar növbəti mərhələdə DNT-yə müxtəlif səviyyələrdə zərər vuran molekulları sınaqdan keçirməyi planlaşdırırlar. Onlar iltihab reaksiyasının başlaması üçün nə qədər zədələnmənin tələb olunduğunu, eləcə də bu mexanizmin hüceyrələrin yaşlanmasında rolunu müəyyənləşdirmək istəyirlər.

Alimlərin fikrincə, iltihabı başladan mexanizmlərin dəqiq müəyyənləşdirilməsi onun xroniki xarakter almadan qarşısının alınması üçün yeni yanaşmaların hazırlanmasına şərait yarada bilər. Xroniki iltihab artrit, 2-ci tip diabet, Alzheimer xəstəliyi və bəzi xərçəng növləri də daxil olmaqla bir sıra xəstəliklərin inkişafında mühüm amillərdən biri hesab olunur.

ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov akademik Əli Abbasova anası
FATMA XANIMIN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə Azərbaycan Respublikası Prezidenti yanında Əfv Məsələləri Komissiyasının üzvü, Yazıçılar Birliyinin katibi Rəşad Məcidə anası
YAVƏR XANIMIN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəhbərliyi və kollektivi İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərliyə əzizi
İRA QAFAROVANIN
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəhbərliyi və kollektivi iş yoldaşları Leyla Vəlizadəyə qardaşı
ELDAR VƏLİYEVİN
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 538-35-55
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60, 434-55-58
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə
az.reklam@mail.ru

www.azerbaijan-news.az

Qeydiyyat № 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti
Tiraj 3292
Sifariş 1516
Qiyməti 60 qəpik